# QARABAĞ AZƏRBAYCANDIR!



RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 209 (8802) CÜMƏ AXŞAMI, 30 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Milli iradə, milli ruh, milli ləyaqətin təntənəsi

Xalqların həyatında onların taleyini dəyişən, tarixini yeni bir səhifədən başlayan günlər olur. Elə günlər ki, yalnız onları yaşayanda həmin anlara nə qədər böyük ehtiyac duyduğunu hiss edirsən. Uzun illər ərzində intizarını çəkdiyimiz bu hissləri gözlədiyinin fərqində olursan.

Heç kəsə sirr deyil ki, Ermənistanın təcavüzkar siyasəti nəticəsində ərazilərimizin 20 faizinin işğal altında qaldığı, doğma yurdlara doğru aparan yolların üzümüzə bağlı olduğu təxminən 30 ilə yaxın müddətdə bu problemi ömrümüzdəki böyük bir boşluq kimi yaşayırdıq.

İlk baxışdan həyatımızda, sanki hər şey nizamında, qaydasında idi. Amma nəyinsə çatmadığının, özümüzü xoşbəxt sanmaq üçün hər şeyin yerli-yerində olmadığının hər birimiz fərqində idik. Ürəyimizdəki Qarabağ nisgilini duyurduq. Əlimiz yetməyən işğal altında yolumuzu gözləyən müqəddəs ocaqlarımız, yağı düşmənin Azərbaycanın bağrından qoparmağa çalışdığı yaralı torpaqlarımız idi. Bu acını iliklərimizə qədər hiss edirdik. Gündəlik həyatımızın hər anında işğalın kədərli nişanələri, bu itkini bizə hansısa formada xatırladan əlamətləri qarşımıza çıxırdı. İllər keçirdi, amma bu boşluq aradan qalxmırdı, daha da böyüyürdü.

Nəhayət, 2020-ci ilin 27 sentyabrı böyük Zəfərə gedən yolun başlanğıc nöqtəsi kimi tarixə yazıldı. Həmin gün Vətən savaşının qələbə dolu əks-sədası eşidildi.

Böyük qələbəmizə doğru ilk addımın atıldığı 27 sentyabr günü heç zaman unudulmayacaq. Qəhrəmanlıqları ilə dastana çevrilmiş Azərbaycan övladlarının Vətən müharibəsindəki şücaəti, əzmkarlığı nəsillərə örnək olacaq. Şəhidlərimizin əziz xatirəsi hər zaman anılacaq, onların igidlik hekayələri dillərdə dolaşacaq. Xalqımız sentyabrın 27-də Ermənistan silahlılarının növbəti təxribatına cavab olaraq Ordumuza hücum əmri verən və bununla regionda yeni bir reallıq yaradan Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, əsgər və zabitlərimizlə birgə Vətənə bəxş etdiyi tarixi Qələbə ilə daim qürur duyacaq.

Həmin günün, ümumən Vətən müharibəsinin, qazandığımız qələbənin tarixi mahiyyətinin ətraflı öyrənilməsi və yeni nəsillərə düzgün çatdırılması hər bir Azərbaycan ziyalısının ümdə vəzifəsidir. Çünki son bir neçə əsrlik tariximizdə buna bənzər zəfər olmayıb. Əfsuslar olsun ki, son bir neçə illik tariximiz daha çox torpaqlarımızın hissə-hissə qoparılması, itkilər, xalqımıza qarşı törədilən soyqırımlar, ümidlə qurduğumuz dövlətçilik təsisatlarının süqutu, inkişafımıza mane olmaqdan ötrü böyük güclərin ermənilərdən alət kimi istifadə edərək qarşımıza qoyduqları problemlər və başqa bu kimi məyusedici reallıqlarla xarakterik idi.

Ardı 7-ci səh.

# Azərbaycanla Gürcüstan arasında siyasi dialoq həmişə fəal olub

## Əlaqələrin gücləndirilməsi nəinki təkcə bizim xalqlarımız üçün, eyni zamanda, bütün region üçün önəmlidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Gürcüstanın Baş nazirini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab Baş nazir, sizi görmək çox xoşdur. Azərbaycana xoş gəlmisiniz. Sizi ölkəmizdə yenidən görməyə şadam. Biz bu il artıq ikinci dəfədir ki, görüşürük. Həmçinin bizim ikitərəfli münasibətlərimizin mühüm məsələlərinin müzakirəsini apardığımız bir neçə telefon danışığımız olub. Bu gün biz dialoqumuzu davam etdirəcəyik. İki qardaş ölkə arasında siyasi dialoq həmişə fəal olub və indi də fəal olmaqda davam edir. Biz xarici siyasətlə bağlı məsələlərdə sıx əməkdaşlıq edirik, xüsusilə indi yeni çağırış və imkanlar olan regionumuzda.

Əlbəttə ki, ölkələrimiz arasında siyasi əlaqələrin gücləndirilməsi nəinki təkcə bizim xalqlarımız üçün, eyni zamanda, bütün region üçün önəmlidir. Mən bəzi məlumatlara nəzər saldım və gördüm ki, iqtisadi inkişaf sahəsində bizdə yaxşı irəliləyiş var, ticarət dövriyyəsi artır. Bu gün hökumətlərarası komissiyanın iclası olacaq.

Ardı 2-ci səh.

# “İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir”

## İlham Əliyev Anadolu Agentliyinə müsahibəsində Qarabağ münaqişəsinin tam bitdiyini və bizi dayandıran qüvvənin olmadığını bəyan etdi

Dünyanın diqqəti yenə Azərbaycana yönəlib. İkinci Qarabağ müharibəsinin qalib dövlətinin qazandığı şanlı Zəfər və postmüharibə dövründə yaşanan reallıqlar müzakirə mövzusuna çevrilib.

Qalib dövlətin qalib Sərkərdəsi İlham Əliyev iştirak etdiyi beynəlxalq təşkilatların tədbirlərində, xarici KİV-ə verdiyi müsahibələrdə bir daha əsl həqiqətləri açıqlayır. BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələrində, Rusiyanın “Nasionalnaya oborona” jurnalına və Türkiyənin Anadolu Agentliyinə müsahibələrində İlham Əliyev həm müharibənin başlanma səbəblərini açıqladı, həm Azərbaycan Ordusunun zəfər yolundan danışdı, həm də postmüharibə dövrünün reallıqlarına uyğun fikir və təkliflərini səsləndirdi.

### Müharibənin başlanma səbəbləri

Bütün çıxışlarında, müsahibələrində ilk olaraq müharibənin başlanması səbəblərinə aydınlıq gətirən İlham Əliyev deyir ki, 30 il müddətində beynəlxalq ictimaiyyət, xüsusən problemin həllində vasitəçilik edən tərəflər münaqişənin güc yolu ilə həllinin mümkünsüzlüyünü təlqin edirdilər.

Ardı 5-ci səh.

# Şərtləri və qaydaları Azərbaycan müəyyən edir

## Qarabağdakı ermənilərə heç bir özünüidarəetmə hüququ verilməyəcək

İkinci Qarabağ müharibəsi Azərbaycanın hərbi-siyasi zəfəri ilə yanaşı, həm də milli maraqlarının qələbəsi kimi başa çatdı.

Çünki əgər müharibəyə qədər Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar prosesində qarşılıqlı kompromislər üçün Azərbaycana məqbul sayılmayan şərtlər hakim idisə, müharibənin yaratdığı reallıqlar vəziyyəti köklü surətdə dəyişdi. Artıq şərtləri tam olaraq Azərbaycan diktə edir və ermənilərin nəinki müstəqillik xülyalarına son qoyuldu, hətta onlara muxtariyyət belə verilməyəcəkdi.

Sentyabrın 28-də Fransanın “France-24” televiziya kanalına müsahibə verən Prezident İlham Əliyev bir daha Azərbaycanın mövqeyini və şərtlərini dünya birliyinin diqqətinə çatdırdı.

Ardı 5-ci səh.

# A.ADİBEKYAN: “Azərbaycan istəyinə hər zaman nail olmaq gücündədir”

## Müharibənin ildönümü Ermənistanda depressiya, çaşqınlıq və ümidsizlik şəraitində keçən matəm günü kimi xatırlandı

Vətən müharibəsinin başlamasının ilk ildönümü Azərbaycanda xüsusi olaraq qeyd edildi. Çünki zəbt edilmiş ərazilərin geri qaytarılması uğrunda 44 gün davam edən müqəddəs savaş Azərbaycanın qeyd-şərtsiz qələbəsi ilə başa çatmışdır.

Azərbaycanın Vətən müharibəsində qazandığı bu parlaq Qələbə ədalətin zəfər çalması ilə bərabər, həm də ermənilər üçün unudulmaz dərs olmuşdur.

Ardı 12-ci səh.

# Qələbədən sonra Azərbaycan xarici investorlar üçün daha cəlbedici olub

## Xeyli sayda xarici şirkət Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələrə maraq göstərir



Azərbaycanın dövlət müstəqilliyinin bərpasından təxminən 30 il ötür. Bu zaman kəsimi bir igid ömrü qədər olsa da, dövlətin inkişaf tarixində həddən artıq azdır. Ona görə ki, dövlətin formalaşması, təşəkkül tapması və inkişafı üçün əsrlər lazımdır.

Azərbaycan isə elə müstəqilliyinin ilk günündən müharibə vəziyyətində olmuş, ərazisinin böyük bir qismi işğalçı Ermənistanın tapdağı altında qalmış, iqtisadiyyatına görünməmiş ziyan dəymişdir. Bu səbəbdən hər il dövlət büdcəsinin xeyli hissəsi hərbi xərclərə yönəldilmişdir. Çünki müasir ordunun qurulması, onun 5-ci nəsil hücum və müdafiə sistemləri ilə təchiz edilməsi, yüksək döyüş qabiliyyətli zabit və əsgər heyətinin hazırlanması ağla batmayan böyük vəsaitlər tələb edir. Bəzən bu xərclər işğalçı Ermənistanın bütün dövlət büdcəsindən də artıq olur.

Ardı 10-cu səh.

# Azərbaycanla Gürcüstan arasında siyasi dialoq həmişə fəal olub

## Əlaqələrin gücləndirilməsi nəinki təkcə bizim xalqlarımız üçün, eyni zamanda, bütün region üçün önəmlidir







*Əvvəli 1-ci səh.*

Mən əminəm ki, bu iclasda bir çox mühüm sahələr əhatə olunacaq, görülmüş işlərə nəzər salınacaq və gələcək addımlarımız planlaşdırılacaq.

Ölkənizdəki çox müsbət investisiya mühiti, sizə bir çox sosial və iqtisadi məsələləri həll etməyə imkan verən iqtisadi islahatlar bizi çox məmnun edir. Həmçinin hökumətinizi Gürcüstandakı bütün sahələrdəki inkişafla bağlı əldə etdiyiniz böyük uğur münasibətilə təbrik etmək istəyirəm. Biz dost və qardaş olaraq bu inkişaf proseslərini görməyə çox şadıq, yeni səylərinizdə şəxsən sizə və hökumətinizə uğurlar arzulayırıq.

Əlbəttə ki, biz bu gün neft və qaz, elektrik enerjisi, nəqliyyat sahələri kimi əməkdaşlığımızın ənənəvi sahələri haqqında da danışacağıq. Bunlar artıq həyata keçirilmiş layihələrdir və indi biz bu layihələrin faydasını görürük. Bu, bizim ölkələrimiz arasında əməkdaşlığın çox xüsusi formatını yaradıb. Çünki bu layihələr təkcə bizim ölkələrimiz üçün deyil, Avrasiya regionunda bir çox ölkələr üçün əhəmiyyət kəsb edir. Əminəm ki, bugünkü səfər əməkdaşlığımıza yeni təkan verəcək.

Dəvətimi qəbul edib ölkəmizə səfərə gəldiyiniz üçün sizə minnətdarlığımı bildirmək istəyirəm. Bir daha xoş gəlmisiniz!

Baş nazir **İrakli QARİBAŞVİLİ** dedi:

- Cənab Prezident, bizi dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. Burada, Bakıda olmaqdan böyük məmnuniyyət hissi keçirirəm. Səmimi qəbula və qonaqpərvərliyinizə görə çox sağ olun. Bu, mükəmməl olan ikitərəfli əlaqələrimiz barədə danışmaq üçün böyük imkandır. Qeyd etdiyiniz kimi, biz dost, qardaşıq. Bu gün biz, həmçinin iqtisadi komissiyanın 8-ci iclasını keçirəcəyik və inkişafda olan ikitərəfli əlaqələrimizi müzakirə edəcəyik.

Gürcüstan, sözsüz ki, siyasi, iqtisadi, mədəni və digər sahələrdə ikitərəfli əlaqələrimizin güclənməsində maraqlıdır. Biz, həmçinin regionda sülh və sabitliyin olmasında maraqlıyıq. Bu, güclü iqtisadi inkişafın təməli olacaq.

Bu, mənim bu il Azərbaycana artıq ikinci səfərimdir. Cənab Prezident, qeyd etdiyiniz kimi, biz dəfələrlə telefonla danışmışıq. Əminəm ki, bu gün biz gələcəyimizlə bağlı bir çox məsələləri müzakirə edəcəyik. Əminəm ki, bu, daha bir səmərəli görüş olacaq. Mən bir daha Sizə təşəkkür edirəm!

❖ ❖ ❖

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili işçi nahar etdilər.

## 2021/2022-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. 2021/2022-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abdullayev Anar Yaşar oğlu
Abdullayev Camal Əhməd oğlu
Abdullazadə Nigar Qabil qızı
Ağarzayeva Tamara Mehran qızı
Ağayev Tamerlan Rizvan oğlu
Ağayeva Əsmər Osman qızı
Allahverdiyeva Aynur Rauf qızı
Allahverdiyeva Türkan Musa qızı
Alməmmədli Aydan Faiq qızı
Aslanova Rübabə Kamran qızı
Bağırova Gülay Elşad qızı
Baxşalıyev Ramin Amil oğlu
Baxşəliyev Eldar Fətəli oğlu
Bayramov Elçin İlqar oğlu
Bəbişli Cavad Ümüdvar oğlu
Bədəlov Əflan Aslan oğlu
Bəşirov Fətulla Vaqif oğlu
Cabbarzadə Sevinc Zeynal qızı
Camaləddinli Cəmşid Mürşüd oğlu
Cəfərli Aysel Eynur qızı
Cəfərova Nərgiz Zaur qızı
Çələbiyev Nazim Eldəniz oğlu
Dürüskari Fatimə Rzayevna
Əfəndiyev Kamil Nazim oğlu
Əhmədzadə Fatimə İxtiyar qızı
Əliyev Əlehsan Rövşənoviç
Əliyev Mirmahmud İsmayıl oğlu
Əliyev Murad Elçin oğlu
Əliyeva Elvina İlqar qızı
Əliyoldaşov Gülbala Əliyoldaş oğlu
Əmirova Şəbnəm Zöhrab qızı
Ənsərli Cahan Akif qızı
Əsədov İsmayıl Abbas oğlu
Fərziyeva Esmira Natiq qızı
Hacıyeva Sevin Eldar qızı
Heydərova Elanə Arif qızı
Həmzalı Nəzrin Elçin qızı
Həsənli Oğuz Malik oğlu
Həsənov İlham Babək oğlu
Həşimzadə Həmid Ramin oğlu
Hümmətova Aysu Razim qızı
Hüseynov Hüseynəli Surxay oğlu
Hüseynov Şamşur Şahmar oğlu
Hüseynzadə Aysun Eldar qızı
Xəlilli Murad Çingiz oğlu
İbrahimxəlilov Yaşar Təmraz oğlu
İbrahimova Mədinə Eldəniz qızı
İsgəndərli Nərmin Şahin qızı
İsmayılova Nuridə Qüdrət qızı
Kazımov Ayxan Seymur oğlu
Kərimli Fidan Vasif qızı
Kərimova Maya Ramin qızı
Qasımov Səmral Seymur oğlu
Qasımova Röya Anar qızı
Qebedova Billurə Elnur qızı
Quliyev Cəfər Qafar oğlu
Quliyev Fuad Anar oğlu
Quliyev Rüfət Vüqar oğlu
Quliyev Şamil Orxan oğlu
Qulizadə Nərmin Əli qızı
Qurbanlı Qənirə Akif qızı
Qurbanzadə Məhəmməd Fəxrəddin oğlu
Mahmudzadə Zəhra Əli qızı
Mansırlı Ayşə Ələddin qızı
Mehdizadə Cavidan Azər oğlu
Məhərrəmli İsa Yusif oğlu
Məhərrəmli Şahid Rövşən oğlu
Məhərrəmova Aygün Allahverdi qızı
Məmmədli İsmayıl İbrahim oğlu
Məmmədli Məmməd Fuad oğlu
Məmmədov Mirsaleh Mircəlal oğlu
Məmmədova Arzu Ramil qızı
Məmmədova Gülcan Araz qızı
Məmmədova Jalə Müşviq qızı
Məmmədova Nəzrin Vüqar qızı
Məmmədova Vətən Mütəllim qızı
Məsmalıyev Sərcan Şahin oğlu
Mirzəyev Vüqar İlqar oğlu
Muradlı Kamil Anar oğlu
Murtuzov Ruslan Abbas oğlu
Mustafayev Anar Zahidoviç
Mustafayev Kamran Teymur oğlu
Nəsibova Yasəmən Həsənəli qızı
Nəzərova Gülay Müslüm qızı
Novruzova İlhamə Natiq qızı
Nuriyeva Lalə Tahir qızı
Nurkişiyev Aydın Aqil oğlu
Pirizadə Nurlan Müşfiq oğlu
Rəşidova Türanə Oruc qızı
Rüstəmli Aysu Seymur qızı
Sadıqova Zümrüd Fərman qızı
Sevdimli Jalə Ceyhun qızı
Sultanov Rəvan Nüsrət oğlu
Süleymanova Ləman Elman qızı
Şamilzadə Günay Ruslan qızı
Şəfiyev Əbil Üzeyir oğlu
Vahablı Əkbər Mahir oğlu
Yusifova Cəmilə Mahir qızı
Yusifova Nigar Əhməd qızı
Yüzbəyova Aytac Romik qızı
Zeynallı Ülviyyə Üzeyir qızı
Zeynallı Zeybə Rəfail qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 sentyabr 2021-ci il*

## "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1680; 2018, № 11, maddə 2287; 2021, № 1, maddə 67) 6-cı hissəsində "Maliyyə Sabitliyi" sözləri "İqtisadi" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2021-ci il*

## Azərbaycanın və Gürcüstanın Baş nazirlərinin sədrliyi ilə Bakıda iki ölkə arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib





Sentyabrın 29-da Bakıda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin sədrliyi ilə Azərbaycan Respublikası ilə Gürcüstan arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Baş nazir Əli Əsədov Gürcüstanın Baş nazirinin qısa zaman kəsiyində Azərbaycana ikinci dəfə səfər etdiyini bildirərək bunu iki ölkə arasındakı əlaqələrin yüksək səviyyəsinin göstəricisi kimi səciyyələndirib.

Azərbaycan və Gürcüstan xalqlarının əsrlərboyu dostluq və mehriban qonşuluq şəraitində yaşadıqları vurğulanıb. Müstəqillik dövründə qarşılıqlı etimad və dəstəyə əsaslanan ikitərəfli münasibətlərin uğurla inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi məmnunluqla qeyd olunub.

İki ölkə arasında fəal siyasi dialoqun aparıldığı, Azərbaycanın və Gürcüstanın beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədikləri vurğulanıb.

İkitərəfli əlaqələrin müxtəlif sahələrdə - xüsusən iqtisadi-ticari, enerji, nəqliyyat, tranzit, investisiya və humanitar sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib.

Pandemiyanın mənfi təsirinə baxmayaraq, cari ilin 8 ayında ticarət dövriyyəsinin 41 faiz artdığı diqqətə çatdırılıb. Azərbaycanın Gürcüstanın ən iri ticarət tərəfdaşlarından biri, həmçinin Gürcüstan iqtisadiyyatına ən çox sərmayə yatıran ölkə olduğu xüsusi vurğulanıb.

Enerji sahəsində əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilərək iki ölkənin birgə həyata keçirdiyi layihələrin bölgədə sülhün və sabitliyin möhkəmlənməsinə xidmət etdiyi diqqətə çatdırılıb. Bildirilib ki, bu layihələr Cənubi Qafqazın transformasiyasında mühüm rol oynayıb, bölgənin enerji xəritəsini dəyişib. "Cənub qaz dəhlizi" layihəsinin uğurla icra edildiyi bildirilərək bu layihənin həm Azərbaycanın, həm də Gürcüstanın rifahı və inkişafı üçün böyük əhəmiyyət daşıdığı qeyd olunub.

İki ölkə arasında nəqliyyat və tranzit sahəsində qarşılıqlı faydalı əməkdaşlığın əhəmiyyətindən danışılıb. Hətta pandemiya şəraitində nəqliyyat və tranzit dəhlizlərinin fasiləsiz fəaliyyətini təmin etmək üçün bütün lazımi tədbirlərin görüldüyü diqqətə çatdırılıb. Bunun nəticəsi olaraq cari ilin 8 ayında Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə daşınan yüklərin həcmində artım olduğu bildirilib.

Baş nazir Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə yaranan yeni geosiyasi və geoiqtisadi reallıq barədə söhbət açaraq regionda nəqliyyat-kommunikasiya sisteminin bərpasının böyük perspektivlər vəd etdiyini və bütün bölgə ölkələri üçün faydalı olacağını vurğulayıb, o cümlədən xüsusi olaraq Zəngəzur dəhlizini qeyd edib.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ölkəsinin Azərbaycanla strateji tərəfdaşlığa böyük əhəmiyyət verdiyini, dostluq münasibətlərini daha da gücləndirmək niyyətində olduğunu diqqətə çatdırıb.

Azərbaycan və Gürcüstan tərəfindən uğurla həyata keçirilən birgə layihələrin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, Gürcüstan bütün istiqamətlərdə Azərbaycanla əməkdaşlığı daha da genişləndirməkdə maraqlıdır. İrakli Qaribaşvili Azərbaycanın investisiya sahəsində Gürcüstanda lider olduğunu qeyd edib. O, pandemiya dövründə Azərbaycanın Gürcüstana dəstəyini xüsusi vurğulayıb.

İclasda gündəlikdə duran məsələlərə dair məruzələr dinlənilib, geniş fikir mübadiləsi aparılıb. Həmçinin iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən informasiya texnologiyaları, kənd təsərrüfatı, mədəniyyət, təhsil və turizm sahələrində ikitərəfli əməkdaşlığın perspektivləri geniş müzakirə edilib.

Sonda Azərbaycan Respublikası ilə Gürcüstan arasında

- İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclasının Protokolu;
- "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Azərbaycan Respublikası və Gürcüstan arasında dövlət sərhəd buraxılış məntəqələri haqqında Saziş";
- "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında standartlaşdırma, metrologiya və uyğunluğun qiymətləndirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş";
- "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Gürcüstanın Mədəniyyət, İdman və Gənclər Nazirliyi arasında 2021-2024-cü illər üçün mədəniyyət sahəsində əməkdaşlıq haqqında Proqram";
- "Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə LEPL "Enterprise Georgia" Agentliyi arasında Anlaşma Memorandumu";
- "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə LEPL "Enterprise Georgia" Agentliyi arasında Anlaşma Memorandumu" imzalanıb.

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma və yolasalma

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili sentyabrın 29-da Azərbaycan Respublikasına səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Gürcüstanın Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini hava limanında Azərbaycanın Baş nazirinin müavini Əli Əhmədov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

❖ ❖ ❖

Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycan Respublikasına səfəri sentyabrın 29-da başa çatıb.



# Milli Məclisin Sədri Sahibə Qafarovanın Qazaxıstana rəsmi səfəri başlayıb






Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Qazaxıstan Respublikasına işgüzar səfərini başa vuraraq ölkənin paytaxtı Nur-Sultan şəhərinə gəlib. Burada nümayəndə heyətimizin Qazaxıstana rəsmi səfəri başlayıb.



AZƏRTAC xəbər verir ki, Nursultan Nazarbayev adına Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrini və nümayəndə heyətinin üzvlərini Qazaxıstan Parlamenti Məclisinin sədr müavini xanım Bailam Kesenbayeva, Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov və digər rəsmi şəxslər qarşılayıblar.

Nümayəndə heyətimiz ölkəmizin Qazaxıstandakı səfirliyini ziyarət edərək səfirliyin əməkdaşları və fəaliyyəti üçün yaradılmış şəraitlə yaxından tanış olublar. Milli Məclisin Sədri Sahibə Qafarova və deputatlarımız səfirlikdə Ümummilli Lider Heydər Əliyevin büstünün önünə gül dəstəsi düzüblər. Burada parlament nümayəndə heyətinin üzvləri 27 Sentyabr - Anım Gününə həsr olunmuş banerin qarşısına gül qoyaraq şəhidlərimizin əziz xatirəsini yad ediblər.

Milli Məclisin Sədri Sahibə Qafarova səfirlikdə Heydər Əliyev Muzeyi ilə də tanış olub, əməkdaşların fəaliyyəti ilə maraqlanıb, xatirə kitabına ürək sözlərini yazıb. Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov Milli Məclisin Sədrini səfirliyin fəaliyyəti ilə tanış edib.

Sonra Milli Məclisin nümayəndə heyəti Qazaxıstan Respublikasının Milli Muzeyinə gedərək oradakı eksponatlarla tanış olub. Azərbaycan parlamentinin rəhbəri muzeyin xatirə kitabına da ürək sözlərini yazıb və muzeyə hədiyyə təqdim edib.

Sonra nümayəndə heyəti Nazarbayev Universitetində olub. Nümayəndə heyətinin üzvləri bu təhsil kompleksində professor-müəllim kollektivi üçün yaradılmış şəraitlə tanış olub, onlara universitet haqqında geniş məlumat verilib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstan Parlamentini Xocalı soyqırımını tanımağa çağırıb

Milli Məclisin Sədri Sahibə Qafarova rəsmi səfəri çərçivəsində Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə və Qazaxıstan Parlamenti Məclisinin sədri Nurlan Niqmatulinlə görüşlərində bu ölkənin parlamentini Xocalı soyqırımını tanımağa çağırıb.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədri qarşıdan 30-cu ildönümü gələn Xocalı soyqırımı barədə həmkarına ətraflı məlumat verib və diqqətə çatdırıb ki, bəzi beynəlxalq təşkilatlar və dünyanın bir çox ölkələrinin parlamentləri bu faciəni soyqırımı kimi tanıyıblar. Spiker deyib ki, Qazaxıstan parlamentinin də insanlığa qarşı böyük ci-



nayət olan bu faciəyə öz münasibətini bildirməsi yaxşı olardı.

Görüşlərdə Milli Məclisin Sədri, həmçinin 44 günlük Vətən müharibəsində Azərbaycanın Zəfər qazanaraq torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoyduğunu deyib, azad edilmiş Azərbaycan ərazilərində işğal dövründə Ermənistan tərəfindən tamamilə dağıdılmış şəhərlərin, kəndlərin bərpasından və həyata keçirilən genişmiqyaslı infrastruktur layihələrindən bəhs edib.

Qeyd edək ki, Milli Məclisin Sədri Sahibə Qafarova səfər çərçivəsində Qazaxıstan Parlamenti Senatının sədri Maulen Aşımbayevlə görüşündə də Xocalı soyqırımı ilə bağlı məsələni vurğulayıb və qarşı tərəfdən müvafiq addım atılmasının arzuolunan olduğunu bildirib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstan Prezidenti ilə görüşüb



Sentyabrın 29-da Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstana rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Kasım-Jomart Tokayev ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan parlamentinin rəhbərini səmimiyyətlə salamlayan Prezident Tokayev dost və qardaş ölkələr olan Qazaxıstan və Azərbaycan arasında münasibətlərin yüksək səviyyəsindən razılığını bildirib. Ölkə başçısı Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Zəfər münasibətilə təbriklərini çatdıraraq qeyd edib ki, qədim tarixə malik münasibətlərimiz dövlətlərimiz müstəqillik qazandıqdan sonra daha da inkişaf edib. Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev və Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev tərəfindən inkişaf etdirilən bu münasibətlər hazırda Azərbaycanın və Qazaxıstanın dövlət başçıları tərəfindən uğurla davam etdirilir. Prezident Kasım-Jomart Tokayev onun salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib.

Səmimi görüş üçün minnətdarlığını bildirən Milli Məclisin Sədri Sahibə Qafarova Prezident İlham Əliyevin salamlarını Qazaxıstanın dövlət başçısına çatdırıb. Bildirib ki, ölkələrimiz müstəqillik əldə etdikdən sonra Azərbaycan və Qazaxıstan arasında münasibətlər tamamilə yeni səviyyəyə yüksəlib. Sevindirici haldır ki, gələn il biz ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edəcəyik.

Parlamentlərimiz arasında əlaqələr haqqında məlumat verən Milli Məclisin Sədri vurğulayıb ki, ikitərəfli münasibətlərimiz qanunverici orqanlar səviyyəsində də yüksələn xətlə inkişaf edir. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qrupları mövcuddur və deputatlarımızın qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq parlament təşkilatlarında mütəmadi görüşlərin keçirilməsi ikitərəfli əlaqələrin inkişafına töhfə verir. S.Qafarova xüsusilə TÜRKPA çərçivəsində əməkdaşlığın əhəmiyyətindən danışıb.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstanın dövlət başçısına Azərbaycanın ötən il 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfər və regionda yeni yaranmış şərait haqqında geniş məlumat verib. Bildirib ki, 2020-ci ildə Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa edib. Bununla da Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü icra edib. Qarabağ münaqişəsinin artıq tarixə çevrildiyini deyən Milli Məclisin sədri bildirib ki, hazırda Azərbaycan azad edilmiş ərazilərində bərpa-quruculuq işləri həyata keçirir. Milli Məclisin sədri, həmçinin xatırladıb ki, Ermənistan işğal dövründə şəhər və rayonlarımızı, kəndlərimizi, xalqımıza məxsus tarixi, mədəni abidələri, məscidləri vəhşicəsinə dağıdıb. S.Qafarova Qazaxıstan nümayəndə heyətinin Azərbaycana səfəri zamanı Şuşa və Füzuli rayonlarına səfər etdiyini, Ermənistan tərəfindən törədilən vandalizmi öz gözləri ilə gördüyünü bildirib.

Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi soyqırımı siyasəti barədə danışan Milli Məclisin Sədri Xocalı soyqırımının 30 illiyi ərəfəsində Qazaxıstan parlamentinin də bu məsələyə münasibət bildirməsi istəyini ifadə edib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# *Nurlan NİQMATULİN:* “Qazaxıstan və Azərbaycan strateji müttəfiqlərdir”



Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstana rəsmi səfəri çərçivəsində sentyabrın 29-da Qazaxıstan Parlamenti Məclisinin sədri Nurlan Niqmatulinlə görüşüb.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədrini salamlayan Qazaxıstan Parlament Məclisinin sədri ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına böyük önəm verdiyini bildirib. O, Azərbaycanı Vətən müharibəsində qazandığı Qələbə münasibətilə təbrik edib və ölkəmizə uğurlar arzulayıb. Bildirib ki, müharibədən sonra regionda yaranmış yeni situasiya iqtisadi inkişafa öz təsirini göstərəcək, nəqliyyat və kommunikasiyaların bərpa olunması bölgə dövlətlərinin və xalqlarının xeyrinə olacaq.

İki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini deyən Nurlan Niqmatulin ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığını yüksək qiymətləndirib. S.Qafarova Azərbaycanın TÜRKPA-ya sədrliyi dövründə görülən işlərdən danışıb və Qazaxıstanın sədrliyi dövründə iki ölkə arasında əməkdaşlığın daha da güclənəcəyinə inamını ifadə edib. Ölkələrimizin strateji müttəfiq olduğunu qeyd edən Nurlan Niqmatulin siyasi, iqtisadi, mədəni, humanitar və parlamentlərarası əlaqələrimizin daha yüksək səviyyəyə çatacağına əminliyini bildirib.

Qonaqpərvərliyə və səmimi fikirlərə görə təşəkkürünü bildirən Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan ilə Qazaxıstan arasında münasibətlər çoxəsrlik tarixə malikdir. Bu münasibətlərin inkişafında ölkə başçılarımızın xüsusi rolu var.

Milli Məclisin Sədri Türküstan şəhərində TÜRK PA-nın 10-cu plenar iclasında Azərbaycanın 27 Sentyabr - Anım Gününün yad edilməsinə, bu təşəbbüslə çıxış etdiyinə görə qazaxıstanlı həmkarına təşəkkürünü bildirib və bu təşəbbüsün Azərbaycan ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyini söyləyib.

İki ölkənin parlamentləri arasındakı əlaqələrdən danışan Milli Məclisin Sədri bildirib ki, bu müstəvidə, həmçinin TÜRK PA çərçivəsində əməkdaşlıq müstəvisində həyata keçirilən qarşılıqlı səfərlər parlamentlərarası münasibətlərimizin inkişafında mühüm əhəmiyyətə malikdirlər. Azərbaycanın Milli Məclisində, Qazaxıstan parlamentinin isə hər iki palatasında fəaliyyət göstərən qarşılıqlı dostluq qrupları parlamentlərarası əlaqələrimizin inkişafına töhfə verir.

Siyasi, iqtisadi, mədəni, parlamentlərarası əlaqələrimizin inkişaf perspektivlərindən danışan Sahibə Qafarova iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasının vacibliyini qeyd edib. Bildirib ki, hər iki ölkədə qarşılıqlı olaraq Azərbaycan və Qazaxıstan şirkətləri uğurla fəaliyyət göstərirlər. Bu baxımdan ölkələrimizi birləşdirən Xəzər dənizi bu gün vacib nəqliyyat arteriyasına çevrilib. 2018-ci ilin avqustunda Aktauda imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya isə tarixi əhəmiyyətli sənəddir. Bu Konvensiya həm Azərbaycan Milli Məclisi, həm də Qazaxıstan Senatı tərəfindən ratifikasiya olunub.

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi Qələbə haqqında qazaxıstanlı həmkarına məlumat verən Milli Məclisin Sədri deyib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun şücaəti sayəsində Ermənistanın 30 illik işğalına son qoyulub. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib. Artıq münaqişə tarixə qovuşub, Qarabağın statusu məsələsi birdəfəlik aradan qalxıb və Azərbaycan işğaldan azad olunan ərazilərinin bərpasına başlayıb.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Ermənistan işğal dövründə şəhərlərimizi, kəndlərimizi tamamilə dağıdıb, talan edib. Heç də təsadüfi deyil ki, Ermənistanın işğalından azad olunmuş bu əraziləri Qafqazın Xirosiması adlandırırlar. Milli Məclisin Sədri Ermənistanın regionda davamlı sülhün təmin olunmasına qarşı yönəlmiş təxribatçı hərəkətləri barədə də geniş məlumat verib.

Sonra Milli Məclisin sədri bildirib ki, qarşıdan Xocalı soyqırımının 30 illiyi gəlir. Sahibə Qafarova bu faciə barədə ətraflı məlumat verərək diqqətə çatdırıb ki, dünyanın bir çox ölkələrinin parlamentləri bu faciəni soyqırımı kimi tanımışlar. İstərdik ki, Qazaxıstan parlamenti də insanlığa qarşı böyük cinayət olan bu faciəyə öz münasibətini bildirsin.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Görüşün sonunda Milli Məclisin sədri qazaxıstanlı həmkarına “Qarabağ işğaldan əvvəl və sonra” adlı kitab hədiyyə edib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevlə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova rəsmi səfəri çərçivəsində sentyabrın 29-da paytaxt Nursultan şəhərində Qazaxıstan Respublikasının birinci Prezidenti - elbası Nursultan Nazarbayevlə görüşüb.



AZƏRTAC xəbər verir ki, Milli Məclisin nümayəndə heyətini mehribanlıqla salamlayan Qazaxıstan Respublikasının birinci Prezidenti - elbası Nursultan Nazarbayev Azərbaycanda gedən prosesləri diqqətlə izlədiyini bildirib. Azərbaycan xalqının Vətən müharibəsində qazandığı Zəfərin bütün bölgə üçün, türk dünyası üçün mühüm əhəmiyyət daşıdığını vurğulayaraq bir daha təbriklərini çatdırıb. O, müasir müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevlə bağlı xoş xatirələrini yada salıb. Nursultan Nazarbayev son 30 ildə ölkəmizdə aparılan abadlıq-quruculuq işlərini, iqtisadi tərəqqini, dövlət quruculuğunun müxtəlif sahələrində uğurla həyata keçirilən islahatları yüksək dəyərləndirib.

Nursultan Nazarbayev qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü xarici siyasət, bölgədə sülhün və sabitliyin təmin olunmasına yönəlmiş addımlar, yeni reallıqlar şəraitində nəqliyyat dəhlizlərinin açılması beynəlxalq aləmdə Azərbaycan dövlətinin nüfuzunu çox gücləndirib.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını elbası Nursultan Nazarbayevə çatdıran Milli Məclisin Sədri qazax xalqının yetirdiyi bu böyük şəxsiyyətlə Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev arasındakı dostluqdan söz açıb. Xalqlarımız arasında qardaşlıq münasibətlərinin və qarşılıqlı etimadın möhkəmlənməsində bu iki böyük şəxsiyyətin danılmaz xidmətləri olduğunu vurğulayıb.

Azərbaycan-Qazaxıstan münasibətlərinin tarixində Prezident İlham Əliyevin Nursultan Nazarbayevlə hər görüşünün xüsusi səhifə təşkil etdiyini bildirən Sahibə Qafarova bu görkəmli dövlət xadiminin 2017-ci ildə ölkəmizə rəsmi səfəri zamanı Azərbaycanın dövlət başçısı İlham Əliyev tərəfindən "Heydər Əliyev" ordeni ilə təltif edilməsini məmnunluqla yada salıb.

Görüş zamanı spiker Azərbaycan və qazax xalqlarının müstəqillik dövründə çətin mərhələlərdən keçdiyini deyib. O bildirib ki, gələn il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunacaq.

Azərbaycan parlamentinin rəhbəri əlaqələrimizin genişlənməsində parlamentlərarası əməkdaşlığın mühüm rolundan, "Azərbaycan Respublikasının Milli Məclisi ilə Qazaxıstan Respublikası Parlamenti Məclisi arasında əməkdaşlıq haqqında Saziş"in əhəmiyyətindən danışıb. Hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyət göstərdiyini, deputatlarımızın beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq etdiyini bildirib.

Görüşdə Sahibə Qafarova Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevin türk xalqlarını bir araya gətirmək təşəbbüslərinin yüksək dəyərləndirildiyini vurğulayıb. Xalqlarımızın daha sıx münasibətlər qurmasında, Azərbaycan-Qazaxıstan əlaqələrinin möhkəmlənməsində, qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsində TÜRKPA-nın və TÜRKSOY-un, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaratdığı imkanları xüsusi qeyd edib.

Azərbaycan tarixinin şanlı səhifəsi olan Vətən müharibəsindən söhbət açan Sahibə Qafarova 44 günlük müharibədə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun Ermənistana layiqli cavab verdiyini, ölkəmizin ərazi bütövlüyünü bərpa etdiyini, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini həyata keçirdiyini vurğulayıb. S.Qafarova 2020-ci ilin 10 noyabrında Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanan üçtərəfli Bəyanatla münaqişəyə son qoyulduğunu deyib. İşğal illərində Qafqazın Xirosimasına çevrilmiş ərazilərin bərpası və yenidən qurulması sahəsində görülən işlər barədə məlumat verib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *Qazaxıstan Senatının sədri:* "Azərbaycanla qarşılıqlı əlaqələri genişləndirmək üçün böyük potensial mövcuddur"



Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstana rəsmi səfəri çərçivəsində sentyabrın 29-da Qazaxıstan Parlamenti Senatının sədri Maulen Aşımbayev ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədrini salamlayan Qazaxıstan Parlamenti Senatının sədri Vətən müharibəsində qazanılmış Qələbə münasibətilə Azərbaycana təbriklərini çatdırıb. O, iki ölkə arasında diplomatik əlaqələrin tarixindən söz açaraq müstəqillik dövründə münasibətlərin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb.

Azərbaycanı və Qazaxıstanı birləşdirən ortaq dəyərlərdən danışan Senatın sədri qarşılıqlı əlaqələri genişləndirmək üçün böyük potensialın olduğunu deyib, əməkdaşlığın intensivləşdirilməsinin vacibliyindən danışıb. O, Azərbaycanın TÜRKPA çərçivəsində əməkdaşlığa verdiyi töhfələri yüksək qiymətləndirib, parlamentlərarası əlaqələrin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

Səmimi görüş üçün təşəkkürünü bildirən Sahibə Qafarova Qazaxıstana səfərindən və TÜRKPA-nın 10-cu plenar iclası çərçivəsində aparılan müzakirələrdən, keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib.

İkitərəfli əməkdaşlıq əlaqələrinin genişlənməsində dövlət başçılarının xüsusi rolunu vurğulayan Sahibə Qafarova bildirib ki, ötən illər ərzində ölkələrimiz arasında münasibətlərin güclü hüquqi bazası formalaşdırılıb. Sədr parlamentlərimiz arasında əlaqələrin genişlənməsi istiqamətində hər iki tərəfdən dostluq qruplarının səmərəli fəaliyyət göstərdiyini qeyd edib.

Ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan Sahibə Qafarova Qazaxıstanın TÜRKPA-ya sədrliyi dövründə bu əməkdaşlığın daha da genişlənəcəyinə inamını ifadə edib. O, iqtisadi münasibətlərin önəmini qeyd edərək hər iki ölkədə qarşılıqlı olaraq Azərbaycan və Qazaxıstan şirkətlərinin təqdirəlayiq fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın bundan sonra da davam etdirilməsinin vacibliyini qeyd edən Milli Məclisin Sədri diqqətə çatdırıb ki, bu, ölkələrimizin və xalqlarımızın mənafeyinə xidmət edir.

Söhbət zamanı ölkələrimizin Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasındakı fəaliyyəti yüksək qiymətləndirilib.

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Qələbə barədə məlumat verən Milli Məclisin Sədri deyib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz torpaqlarımızı Ermənistanın 30 illik işğalından azad edib. Bununla da ölkəmiz öz ərazi bütövlüyünü bərpa edib. Sahibə Qafarova diqqətə çatdırıb ki, artıq münaqişə tarixə qovuşub, Qarabağın statusu məsələsi birdəfəlik aradan qalxıb və Azərbaycan azad olunmuş ərazilərinin bərpa və yenidənqurma işlərinə start verib. Ermənistan işğal dövründə şəhər və kəndlərimizi vəhşicəsinə dağıdıb və talan edib. Buna görə də bu ərazilər Xirosimaya bənzədilir. Bu günlərdə ölkəmizdə səfərdə olan Qazaxıstan parlament nümayəndə heyətinin üzvləri həmin ərazilərə gedərək reallıqla tanış oldular.

Sonra Milli Məclisin Sədri həmkarının diqqətinə çatdırıb ki, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi Xocalı soyqırımının 30 illiyi ərəfəsindəyik. Bir çox dünya ölkələrinin parlamentləri bu soyqırımını tanıyıblar. Qazaxıstan parlamentinin də Xocalı soyqırımına münasibət bildirməsi yaxşı olardı.

Görüşdə digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova və nümayəndə heyətinin üzvləri Nur-Sultandakı "Astana-Bayterek" abidəsini ziyarət ediblər. Burada nümayəndə heyətimizin üzvlərinə abidə haqqında geniş məlumat verilib.

Qazaxıstan Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspan nümayəndə heyətini müşayiət edib.

# Milli Məclisin Sədri L.Qumilyov adına Avrasiya Milli Universitetinin yubiley mərasimində mühazirə oxuyub









Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstana rəsmi səfəri çərçivəsində sentyabrın 29-da paytaxt Nur-Sultan şəhərində Lev Qumilyov adına Avrasiya Milli Universitetinin 25 illik yubiley mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, yubiley mərasimində L.Qumilyov adına Avrasiya Milli Universitetinin rektoru, tarix elmləri doktoru, akademik, Qazaxıstan Milli Elmlər Akademiyasının vitse-prezidenti Erlan Sıdıkov Azərbaycan Milli Məclisinin Sədrini auditoriyaya təqdim edib, professor Sahibə Qafarovanın elmi-pedaqoji və ictimai-siyasi fəaliyyəti barədə ətraflı məlumat verib. Sonra söz Sahibə Qafarovaya verilib.

Yubiley mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin Fəxri professoru olduğu bu universitetdə mühazirə oxumaqdan şərəf duyduğunu vurğulayan Sahibə Qafarova XX əsrin görkəmli avrasiyaşünas alimi, türk sivilizasiyası haqqında həqiqətləri dünyaya çatdıran, Avrasiya xalqlarının etnogenezinə, etnik tarixinə və mədəniyyətinə işıq salan Lev Qumilyovun elmi irsindən söz açıb. O, müasir dövrdə formalaşan yeni geosiyasi reallıq şəraitində avrasiyaçılıq ideyalarını, türk xalqlarının birliyini və türk sivilizasiyasının hərtərəfli inteqrasiyasını özündə ehtiva edən Qumilyov ideologiyasının çox aktuallaşdığını qeyd edib. Ötən 25 ildə Avrasiya Milli Universitetinin beynəlxalq təhsil məkanında layiqli yer tutduğunu, həm tədris sahəsində, həm də fundamental elmi-tədqiqatları sayəsində nüfuz qazandığını bildirib. S.Qafarova 25 illik yubiley münasibətilə universitetin professor-müəllim heyətinə və tələbələrinə təbriklərini çatdırıb.

Azərbaycan parlamentinin rəhbəri deyib ki, qloballaşma şəraitində Qərblə Şərq arasında dialoqun vacibliyi yenidən gündəmə gəlib. XX əsrin sonunda SSRİ-nin dağılması nəticəsində dünyanın siyasi xəritəsində qlobal dəyişikliklər olub. Milli dövlətlərin beynəlxalq-hüquqi müstəvidə suverenliyini bərpa etdiyi həmin tarixi dönüş məqamında ölkələrimizin başında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və elbası Nursultan Nazarbayev kimi görkəmli şəxsiyyətlərin olması Azərbaycan və Qazaxıstan dövlətlərinin regional və dünya siyasətində əhəmiyyətli faktora çevrilməsinə imkan yaratdı.

Tədbirdə Sahibə Qafarova Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələrindən bəhs edib. O, Azərbaycan torpaqlarında ta qədimdən qüdrətli dövlətlərin olduğunu vurğulayıb, sonralar bu ərazidə qədim dövlətçilik ənənələrinin varisləri olaraq bir sıra dövlətlərin meydana çıxdığını bildirib.

1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətindən ətraflı söz açan Sahibə Qafarova parlamentar tipli bu respublikanın Azərbaycanın dövlətçilik tarixində dərin iz buraxdığını qeyd edib. S.Qafarova nəinki Şərqdə ilk dəfə olaraq, həmçinin bir sıra Qərb dövlətlərindən daha əvvəl, hələ 1918-ci ildə qadınlara seçmək və seçilmək hüququnun məhz Azərbaycan Xalq Cümhuriyyətində verildiyini bildirib.

L.Qumilyov adına Avrasiya Milli Universitetinin yubileyində çıxış edən Sahibə Qafarova Azərbaycanın sovet hakimiyyəti dövründən də söhbət açıb. Bildirib ki, ölkəmiz nəhəng Sovet İttifaqının inkişafına, ümumdövlət işlərinə böyük töhfələr verib. 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbənin qazanılması üçün Azərbaycan neft sənayesinin lokomotivinə çevrilib. Müharibə illərində Azərbaycan neftçiləri bütün ölkənin yanacağının 80 faizə qədərini istehsal ediblər, hərbi ehtiyaclar üçün 75 milyon ton neft göndəriblər. 130-dan çox Azərbaycan övladı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, bu yüksək ada iki dəfə layiq görülənlərimiz də var. Otuz nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə, 170 min döyüşçü müxtəlif orden və medallarla təltif edilib.

Tədbir iştirakçılarına Azərbaycan tarixinin Heydər Əliyev mərhələsindən söz açan Milli Məclisin Sədri bu görkəmli dövlət xadiminin hakimiyyəti dövründə Azərbaycanın inkişaf etmiş sənaye ölkəsinə çevrildiyini, 14 il ərzində respublikanın milli gəlirinin 2,5 dəfə artdığını, çoxsaylı fabrik və zavodların, müxtəlif istehsal və sənaye müəssisələrinin tikilib istifadəyə verildiyini, respublikanın yeni Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi tanınmasına nail olunduğunu bildirib.

Qeyd edib ki, Azərbaycan 1991-ci ildə müstəqillik qazandıqdan sonra, ən çətin dövrdə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev ölkənin gələcək taleyi üçün məsuliyyəti öz çiyinlərinə götürdü. Həmin illərdə Azərbaycan bütün inkişaf sahələrində görünməmiş uğurlar əldə etdi. Ümummilli Liderin ölkəmizin inkişafı ilə bağlı strategiyasını hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla həyata keçirir.

Spiker qeyd edib ki, müstəqillik dövründə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan, "Cənub qaz dəhlizi", TANAP, TAP, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars və digər bu kimi enerji və nəqliyyat layihələri təkcə Azərbaycanın deyil, bütün bölgənin inkişafı üçün mühüm əhəmiyyətə malikdir.

Sahibə Qafarova vurğulayıb ki, Ermənistanın ərazi iddiaları ucbatından Qarabağda 30 ilə yaxın davam edən silahlı münaqişənin həlli Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz ən böyük nailiyyətdir. Bütün bu illər ərzində münaqişənin sülh yolu ilə həllinə imkan verməyən və təxribatlarını davam etdirən işğalçı Ermənistan keçən il sentyabrın 27-də bir daha təxribata əl atdı. BMT-nin Nizamnaməsinə uyğun olaraq, özünü müdafiə etmək hüququnu təmin edən Azərbaycan 44 günlük Vətən müharibəsində ərazi bütövlüyünü bərpa etməyə nail oldu.

Spiker xatırladıb ki, bütün hərbi əməliyyatlar Azərbaycanın ərazisində baş verib. Ermənistan Cenevrə konvensiyalarını pozaraq münaqişə zonasından xeyli uzaqda yerləşən bölgələrimizi, Gəncə, Tərtər, Mingəçevir, Bərdə, Xızı şəhərlərini atəşə tutaraq insanlıq əleyhinə cinayətlər törədib. Erməni tərəfinin mülki şəxslərə və mülki infrastruktura yönəlmiş hərbi əməliyyatları nəticəsində yüzlərlə dinc sakin həlak olub, minlərlə ev dağılıb.

Qırx dörd günlük Vətən müharibəsində Azərbaycan BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsini yerinə yetirdi, beynəlxalq hüququn aliliyini bərpa edərək 30 ildən bəri işğal altında olan ata-baba torpaqlarını azad etdi və ərazi bütövlüyünü təmin etdi. 10 noyabr 2020-ci il tarixində Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı birgə Bəyanat bölgədə həyatın dinc müstəviyə keçməsinə imkan yaratdı.

Vətən müharibəsindəki Qələbədə qardaş Türkiyənin mənəvi-siyasi dəstəyini xüsusi vurğulayan Sahibə Qafarova Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsində Qazaxıstanın prinsipial mövqeyini, dost dəstəyini də qeyd edib. Türk Şurasının fəxri sədri Nursultan Nazarbayevin bu qurumun videokonfrans formatında keçirilən qeyri-formal Zirvə görüşündə Azərbaycan Prezidentini Qələbə münasibətilə təbrik etdiyini xatırladıb.

Yubiley mərasiminə toplaşanlara işğaldan azad edilmiş ərazilərdəki dağıntılar barədə məlumat verən Sahibə Qafarova deyib ki, bu bölgə Qafqazın Xirosimasıdır. Sahibə Qafarova Ermənistanın həmin əraziləri minaladığını və mina xəritələrini verməkdən imtina etdiyini də bildirib. Bunun da hərbi cinayət olduğunu qeyd edib.

Azərbaycanın çoxmillətli ölkə olduğunu, burada 90-dan çox etnik qrupun, müxtəlif xalqların və millətlərin nümayəndələrinin yaşadığını, bütün xalqların adət-ənənəsinə hörmətlə yanaşıldığını, ölkəmizdə ksenofobiya və dözümsüzlüyün olmadığını vurğulayan Milli Məclisin Sədri Azərbaycanın dövlət siyasətində milli və dini tolerantlığın prioritet istiqamətlərdən olduğunu bildirib. Xalqımızın dünyaya bəxş etdiyi görkəmli elm və sənət adamlarından söz açıb. O, son illər ölkəmizin beynəlxalq tədbirlərin keçirilməsi üçün platformaya çevrildiyini nəzərə çatdırıb.

Tədbirdə qeyd olunub ki, Azərbaycanla Avrasiya bölgəsindəki dövlətlər arasında mehriban qonşuluq, bir-birinin daxili işlərinə qarışmamaq, bərabərlik, qarşılıqlı hörmət və qarşılıqlı faydalı əlaqələrə əsaslanan strateji əməkdaşlıq əlaqələri formalaşıb. Bölgədə davamlı sülhün və təhlükəsizliyin təmin edilməsi üçün həm ikitərəfli əsasda, həm də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, İslam Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun, eləcə də Qoşulmama Hərəkatının üzvü kimi fəaliyyət göstərən Azərbaycan qlobal miqyaslı layihələrin həyata keçirilməsinə mühüm töhfə verir.

Bildirilib ki, Mərkəzi Asiya ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Bu kontekstdə Azərbaycan üçün vacib strateji tərəfdaş olan Qazaxıstanla ikitərəfli əlaqələrin daha da inkişaf etdiyini deyən Sahibə Qafarova hökumətlərarası komissiyanın işi, Azərbaycanda fəaliyyət göstərən Qazaxıstan müəssisələri, mütəmadi biznes forumlar, neft və enerji sektorunda əlaqələrin gücləndiyi barədə konkret faktları, iqtisadi göstəriciləri diqqətə çatdırıb.

Gələn ilin avqustunda ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edəcəyimizi bildirən Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin səyləri sayəsində iki ölkə arasında əlaqələrin dərinləşərək strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyini bildirib. Azərbaycan-Qazaxıstan dostluğunun gündən-günə möhkəmlənəcəyinə, yeni məzmun kəsb edərək iki qardaş ölkənin inkişafına xidmət edəcəyinə inam ifadə edilib.

Auditoriya Sahibə Qafarovanın mühazirəsini böyük maraqla qarşılayıb.

Sonra tədbirdə çıxış edən rektor Erlan Sıdıkov L.Qumilyov adına Avrasiya Milli Universitetinin Elmi Şurasinin qərarı ilə professor Sahibə Qafarovaya bu nüfuzlu elm ocağının Fəxri professoru adının verildiyini bildirib.

Milli Məclisin xatirə hədiyyələri təqdim olunub.

❖ ❖ ❖

Yubiley mərasimindən sonra Milli Məclisin Sədri universitetdə fəaliyyət göstərən "Heydər Əliyev auditoriyası"na gələrək bura toplaşmış müəllim və tələbə kollektivi ilə görüşüb, təhsilə dair fikirlərini bölüşərək gənclərə tövsiyələrini verib.

Görüşdə xatirə şəkilləri çəkdirilib. Milli Məclisin kitab və şəkillərdən ibarət olan hədiyyəsi "Heydər Əliyev auditoriyası"na təqdim olunub.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova yerli KİV nümayəndələrinə müsahibə verib, Qazaxıstana səfəri ilə bağlı təəssüratlarını bölüşüb.

# Ölkəmiz diplomatik uğurlarını postmüharibə dövründə də davam etdirir



2020-ci ilin sentyabr ayının 27-də Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi Rəşadətli Ordumuz tərəfindən başlanmış əks-hücum əməliyyatları qısa zaman kəsiyində bizi Zəfərə apardı. Cəmi 44 gün müddətində 30 illik düşmən işğalına birdəfəlik son qoyuldu, hansı ki, bu işğalın dayandırılması və Ermənistanın təcavüz etdiyi əzəli və əbədi Azərbaycan torpaqlarının qeyd-şərtsiz boşaldılması məqsədilə Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsi qəbul edilmişdir.

Digər ölkələrə münasibətdə dərhal icra edilən qətnamələrin ölkəmizə münasibətdə 30 il müddətində hərəkətsiz qalması həm də həmin sənədlərin qəbul olunmasında iştirak etmiş dövlətlərə qarşı hörmətsizlik idi. Lakin Ermənistan hər zaman olduğu kimi, beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozmaqda, eləcə də öz ölçüyəgəlməz hərəkətlərinə davam etməkdə idi. Təəssüf hissi ilə qeyd etməliyəm ki, münaqişənin həll edilməsi üçün mandat almış ATƏT-in Minsk qrupu faktiki olaraq Ermənistanı bu cür ziyanlı hərəkətlərdən çəkindirmək, humanitar hüququn tələblərinə riayət olunmasına məcbur etməkdə gücsüz idi.

### Beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərin icrası Ermənistan tərəfindən rədd edilirdi

Minsk qrupu yalnız status-kvonun qəbul edilməzliyini bildirmiş və bunun dəyişdirilməli olmasını qeyd etməsi ilə kifayətlənmiş, lakin onun dəyişdirilməsi ilə bağlı heç bir praktiki addım ata bilməmişdir. Ermənistan rəhbərliyində 2018-ci ildə aparılan islahatlar belə, münaqişənin dinc yolla həll edilməsinə nail olmağa imkan vermədi. Əksinə, hər addımda ermənilərin təxribatlara əl ataraq ərazilərimizə qarşı yürütdükləri yeni məkrli siyasət nəticəsində müharibə qaçılmaz oldu. Nəticədə Şanlı Ordumuz tarix yazaraq düşmənin işğalına birdəfəlik son qoydu, əzəli və əbədi torpaqlarımız geri qaytarıldı və düşmənə döyüş meydanında sarsıdıcı zərbə vuraraq düşmənin kapitulyasiya aktını imzalamağa məcbur etdi. Döyüş meydanında məğlub ölkənin siyasi müstəvidə də darmadağın edilməsi Ermənistanın "Failed state" çevrilməsi ilə nəticələndi. Dəfələrlə sülh danışıqlarını pozan, yeni təxribatlar törədən bir ölkə aciz vəziyyətdə qalaraq diktəmizi qeyd-şərtsiz qəbul etdi. Bununla da Azərbaycan qüdrətini bir daha dünyaya göstərdi.

### Məkrli siyasət həyata keçirmək istəyən xarici qüvvələrə dərs

Bu gün Bakı şəhərində yerləşən Hərbi Qənimətlər Parkında, eləcə də bu il 27 sentyabrda Prezident, Müzəffər Ali Baş Komandan və Birinci vitse-prezident tərəfindən əsası qoyulmuş Vətən Müharibəsi Memorial Kompleksində və Zəfər Muzeyində Ermənistanın məğlubiyyəti əyani şəkildə göstərilir və göstəriləcəkdir. Ermənistan ordusuna məxsus olan arsenalın böyük hissəsi Şanlı Ordumuz tərəfindən məhv edilmiş, hərbi qənimət olaraq götürülmüş, tarixi paradımızda nümayiş etdirilmiş və hazırda da Qənimətlər Parkında nümayiş etdirilir.

Müharibədə biabırcasına məğlub olan Ermənistanın savaş meydanında itirdiklərini uzun illər ərzində bərpa etməsi mümkün olmayacaqdır. Cənubi Qafqazda reallaşan bütün layihələrdən kənarda qalaraq səfil vəziyyətdə olan ölkənin pandemiya dövründə idarəetməni itirməsi və ən əsası, Şanlı Ordumuz tərəfindən onlara vurulan ağır zərbə nəticəsində hazırda Qənimətlər Parkında nümayiş olunan texnikanın uzun illər borcunu ödəyəcəklər. Bununla belə yenidən atacaqları istənilən səhv addım zamanı dövlət başçısının dediyi kimi, "Dəmir yumruq" hərəkətə keçəcək. Edəcəkləri yalnışların cəzasının onlar üçün ağır olması qaçınılmazdır və məğlubiyyətə düçar olaraq yenidən tarixin ən qaranlıq səhifələrinə yollanacaqlar.

Ermənistanın başqa yolu yoxdur, istənilən təxribatdan çəkinməli, eləcə də qıcıqlandırıcı mövqe bildirmək əvəzinə sülh yolunu tutmalıdır. Müharibə bitdikdən və üçtərəfli Bəyanat imzalandıqdan sonra təxribat törətmək məqsədilə ölkəmizin ərazisinə keçən 62 nəfər Ermənistan hərbçisinin tutularaq məsuliyyətə cəlb edilməsi onlara dərs olmalıdır. Rusiya sülhməramlılarının yerləşdiyi ərazilərdə Ermənistan hələ də təxribat törətməyə cəhd edir. Əlbəttə ki, bu təxribatların qarşısı hərbçilərimiz tərəfindən qətiyyətlə alınır. İstənilən halda bu növdən olan təxribatların sülhü pozmağa planlaşdırıldığı istisna edilmir.

### Türkiyənin şərtləri regionda sülhün formalaşmasına və inkişafa yönəlmişdir

"3+3" konteksti regionda həyata keçiriləcək və icrası mümkün olan layihələrin əhəmiyyətini artırmaqla bərabər sülh danışıqlarını uğurla yekunlaşdırmağa fokuslanmışdır. Qardaş ölkənin bu təklifi olduqca məqbul haldır, ümumilikdə Cənubi Qafqaz üçün faydalıdır. Türkiyə dövləti Vətən müharibəsində bizə çox böyük siyasi dəstək verdi və istənilən dövlətlərin bu məsələyə müdaxilə etməsinin qarşısını kəsdi. Qardaşlarımızın istər siyasi, istərsə də diplomatik müstəvidə göstərdiyi dəstəyi xalq olaraq çox yüksək qiymətləndiririk və hər zaman xatırlayacağıq. Qardaş dövlətdən başqa, ölkəmiz bir çox dövlətlərlə yaxşı diplomatik münasibətlərə malikdir. Vətən müharibəsi Azərbaycanın hərbi, siyasi, strateji gücü ilə bərabər, həm də diplomatik müstəvidəki böyük qələbəsi idi. Ermənistanın dəfələrlə ayrı-ayrı ölkələrlə münasibətlərimizi pozmağa cəhd etməsinə baxmayaraq, dövlətimizin bu sahədə formalaşdırdığı düzgün siyasi kurs nəticəsində diplomatik münasibətlər daha da dərinləşmişdir. Təbii ki, ölkəmiz üçün bu sahədə əsas vəzifə ərazi bütövlüyümüzün tələblərinə tam riayət edilməsi, eləcə də icazəmiz olmadan heç bir halda sərhədlərimizin tələblərinin pozulmamasıdır. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi istər Hərəkatı özündə birləşdirən 120 dövlətlə, istərsə də xarici dövlətlərlə qurduğu diplomatik əməkdaşlıqda uğurları bütün dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilir. Qonşu ölkələrə gəldikdə isə ilk növbədə, təcavüz və işğalı həyata keçirən, əsassız torpaq iddialarında olan Ermənistanın vəziyyəti hazırda ortadadır.

Qonşu ölkələrlə yüksək münasibətlərin formalaşması diplomatiyamızın prioritet sahələrindəndir.

Şimal qonşumuz Rusiya ilə uzun illərdir qurulmuş dostluq münasibəti hər kəsə məlumdur. Ermənistan və onun havadarlarının bu münasibətə kölgə salmağa cəhd etməsi hər zaman fiaskoya uğramışdır.

Gürcüstanla qurulan müttəfiqlik və əməkdaşlıq münasibətləri də hər zaman öz uğurlu nəticəsini verir. Regionda həyata keçirilən layihələrdə birgə iştirak isə hər iki dövlətin xeyrinədir. 29 sentyabr tarixində Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüş zamanı Prezidentimizin bildirdiyi kimi, ölkələrimiz arasında siyasi əlaqələrin gücləndirilməsi nəinki təkcə bizim xalqlarımız üçün, eyni zamanda, bütün region üçün önəmlidir. Eləcə də dövlət başçısının ölkələrimiz arasında iqtisadi inkişaf, ticarət dövriyyəsinin artması ilə bağlı səsləndirdiyi fikirlər dostluğumuzun əyani şəkildə təcəssümüdür.

Təəssüf ki, cənub qonşumuz olan İranın fəaliyyəti hələ ki uğurlu hesab edilmir, İrana məxsus yük maşınlarının Ermənistana və Qarabağa qanunsuz səfərləri ölkəmizin, eləcə də hər birimizin əsaslı narazılığına səbəb olur. Belə ki, münasibətlərin dəyərləndirilməsi baxımından Xarici İşlər Nazirliyi tərəfindən dəfələrlə qeyd olunan səfərlərin dayandırılması ilə bağlı müraciətlər edilsə də, bu məsələlər öz həllini tapmamış, daha sonra isə rəsmi olaraq nota verilərək qeyd olunan haqlı narazılıq diqqətə çatdırılmış və belə hallara son qoyulması diqqətə çatdırılmışdır.

Ümid edirik ki, hər kəs legitim hüquqlarımıza hörmətlə yanaşacaq, ölkəmizin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı kimi istər beynəlxalq hüquqla təsbit edilmiş, istərsə də xalqımızın vahid məqsədi olaraq formalaşmış məfhumlara toxunmağa cəhd etməyəcəkdir. Təklif edilmiş sülh danışıqlarının şərtlərinə Ermənistanın riayət etməsi, eləcə də Zəngəzur dəhlizinin açılması prosesinin sürətləndirilməsi istiqamətində işlər görülməlidir. Bu, üçtərəfli bəyanatda öz əksini tapıb və Ermənistanın bunu icra etməkdən başqa yolu yoxdur.

Ölkəmiz istər qonşu, istərsə də digər dövlətlərlə yalnız dostluq, əməkdaşlıq münasibətlərinin qurulmasının, eləcə də bütün ölkələrin bir-birinin suverenlik, ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipinə riayət edilməsinin tərəfdarıdır.

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini,***
***Gənclər və idman komitəsinin sədri***

# Daxili işlər naziri Rusiya Federasiyası DİN-in polis akademiyalarına ezam ediləcək kursantlarla görüşüb

Sentyabrın 29-da daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin polis akademiyalarında təhsil almaq üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən ezam ediləcək kursantlarla görüşüb.



Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qarşıdakı beş il ərzində Azərbaycan polisini Rusiyada təmsil edəcək gəncləri təbrik edən nazir Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxış və nitqlərində ölkəmizin parlaq gələcəyinin məhz yüksək intellektə, müasir dünyagörüşünə malik, bacarıqlı, dövlətçiliyə sadiq vətənpərvər gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını qeyd edib. Ölkə rəhbərliyinin gənclərə hər zaman böyük diqqət və qayğı göstərdiyini xatırladan nazir yüksək mənəviyyatlı, işgüzar və istedadlı gənclərin ölkəmizin ictimai-siyasi həyatında, o cümlədən daxili işlər orqanlarında daha geniş şəkildə təmsil olunmaları, onların dövlət idarəçiliyində xidmətdə irəli çəkilmələri üçün bütün zəruri addımların atıldığını diqqətə çatdırıb.

Sonra DİN-in Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov məlumat verib ki, iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı razılaşmaya əsasən, bu il Azərbaycan DİN-ə Rusiya Federasiyası DİN-in Moskva və Rostov şəhərlərindəki polis akademiyalarında 15 yer ayrılıb. Həmin yerlərə qəbul üçün elan edilmiş müsabiqəyə 45 namizəd qatılıb. Nazirliyin müvafiq komissiyası tərəfindən müsabiqə tam şəffaflıq şəraitində keçirilərək namizədlərin Dövlət İmtahan Mərkəzində topladığı balları, rus dilində yazı qabiliyyəti və şifahi nitq bacarıqları, eləcə də fiziki hazırlığı əsas götürülərək ən layiqli 15 abituriyent seçilib.

Nazir, general-polkovnik Vilayət Eyvazov həyatlarında ən əlamətdar günlərdən biri - kursant adına layiq görülmələri münasibətilə gəncləri təbrik edib, Vətəndən kənarda alacaqları təhsildə uğurlar arzulayıb. O, gənc əməkdaşlara dövlətimizin, eləcə də Azərbaycan polisinin adını daim uca tutmağı, eyni zamanda, bilik və təcrübələrini, peşəkar və fiziki hazırlıq səviyyələrini artırmalarını, öz üzərlərində müntəzəm işləmələrini, ən müasir informasiya texnologiyalarının sirlərinə yiyələnmələrini tövsiyə edib.

# "İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir"

*Əvvəli 1-ci səh.*

Amma bu müddət ərzində bir dəfə də olsun işğala son qoyması üçün Ermənistana qarşı təzyiqlər göstərmədilər.

Vasitəçilər, beynəlxalq təşkilatlar bir dəfə də olsun işğalçı dövlətin vandallığına, Qarabağın tarixinin saxtalaşdırılmasına, işğal olunmuş ərazilərimizin qanunsuz məskunlaşdırılmasına, bu torpaqlardakı maddi sərvətlərin talanmasına etirazlarını bildirmədilər, həmişə susqunluq nümayiş etdirdilər.

Bütün bunlar erməni təəssübkeşliyindən irəli gələrək Azərbaycan torpaqlarını ilhaq etmək, Qarabağda ikinci erməni dövlətinin yaradılmasına nail olmaq niyyətindən başqa bir şey deyildi.

Həmin dairələr hesab edirdilər ki, zaman keçdikcə Azərbaycan öz mövqeyindən çəkiləcək, Ermənistanın maraqlarına uyğun kompromislərə gedəcəkdir. Amma bir məsələni unudurdular ki, hələ zəif vaxtlarında belə öz mövqeyindən bir addım geri çəkilməyən Azərbaycan gücləndikdə torpaqlarını işğaldan azad etmək üçün daha qətiyyətli, daha əzmkar olur.

Çox da uzağa getməyək. Ötən ilin sentyabrın 24-də, İkinci Qarabağ müharibəsinin başlanmasından 3 gün öncə Azərbaycan Prezidenti BMT Baş Assambleyasının 75-ci sessiyasındakı çıxışında bir daha dünyaya səslənmişdi. İlham Əliyev bəyan etmişdi ki, təmas xəttində edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir. Ona görə də BMT və beynəlxalq ictimaiyyət Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməlidir.

Ancaq yenə də işğalçıya qarşı heç bir tədbir görülmədi. Hər zaman bu cəzasıqlıq mühitindən yararlanan Ermənistan isə elə bildi ki, Azərbaycan yenə də susqun qalacaq və münaqişənin güc vasitəsi ilə həll olunma variantını seçməyəcək.

Münaqişənin birbaşa həlli ilə məşğul olan ATƏT-in Minsk qrupu da bu dövrdə heç bir xeyirli iş görə bilmədi, həmsədrlər yalnız bölgəyə turist səfərləri etməklə kifayətlənirdilər. Amma hər dəfə İlham Əliyev həmsədrlərlə görüşlərində Ermənistana sanksiyaların tətbiq edilməsinin vacibliyini bildirirdi. Yenə də heç bir tədbir görülmürdü.

Sentyabrın 27-də Anadolu Agentliyinə müsahibəsində Prezident bu məsələyə diqqət çəkərək bildirdi ki, əgər Minsk qrupunun həmsədrlərinə və digər böyük dövlətlərə etdiyi müraciətlər əsasında hansısa bir tədbir görülsəydi, bu, savaşın qarşısını ala bilərdi. Çünki bu sanksiyalar Ermənistan üçün böyük çətinliklər yaşadacaqdı və onlar məcbur olub Azərbaycan torpaqlarından çıxacaqdılar.

Prezident bununla bir daha bəyan etdi ki, illərlə bu mövqedə olmasının səbəbi müharibənin sülh yolu ilə həll olunması variantına üstünlük verdiyini təsdiqləyir: "Bütün imkanlardan istifadə etdik ki, bunu sülh yolu ilə çözək, müharibə olmasın, qan tökülməsin. Ancaq bununla bərabər, mən deyirdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Nəyin bahasına olursa-olsun öz torpağımızı azad edəcəyik və sadəcə olaraq, şans verirdik".

Bütün bu faktlar bir daha təsdiq edir ki, İkinci Qarabağ müharibəsinin başlanmasında, əlbəttə ki, ən böyük məsuliyyət Ermənistanın və işğalçını vaxtında dayandırmayan dövlətlərin üzərinə düşür.

### "Hələ gec deyil" - Prezident Ermənistana növbəti çıxış yolunu göstərdi

Bu proseslərdən sonra baş verənlər artıq bəllidir. Azərbaycan Ermənistanın təxribatlarına cavab olaraq əks-hücüm əməliyyatlarına başlayıb 44 günə düşməni qarşısında diz çökdürdü.

Savaş başlayan andan Ali Baş Komandan İlham Əliyev Ermənistana yenə də çıxış yollarını göstərdi. Dedi ki, əgər Ermənistan ağır itki ilə üzləşmək istəmirsə, torpaqlarımızı boşaltmaqla bağlı təqvim hazırlayıb Azərbaycana təqdim etsin. Belə olan halda Azərbaycan Ordusu əməliyyatları dayandıra bilər. Amma düşmən inanmadı və savaşmaq istədi. Nəticədə isə tarixinin ən ağır məğlubiyyətini aldı və yalvararaq savaşın dayandırılmasını istədi.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına icra etdi və Dağlıq Qarabağ münaqişəsi başa çatdı. Anadolu Agentliyinə müsahibəsində bu məsələyə də diqqət çəkən dövlət başçısı bildirdi ki, "Dağlıq Qarabağ" adlı inzibati ərazi, yəni, qurum mövcud deyil: "Bu günlərdə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının sessiyasında çıxışımda da mən bütün ölkələrə müraciət etdim və dedim, rica edirəm ki, bundan sonra "Dağlıq Qarabağ" ifadəsi işlədilməsin, Azərbaycan ərazisində belə bir qurum yoxdur. Qarabağ zonası var, Şərqi Zəngəzur var".

Müharibədə məğlub olan Ermənistan 10 noyabr Bəyanatını imzalamağa məcbur oldu. Lakin bu gün mğlub ölkə Bəyanatda göstərilən bəzi müddəaları yerinə yetirməkdən boyun qaçırır. İlham Əliyev məğlub ölkəyə bir daha xəbərdarlıq etdi: "Hələ gec deyil. Yeni yaranmış reallığı düzgün dərk etsin, bu reallığa görə addımlar atsın, xəritəyə baxıb öz yerini orada tapsın, əgər tapa bilərsə, bir nöqtədir xəritədə və buna uyğun addımlar atsın. Belə olan halda, əlbəttə ki, bölgədə genişmiqyaslı əməkdaşlıq mümkündür".

Prezident onu da bildirdi ki, digər məsələ dəhlizlərin açılmasıdır. Noyabrın 9-dan 10-na keçən gecə imzalanmış Bəyanatda göstərilir ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantı olmalıdır.

Amma bugünədək bu bağlantı təmin edilməyib. Əlbəttə ki, bunu təmin etmək üçün o qədər də böyük zamana ehtiyac yoxdur. Çünki orada quru yollarla məsafə cəmi 40 kilometrdir. Azərbaycan müharibədən sonra keçən bir il ərzində min kilometrdən çox yol çəkib.

Ermənistan isə yenə də öz ampluasındadır, 10 noyabr Bəyanatını, onun şərtlərini kobudcasına pozur. İlham Əliyev dedi ki, hələlik səbirli, təmkinli davranırıq. Amma səbrimizin də həddi var: "İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir. Ona görə Ermənistan rəhbərliyinə şans veririk ki, noyabrın 10-da imzalanmış Bəyanatın bütün müddəalarını yerinə yetirsin və özünü məsuliyyətlə aparsın".

### Ən yüksək zirvəyə yüksələn qardaşlıq münasibətləri

Hazırda Qarabağda həyata keçirilən tikinti-quruculuq işlərindən geniş bəhs edən İlham Əliyev həm də Azərbaycan və Türkiyə münasibətlərinin yeni mərhələsindən söz açdı. Prezident dedi ki, iki qardaş ölkə son illərdə böyük yol keçib və demək olar münasibətlər ən yüksək zirvəyə qədər yüksəlib. Bu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezident İlham Əliyevin birgə səyi nəticəsində əldə edilən böyük uğurdur.

İlham Əliyevin söylədiyi kimi bu gün dünya miqyasında buna oxşar əməkdaşlıq, dostluq, qardaşlıq münasibətləri yoxdur. İkinci Qarabağ savaşı bunu bir daha göstərdi. Türkiyə Azərbaycanın yanında olmaqla, bütün dünyaya mesaj göndərdi ki, qarışmayın, müdaxilə etməyin. Azərbaycan haqq yolundadır və əgər qarışsanız, əgər müdaxilə etsəniz, qarşınızda Türkiyəni görəcəksiniz. Bu, əlbəttə, çox böyük bir üstünlük idi.

Prezident İkinci Qarabağ savaşından sonra münasibətlərin daha da yüksək pilləyə qalxdığını söyləyərək vurğuladı ki, Şuşa Bəyannaməsinin imzalanması münasibətləri daha da yüksək səviyyəyə qaldırıb: "Faktiki olaraq biz Şuşa Bəyannaməsinin imzalanması ilə de-fakto olan münasibətlərimizi de-yure səviyyəsinə qaldırdıq, yəni, müttəfiqlik səviyyəsinə. Onsuz da bu, hər sahədə müttəfiqlik əlaqələri idi. Ancaq biz bunu artıq rəsmiləşdirdik və bu, gələcək fəaliyyət üçün bir yol istiqamətidir. Biz bu yolla gedəcəyik".

Göründüyü kimi, iki qardaş ölkə arasındakı möhkəmlənən münasibətlər, artan birgə layihələr və əsl həmrəylik bütün qonşu ölkələr üçün bir örnəkdir. İlham Əliyev də dedi ki, əgər bütün qonşular Türkiyə ilə Azərbaycan kimi münasibətlər qursaydılar, o zaman dünyada heç bir savaş, heç bir müharibə olmazdı.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Şərtləri və qaydaları Azərbaycan müəyyən edir

*Əvvəli 1-ci səh.*

### Azərbaycanın mövqeyi aydın və qətiyyətlidir

Artıq müharibə başa çatıb, ölkəmiz ərazi bütövlüyünü bərpa edib, erməni faşizminə və işğalına son qoyub. Azərbaycan güc yolu ilə beynəlxalq hüququn normalarını bərpa edib. Bölgənin yeni reallıqlarından sonra Azərbaycanın regionun sabitliyinə xidmət edən mövqeyi bəllidir. Respublikamız sülh razılaşmasının əldə edilməsi üçün Ermənistanla dialoqa başlamağa hazırdır. Azərbaycanın müharibənin bitməsindən sonra işğaldan azad olunmuş ərazilərdə başlatdığı bütün infrastruktur layihələri də bölgənin bərpası və yenidən qurulması ilə yanaşı, sülhün bərqərar olunmasına xidmət edir. "Bizim mövqeyimiz çox aydındır. Biz münaqişənin həll olunduğunu hesab edirik, keçmişə qayıdış olmamalıdır, Ermənistanda revanşizm əlamətləri olmamalıdır. Biz gələcək haqqında, sülh haqqında və regionu necə daha da sabit və təhlükəsiz etmək imkanları haqqında danışmalıyıq", - deyə Prezident İlham Əliyev müsahibədə bununla bağlı respublikamızın mövqeyini bir daha diqqətə çatdırdı.

Ermənistanın yeni reallıqlarla barışmaqdan başqa yolu yoxdur. Qərb siyasi mərkəzləri isə artıq ikili standartlara son qoymalı, regionda beynəlxalq hüququn normalarının təmin edilməsinə görə siyasi etika nümayiş etdirməli, səmimi olmalıdırlar. Təəssüf ki, bir çox hallarda bunun əksi görünməkdədir. Ermənistan hakimiyyəti hələki vurnuxmaqdadır, qətiyyətli mövqe və siyasi iradə ortaya qoya bilmir, Azərbaycanın xoşməramlı jestlərinə adekvat cavab verə bilmir.

Qərb siyasi dairələri də bu məsələdə Ermənistan hakimiyyətinin mövqeyini müdafiə etməyə çalışırlar. Belə ki, ABŞ və Fransadan tez-tez problemin hələ başa çatmadığı, cəhənnəmə göndərilmiş statusun müəyyən edilməməsi barədə qərəzli açıqlamaların verilməsi, bu zaman məqsədyönlü şəkildə "Dağlıq Qarabağ" ifadəsinin işlədilməsi bölgədə sülhün təmin edilməsinə maneçilik yaratmağa hesablanmış təxribatlardan başqa bir şey deyil. Amma onların nə deməyi, hansı qərəzli mövqe ortaya qoymaları Azərbaycan üçün əhəmiyyət kəsb etmir. 30 ilə yaxın dövrdə də onlar qərəzli mövqe sərgiləmiş, lakin Azərbaycan öz dediyini etmiş və istədiyinə nail olmuşdu. İlham Əliyev problemin həll edilmədiyini düşünən dövlətlərə öz tövsiyəsini belə verdi: "Mənim məsələnin həll edilmədiyini deyən həmin ölkələrə tövsiyəm odur ki, öz ərazilərində erməniləri yerləşdirmək və öz ərazilərində ikinci Ermənistan dövləti yaratmaq üzərində düşünsünlər".

### Ermənistan xəbərdarlıqlardan nəticə çıxarmalıdır

Bu gün nəinki Ermənistanda, həttə Qərbdə də Azərbaycanın gücünə bələddirlər. Azərbaycanın döyüş meydanında Ermənistanı cəzalandırması nəinki bu işğalçı dövlətə, hətta onun havadarlarına və bütün dünya erməniliyinə dərs oldu. Onlar bu gün də narahatdırlar və bu da əbəs deyil. Çünki Azərbaycan heç vaxt gizlətmir ki, istənilən revanş cəhdinin qarşısı "Dəmir yumruq"la alınacaq.

"France-24" televiziya kanalının müxbirinin bunanla bağlı sual verməsi təsadüf deyildi və Azərbaycanın "Dəmir yumruğu"nun dünya erməniliyində yaratdığı qorxu fonunda məqsəd bir daha Prezident İlham Əliyevin mövqeyini öyrənmək idi. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, "Dəmir yumruq" yerindədir. O cümlədən Anım Günü ilə bağlı xalqa müraciətində İlham Əliyev bəyan etdi ki, erməni faşizmi baş qaldırsa, əgər xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaransa, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bununla bağlı "France-24" televiziyasının sualını cavablandıran Prezident İlham Əliyev bildirdi ki, bütün bunlar öz mənşəyini Ermənistanda müşahidə etdiyimiz tendensiyadan götürür. Bu ölkədə siyasi istablişmentin bəzi dairələrində revanşizmə çağırışlar edilir. Ermənistanın məğlubiyyətlə barışmamasına, xaricdən yeni silahlar alınmasına dair edilən çağırışlar göstərir ki, bu ölkədə revanşizm xülyası ilə yaşayanlar hələ qalır. İlham Əliyevin dediyi kimi onlar bizim necə cavab verdiyimizi bilir və İkinci Qarabağ müharibəsi onların Azərbaycanın qarşısında heç bir şansının olmadığını göstərdi.

"France-24" televiziya kanalına müsahibəsində Prezident İlham Əliyev müharibə zamanı Fransanın özünü dürüst vasitəçi kimi aparmadığını, 10 noyabr bəyanatından sonra əsir götürülənlərin hərbi əsir sayılmadıqlarını diqqətə çatdırdı və ölkəmizin bu məsələlərə dair mövqeyini əsaslandırdı.

Azərbaycan həm də irəli baxan dövlətdir, bölgədə sülhün və əmin-amanlığın təmin olunmasının tərəfdarıdır. Hələ İkinci Qarabağ müharibəsinə qədər respublikamız Ermənistana dəfələrlə xəbərdarlıq etmişdi. Lakin bundan nəticə çıxarmayan işğalçı ölkəyə döyüş meydanında layiq olduğu cəza verildi. Ona görə həm Ermənistanın siyasi-hərbi dairələri, həm bu ölkənin təəssübkeşləri Prezident İlham Əliyevin xəbərdarlıqlarından, mesajlarından və bölgədə sülhün təmin olunmasına dair xoş niyyətindən nəticə çıxarmalı, "Dəmir yumruğ"un zərbəsinə tuş gəlməmək üçün revanşizm xülyasından əl çəkməlidirlər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Baş Prokurorluq və DİN Daşkəsən rayon sakinlərinin minaya düşmələri ilə bağlı aparılan istintaqın gedişinə dair birgə məlumat yayıb

İyulun 30-u Daşkəsən rayon sakinləri 2010-cu il təvəllüdlü Qismət Bayramov və 2000-ci il təvəllüdlü Ülfət Rüstəmovun kənd təsərrüfatı işləri ilə məşğul olmaq məqsədilə evdən çıxaraq itkin düşmələri barədə rayon polis şöbəsinə məlumat daxil olub və hər iki şəxsin axtarılması istiqamətində intensiv əməliyyat-axtarış tədbirləri aparılıb.

Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, sentyabrın 24-də rayon prokurorluğuna daxil olmuş məlumata əsasən, Göygöl-Kəlbəcər rayonunun Murovdağ silsiləsindəki düşmən tərəfindən minalanmış ərazidə ilkin ehtimala görə minaya düşmələri nəticəsində Qismət Bayramov və Ülfət Rüstəmovun meyit fraqmentləri aşkarlanıb.

Prokurorluq və polis əməkdaşları, o cümlədən prokuror-kriminalistlər tərəfindən məhkəmə-tibb ekspertinin və Minatəmizləmə Agentliyinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə keçirilən baxış zamanı meyit qalıqları və müxtəlif geyim əşyaları aşkarlanıb. Həmin fraqmentlərin Qismət Bayramova və Ülfət Rüstəmova aid olub-olmamasını müəyyən etmək məqsədilə məhkəmə tibbi-genetik ekspertizası təyin olunub.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə Baş Prokurorluğun İstintaq İdarəsi tərəfindən istintaq davam etdirilir.

Bu barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

# Prokurorluq işçilərinin peşə bayramı günü və Vətən müharibəsinin ildönümü ilə əlaqədar Baş Prokurorluqda görüş keçirilib

1 oktyabr - Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və Vətən müharibəsinin ildönümü münasibətilə sentyabrın 29-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin üzvləri, Vətən müharibəsində iştirak etmiş prokurorluq əməkdaşları, Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş prokurorluq işçilərinin ailələri ilə görüş keçirilib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Baş prokuror Kamran Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi ilə ölkədə həyata keçirilmiş uğurlu fəaliyyətin müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlə davam etdirilməsi və doğma torpaqlarımızın 44 gün ərzində yenilməz Azərbaycan Ordusu tərəfindən azad olunmasından danışıb, qısa müddətdə həmin bölgələrdə infrastrukturun bərpa olunduğunu, quruculuq işlərinin sürətlə davam etdirildiyini, Birinci və İkinci Qarabağ müharibələri şəhidlərinin ailələrinə, qazilərə və veteranlara xüsusi dövlət qayğısının göstərildiyini, həmçinin Qubadlı və Kəlbəcər hərbi prokurorluqlarının yaradıldığını tədbir iştirakçılarının nəzərlərinə çatdırıb.

Sonra Vətən müharibəsi iştirakçıları olan prokurorluq əməkdaşlarına Fəxri fərman və medallar təqdim edilib. Tədbir iştirakçıları ölkə rəhbərliyinin şəhid ailələrinə və veteranlara göstərdiyi diqqət və qayğısına görə dərin minnətdarlıqlarını bildiriblər.

Sonda xatirə şəkilləri çəkdirilib.

# Bakıda Azərbaycan-Çexiya biznes forumu keçirilib

Sentyabrın 29-da İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Çexiya biznes forumu keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbirdə rəsmi şəxslərlə yanaşı, hər 2 tərəfdən sənaye, kənd təsərrüfatı, turizm, tekstil və sair sahələrdə fəaliyyət göstərən 50-dən çox iş adamı iştirak edib.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov Azərbaycan iqtisadiyyatı, son zamanlar ölkəmizdə sahibkarlıq, biznes və investisiya mühitinin yaxşılaşdırılması sahəsində aparılan islahatlar barədə geniş məlumat verib. Nazir müavini Azərbaycan-Çexiya əlaqələrinin uğurla inkişaf etdiyini, iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb, biznes forumların, işgüzar görüşlərin və sahibkarların iştirakı ilə keçirilən digər tədbirlərin iqtisadi münasibətlərin inkişafında mühüm rol oynadığını qeyd edib. Bildirilib ki, Azərbaycanda 30-dək Çexiya kapitallı şirkət fəaliyyət göstərir. Bununla belə maşınqayırma və qida sənayesi, kənd təsərrüfatı, enerji, kimya, əczaçılıq, nəqliyyat-tranzit, turizm, informasiya texnologiyaları, ekologiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial mövcuddur.

Qeyd edilib ki, 1995-2021-ci ilin 3 ayı ərzində Çexiya Azərbaycana 37,2 milyon ABŞ dolları, Azərbaycan isə Çexiyaya 48,2 milyon ABŞ dolları investisiya yatırıb. Niyazi Səfərov çexiyalı iş adamlarını Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühitindən yararlanaraq müxtəlif sahələrə investisiya yatırmağa dəvət edib.

Çexiyanın xarici işlər naziri Yakub Kulhanek Azərbaycana səfərindən məmnunluğunu bildirib, ölkəsinin Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu vurğulayıb. Yakub Kulhanek ölkəsinin iqtisadiyyatı barədə məlumat verib, iş adamları arasında əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayıb. İşgüzar dairələrin iştirakı ilə keçirilən belə tədbirlərin iqtisadi əməkdaşlığın inkişafına, eləcə də yeni əlaqələrin qurulmasına töhfə verəcəyini bildirib.

AZPROMO-nun rəhbəri Yusif Abdullayev xarici investisiyaların təşviqi məqsədilə AZPROMO tərəfindən görülən işlər və həyata keçirilən tədbirlər barədə danışıb, Azərbaycan və Çexiya arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, birgə layihələrin reallaşdırılmasında əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov agentliyin fəaliyyəti və sahibkarlara göstərilən dəstək və xidmətlər barədə məlumat verib, KOBİA-nın xarici iş adamlarına və investorlara ölkəmizdə müvafiq qurumlarla əlaqələndirmə, etibarlı yerli tərəfdaşların tapılması və digər istiqamətlərdə dəstək göstərə biləcəyini diqqətə çatdırıb.

Biznes forum iş adamları arasında əməkdaşlıq imkanlarının müzakirə edildiyi ikitərəfli görüşlərlə davam etdirilib.

# Gender bərabərliyi, gender münasibətlərində mövcud vəziyyət və prioritet istiqamətlər müzakirə olunub

Sentyabrın 29-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında "Gender bərabərliyi və gender münasibətləri: Mövcud vəziyyət və prioritet istiqamətlər" mövzusunda videokonfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova giriş sözü ilə çıxış edib.

Azərbaycanda uğurlu dövlət gender siyasətinin həyata keçirildiyini, Azərbaycanda gender məsələlərinin xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hər zaman diqqət mərkəzində olduğunu xatırladan Sədaqət Qəhrəmanova vurğulayıb ki, Ulu Öndərin hakimiyyətinin bütün dövrlərində qadınlara göstərilən diqqət və qayğının artdığının şahidi olmuşuq. Məhz Onun ölkəmizə rəhbərliyi dövründə Azərbaycan qadınları cəmiyyət həyatının müxtəlif sahələrində öz sözlərini deyə biliblər.

Dövlət gender siyasətinin əsasının Ümummilli Liderimiz tərəfindən qoyulduğunu qeyd edən YAP Veteranlar Şurasının sədr müavini bildirib ki, Prezident Heydər Əliyevin fərmanı ilə 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, 2000-ci ildə dövlət qadın siyasəti ilə bağlı fərmanın imzalanması bu sahəyə göstərilən xüsusi diqqətin ifadəsidir.

Onun sözlərinə görə, Ulu Öndərin müəyyənləşdirdiyi bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xüsusilə dövlət başçısının müvafiq fərmanı ilə 2006-cı ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması böyük əhəmiyyət kəsb edir. Heydər Əliyev ideyaları ətrafında sıx birləşən Azərbaycan qadınları Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyini, qayğısını hər zaman hiss edirlər. Göründüyü kimi, Azərbaycanda gender bərabərliyinin təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilib. Bu gün ölkəmizdə gender bərabərliyi diqqət mərkəzindədir və artıq qadınlarımız cəmiyyətin aparıcı hissəsinə çevrilib. Azərbaycan qadını kişilərlə yanaşı ölkəmizdə gedən ictimai, siyasi, iqtisadi, mədəni proseslərdə fəal iştirak edir.

Tədbirdə, həmçinin AMEA Fəlsəfə İnstitutunun Müasir siyasətin fəlsəfəsi şöbəsinin müdiri, professor Rəna Mirzəzadə "Siyasi partiyaların fəaliyyətində gender bərabərliyi", "Sosial Hüquqların Araşdırılması" İctimai Birliyinin sədri Mais Əliyev "Əmək hüquqları və gender bərabərliyi", Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və Sosial Analitik Araşdırmalar şöbəsinin müdiri, BMT-nin SEDAW komitəsinin sədr müavini Elgün Səfərov "Gender stereotipləri və onlarla mübarizə yolları" və Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müavini Rəna Fərəcova "Gender zorakılığı və uşaqlara qarşı zorakılıq" mövzularında çıxış ediblər. Çıxışlarda vurğulanıb ki, hazırda həyata keçirilən gender siyasəti nəticəsində ölkəmizdə qadınların hərtərəfli inkişafı üçün zəruri şərait yaradılıb. Gənc nəslin tərbiyəsi, savadı, mədəniyyəti, zehni inkişafı, vətənpərvərliyi qadınlardan da çox asılıdır. Qadınlar kişilərlə bərabər ölkənin ictimai həyatında, iqtisadiyyat, mədəniyyət, elm, incəsənətin və digər sahələrdə da uğurla çalışırlar. Bu gün elə bir sahə tapmaq olmaz ki, orada qadın əməyi təmsil olunmasın. Bütün bunlar isə Azərbaycanda gender siyasətinin uğurlarıdır.

Çıxışlarda həmçinin ölkəmizdə məişət zorakılığının qarşısının alınması istiqamətində görülən işlərdən və bu yöndə mövcud qanunvericilik bazasının önəmindən bəhs olunub.

Sonra tədbir diskussiya şəraitində davam edib, videokonfrans iştirakçılarının sualları cavablandırılıb.

# Hüquqi dövlət quruculuğuna mükəmməl töhfə

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli Qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanı təsis edilərək fəaliyyətə başlamışdır. Azərbaycan Respublikası prokurorluğu orqanlarının ölkənin hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının qorunmasında mühüm əhəmiyyəti olan, konstitusion statuslu qurum kimi formalaşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında prokurorluğa xüsusi norma həsr edilərək, dövlət idarəetmə sistemində onun yeri və statutu müəyyən edilmişdir. Prokurorluğun hakimiyyət bölgüsü sistemində məhkəmə hakimiyyətinə aid edilməsi ilə onun müasir prokurorluq orqanı və Azərbaycan Xalq Cümhuriyyətinin prokurorluq qurumunun hüquqi varisi olması təsdiq edilmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla davam etdirilən hüquq islahatları nəticəsində prokurorluq orqanı müstəqil dövlətçiliyimizin maraqlarına sədaqətlə xidmət edən, sivil və demokratik bir dövlət təsisatı kimi daha da möhkəmlənmişdir. Bu da təsadüfü deyildir, dövlət başçısı İlham Əliyevin söylədiyi kimi, "Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır". Bu baxımdan müstəqil dövlətimizin davamlı tərəqqisi prokurorluqdan yan keçməmiş, bu sistemdə adekvat və pozitiv dəyişikliklərin baş verməsini şərtləndirmişdir. Cənab İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla reallaşdırılan hüquqi dövlət quruculuğu konsepsiyasının gerçəkləşdirilməsi sayəsində prokurorluq orqanı ölkədə qanunçuluq rejiminin təminatında daha müasir sima əldə etmişdir.

Vətən müharibəsi gedişində cəmiyyətimizlə bərabər səfərbər olan prokurorluq orqanları üzərlərinə düşən vəzifələri uğurla yerinə yetirmişdir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş komandanı cənab İlham Əliyevin tapşırığı əsasında prokurorluq orqanları tərəfindən erməni silahlı birləşmələrinin törətdikləri cinayət faktları üzrə zəruri istintaq hərəkətləri həyata keçirilmiş, düşmənin beynəlxalq konvensiyalarda təsbit olunan müharibə qaydalarını kobud şəkildə pozaraq cəbhə zonasından kənarda yerləşən şəhərlərimizi və kəndlərimizi raket zərbələri, o cümlədən qadağan olunan silahlarla atəşə məruz qoyması, dinc sakinlərin qətlə yetirilməsi ilə bağlı hadisə yerlərinin (Gəncə, Bərdə, Tərtər və s.) müayinəsinin aparılıb cinayət işlərinin başlanılması təmin olunmuşdur.

Baş Prokurorluq tərəfindən erməni vəhşiliklərinin dünya dövlətlərinin hüquq mühafizə orqanlarına və aidiyyəti beynəlxalq təşkilatların diqqətinə çatdırılması məqsədilə BMT-nin İnsan Hüquqlarının Müdafiəsi üzrə Komissarına, Avropa Şurasının İnsan Hüquqlarının Müdafiəsi üzrə Komissarına, MDB ölkələrinin üzv dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurası və digər beynəlxalq təşkilatlara, eləcə də ayrı-ayrı ölkələrin Baş prokuror və ədliyyə nazirlərinə Ermənistanın törətdiyi cinayətlər haqqında məktublar göndərilmiş və bu proses mütəmadi qaydada həyata keçirilir.

Dövlət başçısının prokurorluğa göstərdiyi yüksək etimadın nəticəsi olaraq onun qarşısında mühüm əhəmiyyətli vəzifələrin icrası qoyulmuşdur. Belə ki, dövlətin fəaliyyətinin ən prioritet istiqamətlərindən biri kimi müəyyən edilmiş korrupsiyaya qarşı mübarizə ilə bağlı cinayətlər üzrə ibtidai istintaq və əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə həvalə edilmişdir. Təqdirəlayiq haldır ki, dövlət başçısının güclü siyasi iradəsi ilə korrupsiyaya qarşı aparılan mübarizə tədbirləri çərçivəsində prokurorluq öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Prokurorluq tərəfindən korrupsiyaya qarşı əməli mübarizə ilə yanaşı, həmçinin cəmiyyət həyatında bu neqativ təzahürün aradan qalxması üçün həyata keçirilməsi zəruri olan məsələlərin elmi baxımdan təhlili də aparılır. Respublika Baş Prokurorluğunda Anti-korrupsiya Təlim Mərkəzinin yaradılması məsələsi də problemin həllinə məhz elmi yanaşmanın təzahürüdür.

Onu da qeyd edək ki, son illər ölkənin hüquq sistemində prokurorluğun rolu getdikcə artır və ənənəvi fəaliyyət istiqamətləri ilə yanaşı, bu dövlət təsisatının qarşısında yeni olan vəzifələrin müəyyən olunması prosesi həyata keçirilir. Bunun nəticəsidir ki, Azərbaycan Respublikasının 2016-cı il martın 1-dən qüvvəyə minmiş İnzibati Xətalar Məcəlləsinin idarəçilik, iqtisadi fəaliyyət qaydaları, əhalinin siyasi, sosial, əmək hüquqları və daha çox ictimai zərər vuran digər inzibati xətalar üzrə inzibati icraatın başlanılması prokurorun müstəsna səlahiyyətinə aid edilmişdir. Prokurorluğun fəaliyyət istiqamətlərində baş verən yeniliklər bu dövlət təsisatının quruluşuna da öz təsirini göstərmişdir. Belə ki, Azərbaycan Respublikası Baş Prokurorluğunda müstəqil struktur qurumlar kimi Cinayət təqibindən kənar icraatlar idarəsi və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi yaradılmışdır. Baş verən dəyişikliklər prokurorluğa dövlətçiliyin əsas dayaqlarından biri kimi möhkəm inam və etibarın olduğunu təsdiq edir.

Prokurorluq orqanı tərəfindən qanunla üzərinə düşən vəzifələrin layiqli icrası, cəmiyyətdə nüfuzunun yüksəlməsi fəaliyyətində sistemli yanaşmanın rəhbər tutulmasının, digər dövlət orqanları ilə səmərəli işgüzar münasibətlərin qurulmasının müstəsna rolu vardır. Belə ki, prokurorluq orqanlarının daxili işlər, ədliyyə, məhkəmə, xüsusi xidmət və digər hüquq mühafizə orqanları ilə səmərəli birgə fəaliyyətinin nəticəsi olaraq respublikamızda ictimai-siyasi sabitliyin qorunması, dövlət maraqlarının müdafiəsi, cinayətkarlığa qarşı kəsərli mübarizənin aparılması və kriminogen stabilliyə nail olunması təmin olunmuşdur.

Təqdirəlayiq hal kimi qeyd edə bilərik ki, Azərbaycan Respublikası prokurorluğu ilə İqtisadiyyat Nazirliyinin arasında sıx və səmərəli əməkdaşlıq münasibətləri mövcuddur və bu qarşılıqlı əlaqə hər iki orqanın qarşısında duran vəzifələrin layiqincə icra olunmasına kömək edir. Prokurorluğun əməkdaşlıq etdiyi qurumlar arasında müəyyən istiqamətlər üzrə ixtisaslaşmış, habelə elm-təhsil müəssisələri xüsusi yer tutur ki, bu da əslində fəaliyyətə peşəkar yanaşmanın təzahürüdür.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi ilə Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi arasında tədris, təlim və elmi-tədqiqat sahələrində fəal əlaqələr yaratmaq və inkişaf etdirmək niyyətlərini özündə əks etdirən memorandum imzalanmışdır. Memorandumda hər iki qurumun real imkanlarına və qarşılıqlı faydalı və ikitərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərini birləşdirmək istəklərinə əsaslanan niyyətlər ifadə olunaraq, hər iki dövlət orqanının əməkdaşlarının hüquq, iqtisadiyyat, maliyyə, mühasibat uçotu və vergi sahələri üzrə bilik, ixtisas və peşə hazırlığı səviyyələrinin yüksəldilməsi, müxtəlif aktual mövzular üzrə birgə elmi-tədqiqatların aparılması, innovativ layihələrin işlənib hazırlanması və həyata keçirilməsi, fəaliyyət sahələrinə uyğun məsələlər üzrə məsləhətlərin verilməsi, elmi-metodiki köməyin göstərilməsi, qanunvericiliyin, normativ sənədlərin və onların layihələrinin ekspertizasının, birgə elmi konfrans, seminar, "dəyirmi masa" və digər tədbirlərin keçirilməsi və tərəflərin peşəkar imkanlarının genişləndirilməsi, səlahiyyətləri çərçivəsində müəyyən edilən və qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsinə xidmət edən digər fəaliyyətin göstərilməsi nəzərdə tutulmuşdur.

Memorandum çərçivəsində Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi respublika Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi və digər müvafiq strukturlarının dəstəyi ilə hər iki qurumun inkişafına kömək edən layihələr həyata keçirilmişdir.

Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi müasir dövrdə əmlakların qiymətləndirilməsi məsələlərinin aktual olduğunu nəzərə alaraq, respublika İqtisadiyyat Nazirliyinin müvafiq strukturlarının və qiymətləndirmə fəaliyyəti üzrə respublikamızın çox tanınmış, özəl sektoru təmsil edən və müvafiq lisenziya, habelə akkreditasiya sənədlərinə malik yüksəkixtisaslı mütəxəssislərinin iştirakı ilə yaxın günlərdə "Aktivlərin qiymətləndirilməsi və onun xüsusiyyətləri" mövzusunda təlimin keçirilməsini planlaşdırmışdır.

Prokurorluğun öz fəaliyyətində elmi yanaşmaya üstünlük verməsinin təzahürlərindən biri də Baş prokurorun yanında ölkənin görkəmli hüquqşünas alimlərinin və hüquqtətbiqetmə fəaliyyəti üzrə zəngin peşəkar təcrübəyə malik olan mütəxəssislərinin təmsil olunduğu Elmi-Məsləhət Şurasının yaradılması və uğurlu fəaliyyətinin təmin olunmasıdır. Elmi-Məsləhət Şurasında respublikada vahid istintaq və məhkəmə təcrübəsinin formalaşması, hüquq normalarının tətbiqi sahəsində yaranan çətinliklər, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı müxtəlif hüquqi məsələləri özündə əks etdirən aktual mövzular üzrə müzakirələr aparılır.

Müasir şəraitdə Azərbaycan Prokurorluğunun qarşısında ənənəvi vəzifələr sayılan qanunçuluğun möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğuna və cinayətkarlıqla mübarizəyə dəyərli töhfələrin verilməsi ilə yanaşı, Ermənistan tərəfindən törədilən sülh və insanlıq əleyhinə cinayətlər və bununla bağlı təzminat məsələləri, işğal altında olan müddətdə torpaqlarımızda urbisid aktlarının törədilməsi və s. qanunsuz fəaliyyətlər üzrə müvafiq icraatların aparılmasının, bu əməllərə hüquqi qiymət verilməsinin, cinayətləri törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsinin və məhkəmə qərarlarının çıxarılmasına nail olunmasının təmin edilməsi kimi dövlət əhəmiyyətli çox mühüm vəzifə dayanır. İnanırıq ki, prokurorluq bu vəzifənin də üzərindən layiqincə gələcək və son nəticədə Ermənistan dövlətinin defoltuna gətirib cıxaracaq beynəlxalq məhkəmə aktının qəbul olunmasının əsas iştirakçılarından biri olacaqdır.

***Mirəli KAZIMOV,***
***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin rəisi, baş vergi xidməti müşaviri, hüquq üzrə elmlər doktoru***

# Ukraynalı jurnalistlər Ağdama səfər ediblər

Ukraynadan olan bir qrup media nümayəndəsi Ağdam rayonunun işğaldan azad olunmuş hissəsinə səfər edib.

AZƏRTAC xəbər verir ki, ukraynalı jurnalistlər Ağdam şəhərində İmarət kompleksini, Cümə məscidini, Qiyaslı məscidini ziyarət edib, Çörək muzeyinin və Dram Teatrının qalıqlarına baxıblar.

Qonaqlara ermənilərin 30 ilə yaxın işğal müddətində Ağdam şəhərinə vurduqları ziyan barədə məlumat verilib. Ağdamda törədilən dağıntıların şahidi olan media nümayəndələri yaxın gələcəkdə şəhərdə aparılacaq yenidənqurma və bərpa işləri haqqında da məlumatlandırılıb.





# İşğaldan azad olunan ərazilərdə tikinti-quruculuq işləri davam etdirilir

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, azad edilən ərazilərdə hərbi şəhərciklərin və digər hərbi struktur obyektlərinin kompleks şəkildə inşa olunaraq hərbi qulluqçuların istifadəsinə verilməsi istiqamətində aparılan işlər davam etdirilir.*

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi qulluqçuların qida təminatının daha da yaxşılaşdırılması məqsədilə Kəlbəcər şəhərində çörəkbişirmə sexinin açılışı olub.

Açılış mərasimində müdafiə nazirinin müavinləri - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov və Quru Qoşunları Komandanı general-mayor Ənvər Əfəndiyev iştirak ediblər.

Məruzə olunub ki, Kəlbəcər rayonunda xidmət edən hərbi qulluqçuların isti çörəklə vaxtında təmin olunması məqsədilə inşa edilən sex müasir avadanlıq və inventarla təchiz olunub. Çörək sexinə zəruri kommunikasiya xətləri çəkilib, fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generator quraşdırılıb.



Sexdə yaradılan şəraitlə tanışlıqdan sonra şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı müdafiə nazirinin tapşırıqları komandanlığa çatdırılıb.





# Əbədi ehtiram yürüşü




# Milli iradə, milli ruh, milli ləyaqətin təntənəsi

*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidenti İlham Əliyev bu reallıqları dəyişdi. Tarixi yenidən başlamağa nail oldu. Neçə əsrlik müddət ərzində ilk dəfə itirilmiş Azərbaycan torpaqlarının mühüm bir hissəsini geri qaytarmağı bacardı. Bununla göstərdi ki, milli hədəflərə doğru ardıcıl, sistemli, dönməz hərəkətlə Azərbaycan xalqı bütün tarixi haqlarını bərpa edə bilər. Prezident İlham Əliyev iki əsr ərzində başımızın bəlasına çevrilmiş Qarabağ münaqişəsini həll edə bildi. Yoluna qoyulması mümkün olmayan, hər dəfə yenidən alovlananda minlərlə insanın, ailənin faciəsi ilə nəticələnən, regionun bu günü və gələcəyi üçün ən böyük təhdid kimi qalan bu münaqişəni “Dəmir yumruğ”un zərbəsi ilə cəmi 44 gündə həll etdi.

Vətən savaşının başlanmasından, qanlı hadisələrin baş verdiyi gündən bir il keçir. Sentyabrın 27-də xalqımız “Anım günü”nü şəhidlərimizə böyük ehtiramla qeyd etdi. Azərbaycanın hər yerində, dünyanın hər məkanında, qəlbi bu torpağa bağlı soydaşlarımızın yaşadığı hər ölkədə şəhidlərimizin xatirəsi anıldı. Vətən müharibəsindəki tarixi qələbəmizi bizə bəxş etmiş qəhrəman övladlarımıza əbədi minnətdarlığımızı bacardığımız kimi ifadə etməyə çalışdıq. Həmin gün milli birliyimizin daha bir rəmzinə çevrildi. Hər anı ilə bizə şəhid adının ucalığını, müqəddəsliyini bir daha xatırlatdı.

## Başımız üzərindəki müqəddəs ruhlar

Anım gününün yaddaqalan məqamları çox oldu. Ən unudulmaz mənzərəsi isə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və minlərlə hərbçimizlə birgə Vətən müharibəsi şəhidlərimizin şəkilləri əllərində yürüşə çıxması idi. Öndə Müzəffər sərkərdə, onun ardınca hərbçilər və sanki şəhidlərimizin müqəddəs ruhu addımlayırdı. İnsan qəlbini riqqətə gətirən bu qürur dolu mənzərə Prezident İlham Əliyevin ardınca qətiyyətlə, əzmlə gələcəyə doğru hərəkət edən, tutduğu haqq yolundan dönməyən Azərbaycan xalqının ümumi portreti idi. Yürüş Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlinin qoyulması ilə tamamlandı. Qısa müddətdən sonra paytaxtın ən görməli yerlərindən birində ucaldılacaq bu kompleks və muzey xalqımıza hər zaman qalibiyyət əzmimizi, gücümüzü, iradəmizi, tarixi nailiyyətlərimizi və gələcək hədəflərimizi xatırladacaq.

Bir daha əmin olduq ki, bu müharibədə Azərbaycan xalqının sıravi nümayəndəsindən tutmuş Ali Baş Komandanına qədər hər bir üzvü qəhrəmandır. Hər bir azərbaycanlı mətin iradəlidir, yenilməzdir. Bu xalqı məğlub etmək, haqq bildiyi yoldan döndərmək, əzmini, hüququnu əlindən almaq mümkün deyil.

Anım günü münasibətilə xalqa müraciətində Azərbaycan Respublikasının Prezidenti dedi: *“Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq...*

*Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib”.*

## Dəmir yumruq - Zəfərin rəmzi

44 günlük Vətən müharibəsinin hər günü böyük bir tarixdir. Hərbi əməliyyatların aparıldığı dövrdə həyəcan, itkilərin yaşatdığı acılar, zəfər müjdələrinin gözləntisi, bəlkə də bütün təfərrüatlara diqqət yetirməyə mane olur. Eyni zamanda, müharibənin qanla yazılmış qanunlarından irəli gələrək bir çox mətləblər həmin vaxt açıqlanmır. Yalnız aradan müəyyən müddət keçəndən sonra müharibə ilə bağlı faktlar dilə gətirilir, yazılır. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Rusiyanın nüfuzlu “Nasionalnaya oborona” jurnalına müsahibəsi son dərəcə maraqlı idi. Həmin müsahibədə Ali Baş Komandan 44 günlük Vətən müharibəsi ilə bağlı çoxsaylı sualları cavablandırdı. Bir sıra detalları ilk dəfə açıqladı. Sülh prosesi və regionun gələcəyi ilə bağlı fikirlərini bölüşdü. Bu müsahibədə deyilən məqamlar belə bir həqiqətdən xəbər verirdi ki, düşmən işğal edilmiş torpaqlarımızdan sülh yolu ilə çıxmasa hərbi yola əl atılacaq. Və bu fikirlər, sadəcə, bəyanat xatirinə səsləndirilmirdi.

Ermənistanın ən yüksəkvəzifəli hökumət rəsmiləri səviyyəsində verilən bəyanatlar isə düşmənin torpaqlarmızdan çıxmaq niyyətində olmadığını, əksinə, yeni hərbi təxribatlar, işğal planları hazırladığını nümayiş etdirirdi. Bütün bunlar həm də onu göstərirdi ki, Ermənistan rəhbərliyi Azərbaycan Ordusunun 2016-cı ildəki Aprel zəfərindən, ardınca 2018-ci ildə Naxçıvan Muxtar Respublikası ilə Ermənistan sərhədində böyük bir ərazinin düşməndən təmizlənməsi faktından düzgün nəticə çıxarmayıb. Azərbaycan əsgəri hücuma keçərsə, bunun Ermənistan üçün hansı acınacaqlı nəticələrə gətirəcəyi barədə Ermənistan cəmiyyətində aydın bir təsəvvür yoxdur. Onların düşüncələrində hələ də miflər reallıqları üstələyir. Ermənistan cəmiyyəti uydurulmuş saxta miflərlə yaşayır və gerçəkləri qəbul etmək niyyətində deyil.

Azərbaycan öz torpaqlarını işğaldan azad etməyə həmişə hazır olub. Bununla əlaqədar müvafiq əməliyyat planları hazırlanıb və yaranan yeni reallıqlar nəzərə alınmaqla həmin planlara düzəlişlər edilib. *“Mən Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi ilə hər gün müşavirələr keçirirdim. Biz həmin müşavirələrdə ötən günə yekun vurur, nöqsanları aşkar edir, növbəti gün üçün əməliyyatları planlaşdırır və təsdiq edirdik. Buna görə də, belə deyək, çox fəal gündəlik iş gedirdi və bir sıra hallarda, - hərbi əməliyyatların gedişi indi artıq məlumdur, - bizim fəaliyyətimiz, bizim əməliyyatlarımız düşmən üçün çox gözlənilməz olurdu”*,- deyə Prezident İlham Əliyev müsahibəsində bildirdi.

44 günlük Vətən müharibəsi gedişində Azərbaycan daha bir ordu korpusu formalaşdırmağa müvəffəq olub. Cəmi iki gün ərzində həmin korpusun şəxsi heyəti səfərbər edilib, bütün zəruri silahlar və texniki vasitələrlə təmin olunub. Səfərbər edilmiş texniki imkanlar əks-hücum fəaliyyətinin daha səmərəli şəkildə həyata keçirilməsinə böyük kömək göstərib. Müharibənin ilk günlərində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumları qarşısında yaşanan qələbəliklər hər birimizin yaxşı yadındadır. Bu, bir qürur mənzərəsi idi. Qismən səfərbərliyə cəlb olunmuş gənclərlə yanaşı, səfərbərlikdən hələ kənarda qalanlar dəstə-dəstə idarələrə gəlir, döyüşə göndərilmələrini təkid edirdilər. Verilən izahatlara, aparılan maarifləndirmə işlərinə baxmayaraq, mütləq düşmənə qarşı döyüş meydanında əsgər və zabitlərimizlə çiyin-çiyinə vuruşmaq istəyirdilər. Bütün Azərbaycan Vətən müharibəsi ovqatında idi. Gənclərimiz ölkəmizin və haqq işimizdə yanımızda olan qardaş Türkiyənin dövlət bayraqlarına bürünmüşdülər. Bu iki bayraq bizi Qələbəyə, yeni bir tarixin başlanğıcına doğru aparırdı. Zəfər ümidi, 30 illik münaqişənin donunun açılması, nisgilli yurdlarımızın azadlığına yol açılması itkilərin ağrılarını ovundururdu. Azərbaycan insanı, vətənpərvər oğullarımız qələbəyə doğru irəliləyirdi. Şəhidlərimizin qisasını döyüş meydanında almağa can atırdılar.

Müsahibədə Vətən müharibəsinin başlanmasını şərtləndirən səbəblər də izah edilir. Bu müharibə Ermənistanın ardıcıl və sentyabrın 27-də pik nöqtəsinə çatan hərbi təxribatları və yeni işğal planları nəticəsində başlayıb. Vətən savaşının elə ilk günündən Azərbaycan Ordusu düşmənin müdafiə sədlərini sürətlə yarmağa, torpaqların bir qismini işğaldan azad etməyə müvəffəq olub. Növbəti 44 gün ərzində ancaq hücumda olub, irəli gedib, Vətən müharibəsini Azərbaycanın qəti qələbəsi ilə başa çatdırıb.

Hərbi əməliyyatın “Dəmir yumruq” adlandırılması ilə bağlı dövlət başçısının verdiyi izahlar həm cəmiyyətimiz, həm də illərdən sonra Vətən müharibəsini, tarixi qələbəmizi öyrənib tədqiq edəcək elm adamları üçün də maraqlıdır. Ali Baş Komandanın müsahibəsindən belə məlum oldu ki, “Dəmir yumruq” adı əvvəlcədən düşünülməyib. Bu ad Prezident İlham Əliyevin televiziya ilə çıxışlarında, xalqa qələbə müjdələri əsnasında ortaya çıxıb və cəmiyyət tərəfindən qəbul edilib, beləliklə, Vətən müharibəsinin, xalqımızın Zəfərinin tarixi rəmzinə çevrilib.

## Qələbəni şərtləndirən səbəblər

Azərbaycanın bu müharibədəki qələbəsini şərtləndirən səbəblərin təhlil edilməsi xüsusi maraq doğuran məsələlərdəndir. Çünki ölkəmiz qələbəni 44 günün içində qazansa da, bu 44 günə on illərdən bəri əzmlə hazırlaşırdı. Qurulan təkmil idarəetmə sistemi, Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, uzaqgörən, prinsipial siyasəti nəticəsində daxili və xarici diplomatiyada qazandığımız böyük uğurlar bizi addım-addım Zəfərə yaxınlaşdırırdı. Dövlət rəhbərimizin həyata keçirdiyi siyasətin uğurları sayəsində Azərbaycanda inkişafda olan böyük iqtisadi potensial formalaşdırıldı. Güclü və müasir, qarşısına qoyulmuş bütün vəzifələri yerinə yetirmək qüdrətinə malik ordu quruldu. Azərbaycan hakimiyyəti qısa zamanda, çevik şəkildə bütün resurslarını səfərbər etmək və vahid məqsədə istiqamətləndirmək bacarığına malikdir. Ən əsası isə ölkəmizdə xalq-iqtidar birliyi, milli həmrəylik təmin olunub. Bütün bunlar qələbənin rəhnidir. Birinci Qarabağ müharibəsində ona görə qalib gələ bilməmişdik ki, o vaxt bunların heç biri yox idi. İkinci Qarabağ müharibəsində isə Azərbaycan xalqı bu amillər hesabına Zəfər qazandı. Eyni zamanda 44 günlük Vətən müharibəsi xalqa cəmiyyəti vahid amal uğrunda səfərbər etmək bacarığına malik qətiyyətli liderin rəhbərlik etməsinin belə kritik məqamlarda xüsusilə necə taleyüklü məsələ olduğunu bir daha göstərdi. Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsi zamanı aparılan hərbi əməliyyatlara şəxsən rəhbərlik edirdi, bütün məsələləri dəqiqəbədəqiqə və ən xırda detallarına kimi nəzarətdə saxlayırdı, müvafiq tapşırıqlarını verirdi. Bütün bunlar haqqında bir çox təfərrüatlar hələ indi açıqlanır. Müharibənin gedişində isə ölkə başçısı, eyni zamanda dünyanı bu müharibə ətrafındakı gerçəklər haqqında ətraflı məlumatlandırır, xalqla müxtəlif kanallar üzərindən sıx kommunikasiya qururdu. Dövlət rəhbərimizin müharibə dövründəki çıxışları, təmkinli davranışı, xalqı və ordunu qələbəyə ruhlandırmaq əzmi, inam yaratması Zəfərin əldə olunmasında çox böyük rol oynadı.

## Döyüş iki cəbhədə gedirdi

Azərbaycan düşmənin əl atdığı heç bir təxribata uymadı. Azğın qonşumuzun qurduğu məkrli oyunlardan məharətlə yayındı. Hərbi əməliyyatlar zamanı humanitar hüququn tələblərinə riayət etdi. Müharibənin və coğrafi mühitin çətinliklərinə baxmayaraq, itkiləri də minimallaşdırmağı bacardı. Hərçənd ki, 44 gün ərzində Ermənistan silahlı qüvvələri cəbhəboyu ərazilərdə yerləşən rayon və şəhərlərimizi - Ağdamı, Ağcabədini, Beyləqanı, Daşkəsəni, Füzulini, Goranboyu, Tərtəri ağır silahlardan intensiv atəşə tuturdu. Hətta cəbhə bölgəsindən xeyli uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən, Xızı və digər şəhərlərimiz də artilleriya atəşinə məruz qalırdı. Ermənistanın bu hərbi cinayətləri nəticəsində 100-dən çox dinc sakinimiz, o cümlədən 11 uşaq qətlə yetirildi. 450 nəfərdən çox sakin yaralandı. Azərbaycan ərazisində 12 min mülki infrastruktur obyekti, o cümlədən fərdi evlər dağıdıldı və onlara ciddi zərər dəydi. Yalnız Tərtər şəhərinə 16 mindən çox mərmi atıldı.

Amma bütün bu itkilərə baxmayaraq, vətəndaşlarımız Ali Baş Komandanı, Ordumuzu bir an da olsun dayanmamağa, düşməni torpaqlarımızdan qovmağa, şəhidlərimizin qanını döyüş meydanlarında almağa çağırırdılar. Ermənistanın heç bir beynəlxalq norma tanımayan azğınlığına, mülki əhaliyə qarşı törətdiyi ağır hərbi cinayətlərə rəğmən Azərbaycan Vətən müharibəsi döyüşlərində heç zaman mülki əhalini, yaşayış obyektlərini hədəfə almadı. Prezident İlham Əliyev müsahibəsində bu məsələyə toxunaraq dedi: *“Onlar fikirləşirdilər ki, zərər çəkmiş insanlar öz ölkəsinin hakimiyyətindən hərbi əməliyyatların dayandırılmasını tələb edəcəklər, onların niyyəti belə idi. Lakin onlar yanılırdılar. Onlar ordunun döyüş qabiliyyəti və Azərbaycan xalqının mənəvi ruhu baxımından bizi lazımınca qiymətləndirmirdilər. Yaxınlarını itirmiş, özləri uçqunların altından güclə çıxmış insanlar deyirdilər ki, yalnız irəli gedin. Mən çoxlu sayda müraciətlər, məktublar alırdım, yazırdılar ki, biz ölməyə hazırıq, lakin öz torpaqlarımızı qaytarmalıyıq. Ermənilərin bu niyyəti də baş tutmadı”.*

Azərbaycan Prezidenti İlham Əliyevin müsahibəsində toxunduğu təfərrüatlardan aydınlaşır ki, Hadrut əməliyyatı və müzəffər Ordumuzun bu ərazini azad etməsi döyüşlərin ilk mərhələsində düşmən üçün ən böyük sarsıntı olub. Ondan əvvəl ilk şəhər kimi Cəbrayılın, sonra Füzulinin azad edilməsi ordumuzun döyüş ruhunu, xalqımızın qələbə əzmini daha da yüksəldib. Soltanlı və Əmirvarlı yaşayış məntəqələrində düşmən axıra qədər müqavimət göstərib, amma buna baxmayaraq, onların güclü müdafiə xətləri sıradan çıxarılıb. Beləliklə, Zəngilana yolun açılması və növbəti dövrdə ordunun irəliləməsi üçün əlverişli şərait yaradılıb. Qubadlının azad olunması və Laçın rayonunun cənubuna çıxış Laçın dəhlizinə nəzarətin təmin edilməsinə kömək göstərib. Şuşa əməliyyatı isə, təbii ki, Vətən müharibəsinin tacıdır. Bu əməliyyatın uğurla həyata keçirilməsi üçün bütün maddi və mənəvi resurslar səfərbər olunub. Azərbaycan Ordusu, əsgər və zabitlərimiz Şuşa döyüşlərində əsl hərbi ustalıq və qəhrəmanlıq nümunəsi göstəriblər. Şuşada düşmənin son müqaviməti də sındırılıb və işğalçının təslim olmaqdan başqa əlacı qalmayıb.

Vətən müharibəsindəki qələbə bütün əsgər və zabitlərimizin fədakarlığının, yüksək döyüş qabiliyyətinin nəticəsidir. Xüsusi təyinatlı hərbi hissələrin rolu isə burada xüsusi vurğulanmalıdır.

Vətən müharibəsi günlərində Prezident İlham Əliyev iki cəbhədə döyüşürdü. Bir tərəfdən Sərkərdə kimi Ordumuzun gündəlik hərbi əməliyyatlarını idarə edir, digər tərəfdən isə diplomatiya cəbhəsində vuruşurdu. Dövlət başçısı müharibənin yaratdığı imkanlardan diplomatik meydanda da məharətlə istifadə edirdi. İnformasiya savaşını da yüksək strateq məharəti ilə qura bilirdi. Müharibəni işıqlandırmaqda maraqlı olan nüfuzlu media vasitələri ilə tarixi həqiqətləri sübutlar, faktlar əsasında dünya ictimaiyyətinə çatdırırdı. Hərbi əməliyyatların gedişində dövlət rəhbəri İlham Əliyevin dünyanın aparıcı media orqanlarına 30-a yaxın müsahibəsi, bu müsahibələrdəki diplomatik gedişlər, natiqlik, məlumatlılıq, dəmir məntiq əsl ustad dərsləridir.

## XXI əsrin müharibəsi

Dövlət rəhbərimiz müharibəyə qədər də ali beynəlxalq tribunalardan Ermənistanın işğalçılıq siyasətini ifşa edirdi. Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırırdı. Prezident İlham Əliyevin Ermənistanın Baş naziri ilə debatlarda dəqiq, dəmir məntiqlə Azərbaycanın mövqeyini çatdırması, müasir diplomatiyanın ən bariz nümunəsini təqdim etməsi Qələbəyə doğru möhtəşəm addım idi. Azərbaycan Prezidentinin parlaq şəxsiyyəti, yüksək siyasi-diplomatik hazırlığı fonunda Ermənistanın baş naziri özünü itirir, olduqca zəif görünürdü. O, ciddi siyasi səhvlərə yol verir, özünün də, xalqının da iflas durumunu sərgiləyirdi. Bunu izləyən hər kəs iki xalq, iki dövlət, iki ordu arasındakı fərqləri də görə bilirdi.

Prezident İlham Əliyev Ermənistanın onilliklərlə beynəlxalq ictimaiyyəti zəhərləyən təbliğatını darmadağın etdi. Kimin işğalçı, kimin işğala məruz qalan tərəf olmasının fakt və sübutlarla aydın mənzərəsini yaratdı. Erməni təbliğatının Azərbaycan haqqında beynəlxalq ictimaiyyətdə illərdir yaratdığı yanlış təsəvvürləri ortadan götürdü. ABŞ, Almaniya, Fransa və Avropanın erməni lobbisinin təsiri altında olan və Azərbaycana qarşı ədalətsiz, qərəzli kampaniyanın fəal iştirakçısına çevrilmiş bir çox media qurumlarının və təşkilatlarının layiqli cavabını verdi.

Azərbaycan ən müasir silahlarla təchiz edilmiş ordusu, yüksək peşəkarlıqla tərtib və idarə olunan hərbi əməliyyatlarla XXI əsrin müharibəsini apardı, dünyanın hərbi tədris mərkəzləri üçün hələ bundan sonra da illərlə öyrəniləcək nümunələr formalaşdırdı. Hərbi əməliyyatların uğurla həyata keçirilməsində pilotsuz uçuş aparatlarının tətbiqi böyük rol oynadı. Müxtəlif ölkələrin istehsalı olan və fərqli təyinatlı uçuş aparatlarının istifadəsi sinxronlaşdırıldı, digər ordu növlərinin fəaliyyəti ilə uyğunlaşdırıldı. Bütün bunlar təbii ki, yüksək istedad, səriştə tələb edən məsələlərdir. Müasir texnologiyalardan və silahlardan istifadə Azərbaycan Ordusunda itkiləri minimuma endirdi. Düşmənin texnikası və müdafiə sistemləri dronlar vasitəsilə məhv edildi, çoxlu sayda düşmən texnikası qənimət götürüldü. Azərbaycanın müasir texnologiyalar və silahlardan istifadə etməsi qarşı tərəfdən dinc əhalinin həlak olmasına da imkan vermədi. Beləliklə, Vətən savaşı Azərbaycanın müharibəni də ədalətlə, xalqımıza xas ləyaqətlə apardığını, Ermənistanın isə iyrənc məqsədə çatmaq üçün ən alçaq və rəzil üsullardan istifadə etdiyini aydın göstərdi.

Prezident İlham Əliyev müsahibəsində onu da bəyan etdi ki, Azərbaycan bütün imkanlardan istifadə edərək hərbi cinayətkarların məsuliyyətə cəlb olunmasına çalışacaq. Bildirdi ki, Azərbaycan həm də işğal dövründə vurulmuş ziyanın hesablanması istiqamətində iş aparır, bu məsələyə beynəlxalq hüquqi şirkətlər də cəlb olunub.

## Gələcək Azərbaycandan başlanır

Döyüş meydanında göstərilən əzmkarlıq, liderlik iradəsi bu gün azad torpaqlarımızda aparılan bərpa-quruculuq işləri ilə davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə düşməndən təmizlənmiş ərazilərimiz sürətlə yenidən qurulur, dirçəldilir, bu torpaqlara həyat gətirilir. Bu ilin sonuna qədər işğaldan azad edilmiş ərazilərimiz elektrik enerjisi ilə təmin olunacaq. Bütün istiqamətlərdə avtomobil yolları salınacaq. Artıq “ağıllı kənd”, “ağıllı şəhər” konsepti tətbiq edilir. Tezliklə Ağdam və Şuşa dünyanın tarixilik və müasirlik harmoniyasını yaradan ən gözəl, abad şəhərlərindən olacaq.

Xalqımızın milli-mədəni irsinin qorunub saxlanmasında böyük rol oynayan Heydər Əliyev Fondu quruculuq işlərində, azad torpaqlarımızın mədəni-mənəvi dünyasının bərpasında yaxından iştirak edir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Vaqifin Şuşadakı məqbərəsinin bərpası, Şuşada keçirilən “Xarıbülbül” festivalı, Vaqif poeziya günləri, işğaldan azad olunmuş ərazilərdə mədəni irsin bərpası artıq bu torpaqlarda insanlar üçün layiqli həyatın yenidən oyanışı, yeni bir başlanğıca doğru işıqlı yol deməkdir. Azərbaycan bu gün müharibənin yaralarını sağaldır.

Münaqişə artıq tarixdə qalıb. Ölkəmiz indi regionun inkişafında, təhlükəsizliyində, sülh və hüzur içində yaşamasında maraqlı olan hər kəsi gələcəyə, inkişafa yönəlməyə çağırır.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Qafqaz Müsəlmanları İdarəsində Anım Günü ilə əlaqədar tədbir keçirilib

Sentyabrın 29-da Qafqaz Müsəlmanları İdarəsində (QMİ) 27 sentyabr - Anım Günü ilə əlaqədar tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə Vətən uğrunda canlarını qurban verən qəhrəman şəhidlərimizin ruhuna dualar oxunub. Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə deyib ki, bu günlərdə xalqımız öz tarixinin ən möhtəşəm həyəcanını və qürurunu - Zəfər yolunun başlanğıcı sayılan 27 sentyabr - Anım Gününü qeyd edib. 44 gün davam edən savaş düşmənin tam təslim olması ilə Azərbaycan Ordusunun şanlı Zəfəri kimi tarixə yazıldı. Noyabrın 8-də Ermənistanın 30 illik işğalçılıq siyasətinə son nöqtə qoyuldu. Azərbaycan öz əzəli torpaqlarında Ulu Öndər Heydər Əliyevin "Dövlətçiliyimizin və müstəqilliyimizin rəmzi" adlandırdığı üçrəngli bayrağını ucaltdı. Biz fəxr edirik ki, bu Qələbənin müəllifi və sərkərdəsi Azərbaycan xalqının böyük oğlu, adı tarixin qızıl səhifəsinə yazılan Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Bu 44 gün ərzində onun əzmi, qətiyyəti, mərdliyi, cəsarəti hər kəsə - Ordumuzun əsgərlərinə, xalqımızın övladlarına, dinindən və dilindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına unudulmaz anlar yaşatdı, Azərbaycanın dostlarına da, düşmənlərinə də siyasi Liderimizin qüdrətini, dəmir yumruq kimi birləşən xalq-dövlət birliyini nümayiş etdirdi. Bu mübarək günləri xalqımıza, bütün dindarlara yaşatdığı üçün Uca Yaradana şükr-səna edirik, çünki "Qurani-Kərim"də buyurulan ayeyi-şərif bizlərə nəsib oldu. Bizim üçün çox çətin və məsuliyyətli bir tarixi dönəmdə göstərilən qardaş sevgisi, uzadılan dost əli və arxalandığımız xalq dəstəyinə görə xüsusilə Türkiyə dövlətinə, haqq işimizi müdafiə edən qardaş və dost ölkələrə, bütün tərəqqipərvər ictimaiyyətə minnətdarlığımızı bildiririk. Bizi 27 Sentyabra aparan səbəblərin nə qədər ciddi həqiqətlər olduğunu dünya ictimaiyyəti yaxşı bilir. Otuz ildən çox müddətdə Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğalı, Xocalı şəhərində mülki əhalinin qətliamı, milyondan çox soydaşımızın məcburi köçkün həyatı, zəbt olunmuş ərazilərimizdə məscid və qəbiristanlıqların məhv edilməsi və sırası bitməyən erməni terror təxribatları sonunda layiqli cavabını almalı idi. Qarabağ bölgəsindəki yarıdağılmış məscidlərdə haram buyurulan heyvanların saxlanılması, qəbirlərdən cəsədlərin sümüklərinin oğurlanması, viran qalmış evlər, yandırılmış meşələr, minalanmış ərazilər - erməni vandalizmini sözlə ifadə etmək yetməz, bunu biz Ağdama və Şuşaya səfərlərimiz zamanı görmüşük. Üstəlik, Ermənistan silahlı qüvvələri qadağan olunmuş silah və bombalarla təmas xəttindən uzaqda yerləşən Gəncə, Mingəçevir, Bərdə, Tərtər, Goranboy, Xızı şəhərlərini atəşə tutur, yüzlərlə günahsız insanın, uşaq, qadın və qocaların ölümünə səbəb olur, mülki məntəqələrə zərbələr endirirdi. Bu cinayətlərinə görə Allahın izni ilə 27 sentyabrdan başlanan və 44 gün davam edən savaş Ermənistanın məğlubiyyəti ilə Azərbaycan Ordusunun şanlı Zəfəri kimi tarixə yazılmalı idi. Müxtəlif xalqlara mənsub olan Azərbaycan vətəndaşları - ruslar, yəhudilər və digər xalqların nümayəndələri Allah yolunda, Vətənin azadlığı uğrunda canlarını fəda etdilər. Onların hər birinin boynumuzda haqları vardır, bu gün bizim bura cəm olmağımızın da əsas səbəbi Vətən uğrunda şəhid olanlarımızı rəhmət duaları ilə yad etmək, ailələrinə, yaxınlarına başsağlığı vermək, qazilərimizə, yaralılarımıza Allah-Təaladan şəfaət və səadət diləməkdir.

QMİ sədri qeyd edib ki, bu günlər həm də islam tarixində şəhidlik məktəbinin ali nümayəndəsi İmam Hüseyn əleyhissalamın vəfatının, Kərbəla şəhidlərinin Ərbəin təziyələri günləridir. Şəhidlərimizin anım günlərinin belə bir tarixə təsadüf etməsinin özündə də bir hikmət vardır. Bizim əqidəmizə görə, şəhidlik məqamına ucalan şəxslər həm Allahın razılığını, həm də Rəsullulahın (s) məhəbbətini qazanan bəxtiyar insanlardır, çünki şəhadətləri ilə Haqqın zəfərinə, mənəvi qələbəyə nail olublar. Şəhadət Azərbaycanın milli azadlıq tarixinin əsasını təşkil edir. Şəhidlik məqamının ucalığını yaxşı dərk edən Azərbaycan dövləti şəhidlərə hər zaman böyük dəyər verir. Prezident İlham Əliyevin şəhidlərə yüksək fəxri adlar verməsi, həmçinin Prezidentimizin silahdaşı, siyasi və ictimai xadim, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid və qazi ailələrinə, yaralı hərbçilərə maddi-mənəvi dəstəyi, sosial yardım proqramlarına rəhbərliyi vətəndaşlarımız tərəfindən yüksək qiymətləndirilir, dindarlarımızın xeyir-duaları ilə qarşılanır. Dövlət başçısının bu günlərdə təməlini qoyduğu möhtəşəm Vətən müharibəsi Memorial Kompleksi və Zəfər muzeyi qəhrəman şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə layiqli töhfə və dəyərli abidədir.

Qeyd etmək istərdim ki, Birinci və İkinci Qarabağ savaşlarında Qafqaz Müsəlmanları İdarəsinin din xadimləri, qazıları, imamları, hətta sıravi işçiləri də iştirak ediblər. Şəhidlik məqamına yüksələnlər sırasında çoxlu sayda dindarlarımız, Quran hafizlərimiz, islam kolleclərinin tələbələri vardır. Bu müddətdə din xadimlərimiz müharibənin ən yaralı, ən ağır işlərini - şəhidlərin dəfn xidmətini ləyaqətlə yerinə yetiriblər, şəhid ailələrinə mənəvi dəstək olublar və mən bu əvəzedilməz zəhmətlərinə görə onlara Allahdan əcr diləyirəm.

"Qafqaz Müsəlmanları İdarəsi bütün məscidlərə, səlahiyyətli nümayəndələrinə, qazı və imamlara müvafiq tapşırıqlarını verir. 8 Noyabr - Zəfər gününədək ölkəmizin bütün məscidlərində əziz şəhidlərimizin xatirəsi yüksək ehtiramla yad edilməli, mübarək ruhları anılmalı, Uca Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə tezliklə şəfaət dilənməlidir. Bu dövr ərzində 44 günlük Vətən müharibəmizdə Müzəffər Ali Baş Komandanımızın qalib siyasi iradəsi, mahir sərkərdəliyi ilə, xalq-dövlət, xalq-ordu birliyi sayəsində rəşadətli Silahlı Qüvvələrimizin qazandığı misilsiz Zəfər, tarixi Qələbə, qəhrəman şəhidlərimizin igidliyi, cəsur əsgər və zabitlərimizin yenilməz əzmi təbliğ edilməli və gənc nəslə örnək olaraq təşviq olunmalıdır, vətənpərvərlik, Vətən sevgisi, müqəddəs Vətən torpağına bağlılıq mövzusunda xütbələr oxunmalı, moizələr edilməlidir. Şəhidliyə yüksəlmiş Vətən övladlarının unudulmaz xatirələri onların uca məqamına layiqli şəkildə yad edilməli, şəhid ailələri diqqət və qayğı ilə əhatə olunmalıdır.

Bu gün biz gələcəyə böyük inam və ümidlə baxırıq. Bu ruh yüksəkliyinin əsas mənbəyi dövlət başçısı İlham Əliyevin tutduğu prinsipial və qətiyyətli mövqedir. Məhz bu mövqe nəticəsində ordumuz işğala son qoymuş və düşmən qarşısında misilsiz üstünlük əldə edib. Qələbə daim dindarlarımızın dualarında olmuşdur. Bu Qələbəni bizə bəxş edən şərafətli şəhidlərimizin anaları başlarını dik tutsunlar, biz onların Allahın cənnətinə, Peyğəmbərin məqamına yüksələn övladları ilə daim fəxr edirik, qürur duyuruq. Çünki Kitabımızda buyurulduğu kimi, "Allah yolunda şəhid olanları əsla ölü zənn etməyin! Əksinə, onlar diridirlər və onlara Rəbbinin cənnət ruzilərindən əta olunur" (Ali-İmran, 169). Allah Azərbaycanımızı qorusun, bütün şəhidlərimizə rəhmət eləsin, məqamları uca olsun", - deyə Şeyxülislam Allahşükür Paşazadə qeyd edib.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini müfti Salman Musayev deyib ki, 44 günlük Vətən müharibəsində böyük Qələbə qazanmışıq. Lakin düşmən yenə də susmur, azad etdiyimiz torpaqları "öz ərazilərinin işğalı kimi" qələmə verməyə çalışırlar. Buna görə biz bu məsələni daim diqqətdə saxlamalı, bu sahədə də öz mübarizəmizi davam etdirməliyik. Beynəlxalq ictimaiyyətə Azərbaycan həqiqətlərini çatdırmalıyıq.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib ki, ermənilər bütün dünyaya Azərbaycanla bağlı yalan məlumatlar yaymağa çalışırdılar. Biz 44 günlük mübarizədə təkcə torpaqlarımızı azad etmədik. Biz, eyni zamanda, bütün dünyaya göstərdik ki, döyüşkən xalq necə olur. Biz bütün dünyaya sübut etdik ki, Vətənimiz üçün canımızdan da keçməyi bacarırıq. Ermənilər bütün dünyaya bizim imanlı xalq olmadığımızla bağlı yanlış məlumatlar yaymağa çalışırdılar. Lakin 44 günlük mübarizədə çox sayda dindarımız şəhid ailələri ilə birgə oldular, onların dərdinə şərik çıxdılar. Onlar bu mübarizədə təkcə dindar olmadılar, həmçinin Vətən övladı oldular. Din xadimlərimiz necə ki, daim dövlətimizin yanında olublar, əminəm ki, bu, bundan sonra da davam edəcək.

Bakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih Yevdayev, Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete və digər çıxış edənlər şəhidliyin ən uca zirvə olduğunu bildiriblər. Qeyd edilib ki, belə ucalığa yüksələn, bu şərəfli adı daşıyanların xatirəsi daim yaşayıb, yaşayır və nəsillər dəyişdikcə də yaşayacaq. Vətənimizin müstəqilliyi, işğal altında olan torpaqlarımızın azad olunması naminə ölümü gözə alan gənclərimiz bu müqəddəs amal uğrunda şəhid olursa, bu, xalqımızın böyüklüyüdür. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Azərbaycan xalqı qəhrəman xalqdır. Bunu 44 günlük Vətən müharibəsi bir daha sübut etdi. Şəhidlər ölməz, unudulmazlar. İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər. Şəhidlərin davamçısı varsa, xatirələri hər yerdə anılırsa, deməli, onlar ürəklərdə daim yaşayırlar.

## Azərbaycandakı dini konfessiyaların rəhbərləri 27 Sentyabr - Anım Günü ilə əlaqədar bəyanat yayıblar

Sentyabrın 29-da Qafqaz Müsəlmanları İdarəsində (QMİ) 27 Sentyabr - Anım Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Azərbaycandakı dini konfessiyaların rəhbərləri bəyanat yayıblar. AZƏRTAC bəyanatı təqdim edir.

Azərbaycan xalqının tarixinə əbədi həkk olunan 2020-ci il 27 sentyabr tarixinin ilk ildönümünü qeyd edirik. Bu tarix təkcə bizim üçün deyil, bütün bəşəriyyət üçün Haqq və Ədalətin təcəllisi günü, böyük Zəfər yolunun başlanğıc nöqtəsi kimi yaddaşlarda əbədi qalacaqdır. Bizim xalqımız bu Anım Gününü Vətən uğrunda qəhrəmanlıq və şəhadətin şərəf salnaməsi kimi daima yaşadacaqdır.

Biz fəxr edirik ki, bu Qələbənin müəllifi və sərkərdəsi Azərbaycan xalqının böyük oğlu, adı tariximizə Qarabağ Fatehi kimi daxil olmuş Zati-aliləri Ali Baş Komandan İlham Əliyevdir. Vətən müharibəsi ərzində onun liderlik əzmi, qətiyyətli siyasəti, mərdliyi, cəsarəti hər kəsə - Ordumuzun əsgərinə, xalqımızın övladlarına, dinindən və millətindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarına unudulmaz anlar yaşatdı. Dünya ictimaiyyəti Azərbaycanın siyasi liderinin qüdrətinin və ölkəmizdəki sarsılmaz xalq-iqtidar birliyinin şahidi oldu. Tarixi Azərbaycan şəhəri Şuşa qəhrəmancasına işğaldan azad olunaraq öz əsl sahibinə qaytarıldı. Azərbaycan Prezidenti İlham Əliyev və qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları tarixi əhəmiyyətli Şuşa Bəyannaməsi regionumuzda yeni geosiyasi vəziyyət yaratdı.

Bu gün biz Azərbaycan dövlətinin gələcəyinə böyük inam və ümidlə baxırıq. Bu ruh yüksəkliyinin əsas mənbəyi dövlət başçısı İlham Əliyevin prinsipial və qətiyyətli mövqeyi, ölkəmizdə aparılan genişmiqyaslı quruculuq işləri, xalqın rifahına yönələn sosial-iqtisadi proqramların gerçəkləşməsində Prezidentimizin silahdaşı, siyasi və ictimai xadim, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təqdirəlayiq roludur. Mehriban xanımın şəhid və qazi ailələrinə, yaralı hərbçilərə nəcib şəfqətli münasibəti, maddi-mənəvi dəstəyi və sosial yardım proqramlarına rəhbərliyi vətəndaşlarımız tərəfindən yüksək qiymətləndirilir, dindarlarımızın xeyir-duaları ilə qarşılanır.

Dünya ictimaiyyəti yaxşı bilir ki, bizi 27 sentyabra aparan səbəblər son dərəcə ciddi və danılmaz həqiqətlərdir. Təqribən 30 il ərzində Ermənistan ölkəmizin ərazisinin 20 faizini işğal altında saxlayırdı. İşğal müharibə və insanlıq əleyhinə cinayətlərlə müşayiət olunub. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etməyən Ermənistan cəzasızlıqdan ruhlanaraq işğalın davam etdirilməsi yolunu seçdi, qəsdən danışıqlar prosesini pozdu. 2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədi boyu hərbi təxribat törətdi. Azərbaycanın Tovuz rayonu istiqamətində açılmış artilleriya atəşi nəticəsində 13 hərbçi və mülki vətəndaş həlak oldu, daha sonra avqust ayında Ermənistanın diversiya qrupu keçmiş təmas xəttini keçərək Azərbaycan hərbçilərinə və mülki şəxslərə qarşı terror aktları törətməyə cəhd etdi, lakin bunun qarşısı uğurla alındı. Ermənistanın Azərbaycanın hərbi mövqelərinə və mülki şəxslərinə qarşı irimiqyaslı hücumuna cavab olaraq, sentyabrın 27-də Azərbaycan BMT Nizamnaməsində təsbit edilmiş özünümüdafiə hüququndan istifadə edərək öz ərazisində Ermənistana qarşı əks-hücum əməliyyatına başladı.

Qırx dörd gün ərzində Ermənistan silahlı qüvvələri cəbhəboyu ərazilərdə yerləşən rayonlarımızı və şəhərlərimizi - Ağdam, Ağcabədi, Beyləqan, Daşkəsən, Füzuli, Goranboy, Tərtəri intensiv şəkildə atəşə tuturdu. Zəbt olunmuş ərazilərimizdə müsəlman və xristian məbədlərini dağıdan, müharibə qanunlarını, beynəlxalq hüquq normalarını, Cenevrə Konvensiyasının müvafiq müddəalarını pozan Ermənistan silahlı qüvvələri qadağan olunmuş silah və bombalarla təmas xəttindən, həmçinin cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən, Xızı və digər şəhərləri də atəşə tutur, yüzlərlə günahsız insanın, uşaq, qadın və qocaların ölümünə səbəb olur, mülki məntəqələrə zərbələr endirirdi, hətta paytaxt Bakı da Ermənistanın raket hücumlarının hədəfi idi. İşğal dövründə ərazilərimizin minalanması səbəbindən bugünədək mülki əhali və hərbçilər həlak olur və xəsarət alırlar.

Sentyabrın 27-dən başlanan və 44 gün davam edən savaş Ermənistanın məğlubiyyəti ilə Azərbaycan Ordusunun şanlı Zəfəri kimi tarixə yazıldı. Azərbaycan BMT qətnamələrinin icrasını özü təmin etdi, 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi.

Həsrətində olduğumuz Qarabağın azadlığı naminə övladlarımız Allah yolunda, Vətən və millətin azadlığı uğrunda canlarını fəda etdilər, qanları ilə qazandıqları Qələbəni Azərbaycan xalqına əmanət etdilər. Qarabağın azad olunması uğrunda, Vətən müharibəsi dövründə Azərbaycanda ənənəvi olaraq mövcud olan tolerantlıq və multikultural dəyərlərə istinadən bütün vətəndaşlarımız Azərbaycanın dövlət başçısı Prezident İlham Əliyevin ətrafında daha sıx birləşərək Vətənə sadiqliklərini nümayiş etdirdilər. Polad Həşimov, Mübariz İbrahimov, Albert Aqarunov, Denis Pronin, Yuri Kovalyov, Ruslan Polovinko, Sergey Senyuşkin və b. kimi yüzlərlə qəhrəmanımız doğma Azərbaycan üçün şəhidlik zirvəsinə ucaldılar. Onların əziz xatirəsi əbədi olaraq yaddaşlarda yaşayacaqdır. Biz ölkəmizin suverenliyi və ərazi bütövlüyü naminə canından keçən hər bir şəhidimizə Allahdan rəhmət, qazilərimizə şəfalar diləyirik.

Tariximizin çox mürəkkəb və məsuliyyətli dönəmində bizi dəstəkləyən qardaş və dost ölkələrə, dini təşkilatlara və beynəlxalq qurumlara minnətdarlığımızı bildiririk. Fəqət təəssüflə qeyd etməliyik ki, illər boyu Ermənistan dövlətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətləri, mədəni-mənəvi irsimizə qarşı vandalizm faktlarını ört-basdır etmək istəyən qüvvələr bu gün də ikili standartlarla erməni terrorizminə və azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə siyasətinə haqq qazandırmaq üçün səy göstərirlər. Ermənistanı bir daha işğalçı, revanşist, millətçi, separatçı siyasətindən əl çəkməyə çağırırıq. Erməni Kilsəsini təxribatçı, qisasçı müharibəyə səsləyən çağırışlara son qoymağa, sülh üçün səy göstərməyə dəvət edirik - bu, Bir Olan Yaradanımızın buyurduğu müqəddəs dəyərlərə ən uyğun yoldur.

Biz din xadimlərinin əsas məqsədi - gələcəkdə baş verə biləcək müharibələrin, günahsız insan tələfatının, terror aktları və münaqişələrin qarşısını almaq üçün tarixin dərslərini xatırlatmaqdır. Bu niyyətlə, təqvimimizə böyük Zəfər yolunun başlanğıcı kimi yazılan 27 Sentyabr - Anım Günündə qəhrəman şəhidlərimizə Ulu Yaradandan rəhmət diləyirik. Uca Rəbbimiz Azərbaycan dövləti və xalqını hifz etsin, hər zaman müzəffər qərar versin!

***Qafqaz Müsəlmanları İdarəsinin sədri***
***Şeyxülislam Allahşükür Paşazadə***

***Dağ Yəhudiləri Dini İcmasının sədri***
***Melih Yevdayev***

***Avropa Yəhudiləri Dini İcmasının sədri***
***Aleksandr Şarovski***

***Rus Pravoslav Kilsəsinin***
***Bakı və Azərbaycan Yeparxiyasının katibi***
***Protoiyerey Mefodiy Əfəndiyev***

***Alban-udi Dini İcmasının sədri***
***Robert Mobili***

## ZƏFƏR gündəliyi

### 30 sentyabr

İşğal olunmuş torpaqlarımızın azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edir.

Müdafiə Nazirliyi məlumat yayaraq bildirir ki, sentyabrın 27-dən 30-dək düşmənin 2300 nəfərədək canlı qüvvəsi məhv edilib və yaralanıb, 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dək hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri, 5 silah-sursat anbarı, 50-dək tankəleyhinə vasitələr, 55 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.



❖❖❖

Cəbhənin Cəbrayıl rayonu istiqamətində düşmənin döyüş texnikaları bölmələrimiz tərəfindən məhv edilir.

Səhər saat 08:00-dan etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutur. Mülki infrastruktura ziyan dəyir və yaralanalar olur.

Düşmənin artilleriya bölmələri Goranboy rayonunun Aşağı Ağcakənd kəndini də atəşə tutmağa başlayır.



❖❖❖

Xocalı rayonunun Şuşakənd ərazisində düşmənin 1 "S-300" zenit-raket qurğusu sıradan çıxarılır.

❖❖❖

İtirilmiş mövqeləri geri qaytarmaq üçün Suqovuşan istiqamətinə əlavə qüvvələr cəmləşdirən düşmən səhər saatlarından başlayaraq hücuma cəhd göstərir. Düşmənin bu fəaliyyətinin qarşısı alınır və onun müqavimətinin qırılması məqsədilə qoşunlarımız tərəfindən əks-həmlə əməliyyatı keçirilir.

❖❖❖



Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkirlər.

Hər bir yaralı əsgərin vəziyyəti ilə maraqlanan İlham Əliyev deyir ki, həkimlər onların tezliklə sağalıb normal həyata qayıtmaları üçün əllərindən gələni edəcəklər.

Yaralılar isə tezliklə sağalıb yenidən döyüş bölgəsinə getmək, Vətən uğrunda haqlı savaşlarını davam etdirmək niyyətində olduqlarını bildirirlər. Ali Baş Komandan isə bir daha vurğulayır ki, bu savaş tezliklə qələbəmizlə başa çatacaq: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar".

Baş sərkərdə döyüşlərin gedişatından da söz açaraq deyir ki, artıq dördüncü gün davam edən savaşda Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik.

❖❖❖

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Prezident İlham Əliyevə telefonla zəng edir.

Təmas xəttində hərbi əməliyyatların başlamasından narahatlığını ifadə edən Şarl Mişel münaqişənin sülh yolu ilə nizamlanmasının zəruri olduğunu bildirir.

İlham Əliyev isə bir daha əsl həqiqətləri söyləyir və işğalçının hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyətin Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşdüyünü bildirir.

❖❖❖

Müdafiə Nazirliyi döyüşlərə qatılmaq istəyən könüllülərə müraciət edir. Müraciətdə bildirilir ki, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Azərbaycan Ordusunun düşmənə qarşı apardığı döyüşlərdə əldə etdiyi uğurlar xalqımızda döyüş ruhunun yüksəlməsinə səbəb olub. Azərbaycan əsgərinin uğurundan ruhlanan on minlərlə həmvətənimiz nazirliyə müraciət edərək ordumuzla birlikdə könüllü olaraq döyüşlərə qatılmaq istədiyini bildiriblər.

Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan əsgərinə mənəvi dəstək olduqlarına görə təşəkkür edir və döyüşlərə qoşulmaqla şəxsi heyətin yanında olmaq istəyən hər kəsə dərin minnətdarlığını çatdırır. Bildirilir ki, könüllü döyüşlərə qatılmaq arzusunda olan döyüş və müharibə təcrübəsinə malik vətəndaşlarımız hərbi hissələrə deyil, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etsinlər.

❖❖❖

Bölmələrimizin mövqelərini atəşə tutan düşmən topları dəqiq atəşlə məhv edilir.

Qoşunlarımızın zərbələrinə məruz qalan Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taboru ağır itkilərə məruz qaldığından komandanlıqdan təcili surətdə kömək istəyir. Köməyə gələn ehtiyat qüvvələr tərəfimizdən aşkar olunaraq atəş zərbəsi ilə darmadağın edilir.

❖❖❖

Ermənistan silahlı qüvvələri "Toçka-U" taktiki raket kompleksini tətbiq edir.

❖❖❖

Son saatlarda cəbhənin müxtəlif istiqamətlərində düşmənin 1 ədəd "Uraqan" yaylım atəşli reaktiv sistemi, 1 ədəd "OSA" zenit-raket kompleksi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd piyadanın döyüş maşını və 2 ədəd D-20 haubitsa-topu məhv edilir.

Azərbaycan Ordusunun bölmələri tərəfindən saat 17:30-dək düşmənin 2 ədəd "OSA-AKM" zenit-raket kompleksinin döyüş maşını, 1 ədəd BM-21 "Uraqan" yaylım atəşli reaktiv sistemi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 4 ədəd "D-20" haubitsa-topu, 16 ədəd tank, 1 ədəd piyadanın döyüş maşını və şəxsi heyətlə 2 ədəd yük maşını məhv edilir və sıradan çıxarılır.



❖❖❖

Suqovuşan istiqamətində gedən döyüşlər zamanı Ermənistan ordusunun darmadağın edilən 6-cı dağ atıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilir.

❖❖❖



Axşam saatlarında keçirilən döyüş əməliyyatları nəticəsində düşmənin 8 ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





## Müzəffər Sərkərdənin qüdrətli Ordusu







# Anım günü ilə əlaqədar bölgələrdə də tədbirlər keçirilmişdir

### Gəncə

Gəncə Dövlət Universitetində Vətən müharibəsi qaziləri ilə görüş keçirilmişdir.

Görüşü giriş sözü ilə universitetin rektoru, professor Yusif Yusibov açaraq torpaqlarımızın düşməndən azad edilməsində əsl qəhrəmanlıq göstərən şəhid övladıarımızın xatirəsinə ehtiramını bildirmiş və diqqətə çatdırmışdır ki, bu qələbədə qazilərin də böyük xidmətləri olmuşdur. Onlar əsl vətənpərvərlik nümayiş etdirərək 30 il işğal altında olan torpaqlarımızın cəmi 44 gün ərzində yağı düşməndən azad edilməsində böyük fədakarlıq göstərmişlər.

Qeyd olunmuşdur ki, Vətən müharibəsində universitetin 33 məzunu və tələbəsi iştirak etmişdir. Məzunların 6-sı qazidir. Onlar universitetdə işlə təmin edilmişlər. Sinələrini Kəlbəcərin, Cəbrayılın, Qubadlının, Laçının azad olunmasına görə medalları bəzəyən qazilərin sosial-məişət məsələləri diqqət mərkəzində saxlanılır və operativ həll olunur.

Vətən müharibəsi qaziləri Orxan Əliyev, Arzu Namazov, Murad Rüstəmov, İsmət Budaqov, Amin Mustafayev və Nicat Məmmədov çıxış edərək onlara göstərilən diqqətə görə minnətdarlıqlarını bildirmişlər.

Sonda qazilərin arzu və təklifləri dinlənilmişdir.

❖ ❖ ❖

Gəncə şəhər, eləcə də Nizami və Kəpəz rayon icra hakimiyyətlərinin məsul işçiləri, aidiyyəti ictimai birliklərin nümayəndələri Anım günündə şəhid ailəlirini ziyarət etmişlər.

Ziyarətlər zamanı öz qanı, canı bahasına Vətən torpağını düşmən tapdağından azad edən igidlərimizin şərəfli döyüş yoluna nəzər salınmış, yaxınlarının onlarla bağlı xatirələri dinlənilmişdir. Şəhər rəsmiləri şəhidlərin ailə üzvlərinin sosial problemləri və gündəlik qayğıları ilə də maraqlanmışlar. Səsləndirilən müraciətlərin qısa zamanda həlli üçün müvafiq addımlar atılacağı onların diqqətinə çatdırılmışdır.

Gəncədə fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda, o cümlədən bir sıra iri sənaye müəssisələrində də “27 sentyabr - Anım günü” ilə əlaqədar şəhid ailələri ilə görüşlər keçirilmişdir.

Görüşlər zamanı qeyd olunmuşdir ki, milli həmrəyliyin, peşəkar rəhbərliyin, effektiv hərbi strategiyanın və Ordumuzun gücü düşməni kapitulyasiya aktına imza atmağa məcbur etmiş, Ermənistanın işğalçılıq siyasətinə son qoymuşdur. Ali Baş Komandanın rəhbrliyi ilə qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına dünya Azərbaycanın şanlı qələbəsinin şahidi olmuşdur.

### Sumqayıt

Velo-yürüşə başlamazdan öncə layihənin rəhbəri Əminə Abdullayeva layihə haqqında, Respublika Olimpiya Velosiped Məktəbinin direktor müavini Cavid Allahverdiyev isə veloməktəb haqqında məlumat vermişdir.

“Velo-şəhər: Ekoloji sağlam nəqliyyatın təbliği kampaniyası” adlı layihənin başlanğıc mərhələsi kimi keçirilən velo-yürüş Heydər Əliyev parkından start götürmüşdür. Yürüş şəhərin mərkəzi küçələrindən və Dəniz kənarı bulvardan keçməklə 10 kilometrə yaxın marşurutu əhatə etmişdir. Dənizkənarı bulvarda yekunlaşan velo-yürüşə Bakıdan və Sumayıtdan 100-ə yaxın həvəskar velosipedçi və KİV nümayəndələri qatılmışdılar.

Gənclər və İdman Nazirliyi, Respublika Velosiped Olimpiya Məktəbi, BMT-nin İnkişaf Proqramı (UNDP) və DIM üzrə gənc səfirlərin birgə əməkdaşlığı və Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə keçirilən layihənin əsas məqsədi şəhərin ekologiyasının mühafizəsi, eləcə də insanların sağlam həyat sürməsinin qayğısına qalmaq və yollarda təhlükəsizliyi təmin etmək məqsədilə əhali arasında uzunmüddətli maarifləndirmə aparmaqdır.

### Mingəçevir

Birbaşa cəbhə xəttində yerləşməsə də, müharibə günlərinin bütün həyacanını, ağrı və acılarını, sevinc və kədərini daha dərindən duyan şəhərlərimizdən biri də Mingəçevir oldu.

Mingəçevir də ordumuzun zəfər yürüşü qarşısında aciz qalaraq təxribatlara əl atan düşmənin hədəfinə çevrilmişdi. Azərbaycanın elektrik enerjisinə tələbatının 60 faizini təmin edən MIngəçevir savaş günlərində dəfələrlə düşmən raketlərinin yön aldığı istiqamət idi.

Cəbhəyə yollanan yüzlərlə mingəçevirli qəhrəmandan 50 nəfəri şəhid kimi qayıtdı doğma torpağına. İndi onların uyuduğu Şəhidlər Xiyabanı şəhər sakinlərinin müqəddəs ziyarətgahına çevrilib. Mingəçevirin demək olar hər küçəsi, hər döngəsi şəhid bulaqları, xatirə lövhələrində əks olunmuş qəhrəmanların nurlu simaları ilə bəzənibdir.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş şəhidlərin anılması üçün Mingəçevirdə silsilə tədbirlər həyata keçirilir. Bu tədbirlərdən ən yadda qalanı isə şəhidlərin xatirəsi üçün kütləvi ağacəkmə kampaniyasının keçirilməsidir. Şəhər icra hakimiyyətindən verilmiş məlumatda qeyd olunur ki, Mingəçevirdə Anım Gününün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq olunmuş və bu plana əsasən senyabrın 25-də şəhər ərazisində Vətən müharibəsi şəhidlərinin xatirəsinə kütləvi ağacəkmə kampaniyası keçirilmişdir. Həmin gün şəhərdə ümumilikdə 600 ağac əkilmişdir.

Anım Günü şəhərdə digər tədbirlər də keçirilmişdir.

### Astara

Anım Günü tədbirləri rayon ictimaiyyətinin nümayəndələrinin yeni salınmış Şəhidlərin Xatirə Kompleksinə əklil qoyması ilə başladı. Vətən müharibəsində Astara rayonundan 600 nəfərə qədər gənc iştirak etmiş, 41 nəfər şəhid olmuş, 138 nəfər yaralanmışdır. Ümumilikdə birinci və ikinci Qarabağ müharibələrində rayonun 124 cəsur, mərd oğulun şəhidlik zirvəsinə ucalmışdır.

Tədbirdə şəhidlərin - polkovnik-leytenant Nail Orucovun övladı İbrahim Oruczadə, Nurlan Rəhimovun övladı Əlövsət Rəhimli, Samiq Rəhmanovun övladları Aylin və Fədayə Rəhmanzadə bacılarının şəhidlər haqqında söylədiyi şerlər iştirakçılara duyğulu anlar yaşatmışdır. Sonra söz şəhid mayor Kamran Fərəcovun həyat yoldaşı Nuranə Fərəcovaya və qazi Coşğun Şöhübzadəyə verilmişdir. Onlar şəhid ailələri və qazilərə dövlət tərəfindən göstərilən diqqət və qayğıkeşlikdən razı olduqlarını bildirmişlər.

İştirakçılar Səncərədi kəndindəki Şəhidlərin Xatirə Kompleksini də ziyarət etmişlər. Bundan sonra Vətən müharibəsi şəhidlərinin - Qeybiyev Arif İsmail oğlu, Hüseynov Şahnur Şahin oğlu, Kazımov İlkin Xanməmməd oğlu və Ağayev Zülfi Ağalı oğlunun il mərasimlərinə qatılaraq ailələrinə başsağlığı vermişlər.

Anım Günü şəhər ərazisində 520 ağac əkilmişdir. Astara park-bulvar kompleksində vətənpərvərlik marşlarının sədaları altında gənclərin yürüşü maraqla izlənmiş, Astara şəhidlərinin xatirəsinə səmaya 41 göyərçin buraxılmışdır.

### Yevlax

Anım günü Yevlaxda da müxtəlif tədbirlərlə qeyd olunmuşdur. Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev, Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli və Milli Məclisin deputatı İlham Məmmədov, rayonun hüquq mühafizə orqanlarının, rayon ictimaiyyətinin nümayəndələri və şəhid ailələri üzvləri əvvəlcə Şəhidlər Xiyabanını ziyarət etmişlər.

Burada həmçinin Şəhidlərin Xatirəsinə ucaldılan abidənin açılışı olmuşdur. Eyni zamanda şəhidlərin xatirəsinə ağacəkmə aksiyası çərçivəsində ümumilikdə 500, Şəhidlər Xiyabanında isə Vətən Müharibəsində həlak olan yevlaxlı şəhidləri simvolizə edən 65 ağac əkilmişdir.

Sonra tədbir Heydər Əliyev sarayında davam etmişdir. Yevlax ŞİH-in başçısı Anar Tağıyev bildirmişdir ki, 65 igidimiz onilliklər sonra da bütün Yevlaxın ən böyük qəhrəmanları sayılacaq, hər zaman fəxr və qürur mənbəyimiz olacaqlar: “Biz bu müharibədə bir şəhid versəydik belə,o böyük itki sayılacaqdı. Nə xoş ki, hər birimizə qürur verən şanlı qələbəmiz böyükdür. Təsəllimiz də odur ki, şəhidlərimizin qanı əbəs getmədi, bizə Zəfəri yaşatdı. Torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını qəhrəmanlıqla fəda edən şəhidlərimizin ruhu bu gün azad Qarabağda rahatlıq tapır”.

Milli Məclisin deputatı İlham Məmmədov, şəhid polkovnik-leytenant Soltan Məmmədovun həyat yoldaşı Tünzalə Məmmədova, birinci Qarabağ müharibəsi qazisi Elxan Hümbətov, Vətən mühərbəsi qazisi Elşən Mustafayev çıxışlarında qeyd etmişlər ki, bu tarixi qələbə Vətən həsrətimizə və yurd nisgilimizə son qoydu: “Vətən müharibəsi haqqında hələ tarix kitablarında çox yazılacaq, siyasətçilər çox araşdırmalar aparacaq, təhlil və diskussiyalarda çox məqamlara aydınlıq gətiriləcək. Amma indidən demək olar ki, Vətən müharibəsi nəinki ölkəmizin vətəndaşlarının, eləcə də dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlıların milli birliyini möhkəmləndirdi”.

Sonda Yevlax şəhər Mədəniyyət Mərkəzi şəhidlərin xatirəsinə həsr edilmiş ədəbi-bədii kompozisiya nümayiş etdirmişdir.

### Tərtər

Rayon rəhbərliyinin, hüquq-mühafizə orqanları işçilərinin, şəhid ailələri üzvlərinin, qazilərin, müharibə iştirakçıları və rayon ictimaiyyəti nümayəndələrinin iştirak etdikləri tədbirdə əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən əsgər və zabitlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, ruhlarına dualar oxunmuşdur.

Sonra Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək bildirmişdir ki, ölkəmizin bütün şəhər və rayonlarında, o cümlədən mənfur düşmənin ən çox ziyan vurduğu Tərtər rayonunda anım mərasimləri keçirilir, şəhidlərimiz Azərbaycandakı bütün dini məbədlərdə yad olunur, qəhrəman Vətən övladlarının ruhuna dualar oxunur.

Qeyd olunmuşdur ki, 44 günlük Vətən müharibəsində erməni hərbi birləşmələri tərəfindən Tərtər rayonuna 16 min 277 top, tank, qrad mərmisi, 21 qadağan olunmuş raket atılmışdır. Nəticədə 16 mülki şəxs həlak olmuş, 63 nəfər yaralanmışdır. Rayonun infrastrukturuna, yaşayış evlərinə, sosial obyektlərinə, o cümlədən 3663 fərdi yaşayış evinə, 83 çoxmənzilli binada 1741 mənzilə, 301 qeyri-yaşayış sahəsinə, 184 sahibkarlıq və ictimai-iaşə müəssisəsinə, 47 sosial obyektə, 12 körpələr evi-uşaq bağçasına, 16 məktəbə, 10 tibb müəssisəsinə, 7 mədəniyyət müəssisəsinə, İlk peşə ixtisas məktəbinə, Musiqi Məktəbinə, Klub İcma Mərkəzinə və kənd tibb məntəqələrinə, 30 inzibati obyektə, 103 nəqliyyat vasitəsinə, 18 kənd təsərrüfatı texnikasına, 505 əkin sahəsinə ziyan dəymişdir. Vətəndaşlara məxsus 161 baş qaramal, 393 baş davar, 24 arı ailəsi məhv olmuş, 58 fərdi yaşayış evi, çoxmənzilli binada olan 2 mənzil, 1 qeyri-yaşayış sahəsi, 2 sosial obyekt tamamilə dağılmışdır. Ancaq tərtərlilər bir gün də olsun öz doğma yurdlarını və ev-eşiklərini tərk etməmiş, evləri dağılsa da, şəhidlər versə də, ön cəbhədə olduğu kimi arxa cəbhədə də qəhrəmanlıq, şücaət göstərmişlər.

Milli məclisin deputatı Sahib Alıyev çıxış edərək bildirmişdir ki, Ermənistanın 2020-ci il sentyabrın 27-də ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə başladığı Vətən müharibəsi Şanlı Qələbə ilə başa çatdı. 30 ilə yaxın işğal altında olan torpaqlarımız şəhidlərimizin - əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edildi.

Sonra məktəblilər tərəfindən vətənə, şəhidlərimizə həsr olunmuş şeirlər səsləndirilmişdir. Mərasim “Şəhidlər” abidə kompleksinin ziyarəti ilə yekunlaşmışdır.

### Ağstafa

Anım günü ərəfəsində Ağstafanın Poylu kəndindən olan Vətən müharibəsi şəhidi, sərhədçi-gizir Məhəmmədəli Bayram oğlu Ələkbərovun xatirəsinə tikilmiş abidə-bulaq kompleksinin açılışı olmuşdur.

Tədbirdə rayon rəhbərliyi, şəhidin doğmaları, rayonun hüquq-mühafizə orqanlarının rəhbələri, Dövlət Sərhəd Xidmətinin bir qrup hərbi qulluqçusu, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Qeyd olunmuşdur ki, 2014-cü ildə Dövlət Sərhəd Xidmətində hərbi xidmətə qəbul olunan Məhəmmədəli xidməti fəaliyyəti müddətində çalışqanlığı, intizam-intizamı ilə seçilmiş, qazandığı bilik və bacarıqlarını Vətən müharibəsinin ilk günündən döyüş meydanında məharətlə nümayiş etdirmişdir. Zəngilan şəhərinin azad olunması uğrunda əməliyyatlarda, düşmən postlarının ələ keçirilməsində xüsusilə fərqlənən gizir 2020-ci ilin oktyabrın 21-də düşmənin əks-hücumunun qarşısını alarkən şəhidlik zirvəsinə ucalmışdır. Məhəmmədəli Ələkbərov ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Vətən uğrunda” və “Zəngilanın azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

Sonra M.Ələkbərovun valideynləri ölkəmizdə şəhid ailələrinə göstərilən qayğıkeşliyə və şəhidlərimizin xatirələrinin əbədiləşdirilməsinə görə minnətdarlıqlarını bildirmişlər.

Mərasimdə şəhidin təltif olunduğu orden və medallar ailə üzvlərinə təqdim edilmişdir.

### Tovuz

Tovuz şəhərində, Aşağı Mülkülü, Cəlilli, Aşağı Quşçu, Dönük Qırıqlı, Hacıalılı, Bayramlı, Ağdam kəndlərinin ərazilərində keçirilən aksiyada rayon icra hakimiyyətinin kollektivi, hüquq mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər, əmək kollektivlərinin və rayon ictimaiyyətinin nümayəndələri, könüllülər iştirak etmişlər.

Aksiya başlamazdan əvvəl rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov tədbirdə iştirak edən şəhid ailələri ilə söhbət edərək bildirmişdir ki, Vətən uğrunda döyüşlərdə igidlik göstərmiş hər bir övladımızın həyat yolu və qəhrəmanlığı gənclərimiz üçün örnəkdir.

Aksiyada ümumilikdə 600-dən çox müxtəliv növ ağaclar əkilmişdir.

### Şəmkir

Vətən müharibəsi şəhidi Ruslan Qəhrəmanovun yadigarı Yusifin 1 yaşı tamam olmuşdur. Bu münasibətlə Şəmkir Rayon İcra Hakimiyyətinin nümyəndələri şəhidin ailəsinin yaşadığı ünvana getmişlər.

Qeyd edək ki, kapitan Ruslan Qəhrəmanov Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. O, Şəmkir rayonunun Xuluf kəndində dəfn edilmişdir.

Ruslan Qəhrəmanov ölümündən sonra “Vətən uğrunda” medalı və “Azərbaycan Bayrağı” ordeni ilə təltif olunmuşdur.

### Qəbələ

Anım Günü ilə əlaqədar Müdafiə Nazirliyinin dəstəyi və “Əsgərə xatirə kitabı” layihəsinin təşkilatçılığı ilə Qəbələdə tədbir keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, şəhid ailələrinin, qazilərin, rayon icra hakimiyyəti nümayəndələrinin və ictimaiyyətin iştirakı ilə keçirilən tədbir Şəhidlər xiyabanının ziyarət olunması ilə başlayıb.

Əvvəlcə ümummilli lider Heydər Əliyev və Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, şəhidlərin ruhuna dualar oxunub, Dövlət Himni ifa olunub.

Vətən müharibəsinin ildönümü ilə əlaqədar Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və döyüşlərdə yaralanmış qazilərlə görüş keçirilib.

Tədbirlərdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə keçirilən “Dəmir yumruq” əməliyyatı nəticəsində rəşadətli Ordumuzun qazandığı şanlı qələbənin tarixi əhəmiyyəti, xalqımızın qələbədə rolu, şəhidlərin və döyüş iştirakçılarının igidlik, qəhrəmanlıq nümunələri haqqında ətraflı söz açılıb, şəhidlərimizin xatirəsinin əbədi yaşayacağı qeyd olunub.

***“Azərbaycan”,***
***AZƏRTAC***









# İŞİMİZ, GÜZƏRANIMIZ



*Əvvəli 1-ci səh.*

## Qələbədən sonra Azərbaycan xarici investorlar üçün daha cəlbedici olub

### Xeyli sayda xarici şirkət Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələrə maraq göstərir

Ali Baş Komandan, Prezident İlham Əliyevin islahatçı ruhu, cəsur sərkərdə qətiyyəti dövlətimizə bu qısa zaman kəsimində əsrlərlə ölçülən uzun bir inkişaf yolu keçməyə imkan verdi. İndi nə Azərbaycan dövləti 5-10 il əvvəlki Azərbaycandır, nə də biz əvvəlki xalqıq. Möhtəşəm qələbə bizə kimliyimizi tanıtdı, genetik cəsurluğumuzu, sülhə və tərəqqiyə fərqli baxışımızı üzə çıxardı. Artıq daha güclü və əzəmətliyik, uğurlarımız daha dayanıqlı, dövlətçilik təcrübəmiz daha cilalıdır.

Diqqət çəkəni odur ki, hərbi, iqtisadi və ümumiyyətlə, bütün sahələrdə Azərbaycanın qazandığı uğurlar beynəlxalq təşkilatlar tərəfindən də diqqətlə izlənilir və nəticələr müxtəlif reytinq sorğularında əksini tapır.

Son araşdırmalardan biri Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK) təşkilatçılığı ilə aparılmışdır. Azərbaycandakı cari iqtisadi vəziyyət və biznesin inkişaf perspektivləri, həmçinin ölkədə investisiya mühiti və həyata keçirilən iqtisadi islahatların səmərəliliyi haqqında "Azərbaycanda Xarici Biznes: Biznes Mühiti Sorğusu 2021" adlı bu hesabatda beynəlxalq şirkətlər belə qənaətə gəlirlər ki, ölkəmizin iqtisadiyyatının inkişafı dayanıqlıdır.

Adıçəkilən hesabat Azərbaycanda fəaliyyət göstərən xarici biznes nümayəndələri arasında 2021-ci ilin may-iyul aylarında keçirilən Biznes Mühiti Sorğusunun nəticələrinə əsaslanmışdır. Bu məqsədlə Azərbaycanda fəaliyyət göstərən və 30 ölkəni təmsil edən (Almaniya, Böyük Britaniya, ABŞ, İsveçrə, Türkiyə və s.) 270 xarici şirkətə sorğu göndərilmişdir. Sorğuya cəlb edilən xarici şirkətlərin 88 faizi mikro müəssisələr və KOB-lar olmuşdur. Onların 67 faizi 10 ildən yuxarıdır ki, ölkəmizdə fəaliyyət göstərir və iqtisadi reallıqlara dərindən bələddirlər. Son hesabatda respondentlərin 68 faizi Azərbaycan iqtisadiyyatının mövcud vəziyyətini sabit qiymətləndirmişdir. Halbuki bundan əvvəlki sorğuda bu göstərici 39 faiz olmuşdur.

Rəyi öyrənilən şirkətlər Azərbaycanı biznes investisiyaları üçün mühüm ərazi kimi dəyərləndirmişdir. Respondentlərin 57 faizi isə ölkəmizdə fəaliyyətini genişləndirmək və ya yeni investisiya qoymaq niyyətində olduğunu bildirmişdir.

Maraqlısı odur ki, 44 günlük müharibədə düşmənin darmadağın edilməsi və ərazi bütövlüyümüzün təmin olunması xarici şirkətləri daha geniş çərçivələrdə fəaliyyət göstərməyə, yeni investisiya imkanlarından faydalanmağa cəlb edir. Hamı dərk edir ki, Azərbaycan işğalçı Ermənistandan fərqli olaraq sülhə, əmin-amanlığa, tərəqqiyə və iqtisadi əməkdaşlığa səmt götürən ölkədir. Məhz ona görə Azərbaycan biznes investisiyaları üçün mühüm ərazi kimi qəbul edilir. Bu qiymətləndirmə ötən ilə nisbətə 50 faizdən 60 faizə yüksəlmişdir.

Ölkəmizdə fəaliyyət göstərən xarici sahibkarlar onun şahididir ki, Azərbaycan iqtisadiyyatında müasir dünya təcrübəsi uğurla tətbiq edilir, işğaldan azad edilmiş ərazilərdə "ağıllı" kənd, şəhər və kənd təsərrüfatı layihələri icra olunur. Bu da AHK-yə üzv şirkətləri işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq layihələrində daha yaxından iştirak etməyə sövq edir. Şirkətlərin 61 faizi bu layihələrdə podratçı/subpodratçı kimi çıxış etmək və ya dövlət-özəl tərəfdaşlığı çərçivəsində iştirakda maraqlıdır. Elə ona görə də sorğuda iştirak edən xarici şirkətlərin 43 faizi fəaliyyət sahələri üzrə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda həyata keçiriləcək layihələrdə iştirak edə biləcəklərini, 22 faizi bu layihələrdə iştirakının mümkünlüyünü bildirmişlər. Onların əksəriyyəti tikinti, telekommunikasiya və informasiya texnologiyaları sahələrinə daha çox maraq göstərirlər.

Digər diqqətçəkən faktlar: sorğuda iştirak edənlərin 71 faizi Azərbaycandakı siyasi sabitliyi, 49 faizi təhlükəsiz ölkə olduğunu, 39 faizi infrastruktura davamlı sərmayə qoyuluşunu xüsusi vurğulamışdır. Həqiqətən Azərbaycan həyata keçirilən davamlı infrastruktur layihələri ilə dünyada qabaqcıl sıralardadır. Düzgün idarəetmə, neft sektoru ilə yanaşı, qeyri-neft sektoruna ayrılan diqqət davamlı infrastruktur layihələrinin həyata keçirilməsinə əlverişli imkanlar yaradır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) ekspertləri isə belə hesab edirlər ki, Zəngəzur dəhlizinə region ölkələrinin marağı getdikcə yüksəlməkdədir: "Özbəkistan və Türkmənistan prezidentləri səviyyəsində Cənubi Asiya və Cənubi Qafqazın nəqliyyat-logistika imkanlarının müzakirəsi deməyə əsas verir ki, Mərkəzi Asiya ölkələrinin yeni nəqliyyat dəhlizlərindən, o cümlədən Azərbaycanın tranzit imkanlarından istifadədə marağı böyükdür". İİTKM-in analitiki Coşqun Cəfərov Aşqabad müqaviləsini imzalayan Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan vasitəsilə həyata keçirilən beynəlxalq yüklərin Zəngəzur dəhlizi vasitəsilə Avrasiya bazarlarına çatdırılmasının Qarabağ regionunun iqtisadi potensialının artırılmasında xüsusi rol oynayacağını proqnozlaşdırır: "Cənubi Qafqaz ölkələri olan Azərbaycan, Ermənistan və Gürcüstan, qonşu ölkələr Türkiyə, Rusiya və İran "3+3" formatda geosiyasi əməkdaşlıq edərək kommunikasiya xətlərinin yenidən bərpa edilməsi ilə beynəlxalq tranzit daşımalarda yeni iqtisadi ağırlıq mərkəzi yarada bilər. Əlbəttə ki, bu əməkdaşlıq çərçivəsində Zəngəzur dəhlizinin siyasi və iqtisadi önəmi danılmazdır. Regionda digər həyata keçirilməsi nəzərdə tutulan layihələri dəyərləndirdikdə Zəngəzur dəhlizi region ölkələrinə daha ucuz alternativ olaraq çıxış edir".

Təbii ki, perspektivlərin bu cür nikbin analizi ölkəmizdə fəaliyyət göstərən şirkətlərin də diqqət mərkəzindədir. Onlar da görürlər ki, logistika sistemlərinin inkişafından başqa, azad edilmiş ərazilərdə yeni sənaye zonalarının yaradılması da investisiya imkanlarını daha da genişləndirə bilər.

44 günlük müharibədə misilsiz qələbəyə nail olan Azərbaycanın ildırım sürəti ilə bərpa işlərinə start verməsi, bütün Qarabağı tikinti meydançasına çevirməsi, yeni tranzit potensiallarının gündəmə gəlməsi xarici sahibkarların və investorların ciddi marağına səbəb olmuşdur. Bu amillərin nəticəsidir ki, respondentlərin 60 faizi (əvvəlki hesabatda 50 faiz) Azərbaycanı əlverişli biznes məkanı kimi qəbul edir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Ölkəmizdə yeni "Himayədar ailə" qayğıkeşlik modeli tətbiq olunacaq

"Uşaqlara qayğı sisteminin dünyada geniş yayılmış nümunələrindən biri olan və dövlət müəssisələrindəki uşaqların himayədar ailələrə verilməsi ilə ailə mühitində yaşamalarına şərait yaradan "Himayədar ailə" qayğıkeşlik modelinin ölkəmizdə də tətbiqi nəzərdə tutulur. Bu məqsədlə institusional hazırlıq işləri aparılır. BMT-nin Uşaq Fondu (UNICEF) ilə əməkdaşlıq istiqamətlərindən biri də bu sahəni əhatə edir".

Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev UNICEF-in Azərbaycandakı nümayəndəliyinin yeni rəhbəri Aleks Haykens ilə tanışlıq görüşündə bildirib.

A.Haykensi yeni təyinatı münasibətilə təbrik edən nazir uşaqların müdafiəsi və inkişafının, hüquqlarının qorunmasının dövlətimizin sosial siyasətinin mühüm tərkib hissəsi olduğunu vurğulayıb. S.Babayev ölkəmizdə sosial müdafiə, eləcə də uşaq qayğıkeşliyi sisteminin inkişafı istiqamətində aparılan islahatları, bu sahədə UNICEF-lə fəal əməkdaşlıq həyata keçirildiyini qeyd edib.

Nazir bu ilin may ayında imzalanmış "2021-2022-ci illər üçün Sosial Müdafiə və Uşaq Müdafiəsi üzrə Dövri Fəaliyyət Planı"nın əhəmiyyətini diqqətə çatdırıb. Bu plan üzrə UNICEF-lə birgə pilot mərhələdə icra edilən "İnteqrasiya olunmuş sosial xidmətlər modeli"ni qeyd edib. Həssas qruplardan olan uşaqlar və ailələrlə bağlı vahid mərkəzdən eyni vaxtda bir neçə istiqamətdə kompleks sosial xidmətləri nəzərdə tutan həmin modelin geniş tətbiqinin nəzərdə tutulduğunu bildirib.

A.Haykens UNICEF-in Azərbaycandakı nümayəndəliyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında ötən dövrdə uğurlu əməkdaşlıq təcrübəsinin formalaşdığını və bu əməkdaşlığın qarşıdakı dövrdə də inkişafı üçün səy göstərəcəyini vurğulayıb.

Görüşdə hazırkı əməkdaşlıq istiqamətləri, ölkəmizdə uşaq qayğı sisteminin inkişafı sahəsində aparılan islahatlar, "2021-2022-ci illər üçün Sosial Müdafiə və Uşaq Müdafiəsi üzrə Dövri Fəaliyyət Planı" üzrə görüləcək birgə işlərə dair fikir mübadiləsi aparılıb.

## "Vətən ətirli övladlarınız bizə əmanətdir!"

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış yeni videoçarx Vətən müharibəsində şəhidik zirvəsinə ucalmış qəhrəmanlarımızın uşaqlarından bəhs edir.

Uşaqların hər biri Vətənin bütövlüyü və xalqımızın möhtəşəm Zəfəri, doğma torpaqlarımızın azadlığına qovuşması uğrunda canından keçən bir igidin övladı olduğunu qürurla, iftixarla, onlara yaraşan məğrurluqla söyləyir.

Videoçarx Vətən müharibəsi şəhidləri Ramid Hacıyev, Teymur Abbasov, Sədi Musayev və Rövşən Nurzadənin uşaqlarının timsalında bütün şəhidlərimizin Vətən ətirli övladlarının bizə əmanət olduğunu və onların daim diqqət və qayğı əhatəsində olacaqları mesajını çatdırır.

## 35,7 min ipoteka krediti verilib

İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb.



İKZF-dən AZƏRTAC-a bildirilib ki, İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə indiyədək 35 min 703 ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ 1 milyard 919 milyon 300 min 37 manatdır.

## bp iştirak payının 25 faizini satır

bp Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Abşeron Yarımadasının Dayazsulu Hissəsi (AYDH) geoloji-kəşfiyyat layihəsindəki iştirak payının 25 faizini LUKOYL şirkətinə satmağı razılaşdırıb.

Alqı-satqı əməliyyatı tamamlandıqdan sonra bp-nin AYDH layihəsində 25 faiz iştirak payı olacaq. bp həmçinin geoloji-kəşfiyyat dövründə AYDH hasilatın pay bölgüsü haqqında sazişinin (HPBS) operatoru olaraq qalacaq. Sövdələşmə bitdikdən sonra AYDH sazişində iştirak payları belə olacaq: SOCAR-ın Ortaq Neft Şirkəti - 50, bp - 25 və LUKOYL - 25 faiz.

Bu sövdələşmənin Azərbaycan hökuməti tərəfindən təsdiq olunduqdan sonra 2021-ci il 1 iyul tarixindən qüvvəyə minməklə bu ilin dördüncü rübündə başa çatacağı gözlənilir.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz: "Biz LUKOYL şirkətinin AYDH layihəsi tərəfdaşlığına qoşulmasından çox məmnunuq. Bu, bizim Şahdəniz layihəsindəki uğurlu əməkdaşlığımızın davamı olacaq. Əgər uğurlu olarsa, həm Azərbaycana, həm də bizim tərəfdaşlığımıza dəyərlər gətirəcək bu layihənin geoloji-kəşfiyyat proqramını LUKOYL və SOCAR-la yaxından işləyərək həyata keçirəcəyik".

Vahid Ələkbərov, LUKOYL şirkətinin prezidenti: "LUKOYL-un bp və SOCAR-ın layihəsinə qoşulması Rusiya və Azərbaycanın enerji sahəsində beynəlxalq əməkdaşlığın inkişafı ilə bağlı milli maraqlarına uyğundur. İnanıram ki, tərəfdaşların topladığı bütün elmi və texniki ehtiyatlar Abşeron yarımadasının dayaz sularındakı bu perspektiv sahənin işlənməsinə təkan verəcək".

## Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yollarının inşası davam edir

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri də Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yollarıdır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaydığı məlumata görə, başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun uzunluğu 66 kilometrdir. Sözügedən yolun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər 17 kilometr uzunluğunda yeni avtomobil yolunun da inşası nəzərdə tutulub. Layihələndirilən yolların ümumi uzunluğu 83 kilometrdir.

Dövlət başçısının tapşırığına əsasən, Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yollarının Qarabağın inkişaf planı nəzərə alınmaqla, 4 hərəkət zolaqlı olmaqla, I texniki dərəcəyə uyğundur.

Tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "37 N-li Yol İstismarı" MMC ilə subpodratçı şirkət olaraq yol tikintisi sahəsində ixtisaslaşmış və ölkəmizdə indiyədək bir neçə layihəni uğurla tamamlamış Türkiyənin Polat Yol Yapı San. və Tic. Anonim Şirkəti birgə icra edir.



Artıq Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun ilk 6 kilometrlik hissəsində torpaq işləri, yeraltı keçid və boruların inşası işləri yekunlaşıb, hazırda qeyd olunan hissədə yol geyiminin inşası aparılır.

Yolun 7-40 kilometrlik hissəsində isə torpaq işləri, yol əsasının və yatağın deformasiyaya uğramış və yararsız qruntu, həmçinin torpaq yatağının genişləndirilməsi üçün bitki qatının qazılaraq çıxarılması işləri görülür. Xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun 21,5 metr enində yeni torpaq yatağının inşası həyata keçirilir. Bunun üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb edilib.

Yolun tikintisinin qısa müddət ərzində icra edilməsini təmin etmək məqsədilə Xanlıq yaşayış məntəqəsi yaxınlığında yeni düşərgə inşa edilib. Düşərgədə asfalt-beton zavodu, maşın-mexanizmlərin saxlanılması və xidməti üçün xüsusi ərazi, həmçinin işçilər üçün hər bir şəraiti olan ofis, yeməkxana və dincəlmək üçün yerlər qurulub.

Yeni Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları işğaldan azad edilmiş Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçir. Avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, sözügedən rayonların 30-dan artıq yaşayış məntəqəsini əhatə edir.

## Xam neft və təbii qaz bahalaşsa da...

### Azərbaycan qeyri neft-qaz sektorunun inkişafına üstünlük verir




Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər uğurlu nəticələr verməkdə davam edir. Bu, həmin sektor üzrə məhsul istehsalında və ixracında özünü daha aydın göstərir. O səbəbdəndir ki, artıq qeyri-neft sektoru, xüsusilə qeyri-neft sənayesi ölkənin maliyyə sabitliyinin və dayanıqlı inkişafının təminatında önəmli faktora çevrilir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-avqust aylarında sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 18,4 faiz artmışdır. Sənayedə qeyri-dövlət sektorunun payı isə 81,3 faizə çatmışdır. Hesabat dövründə keçən ilin eyni dövrü ilə müqayisədə tütün məhsullarının istehsalınada 55,1, qida məhsullarının istehsalında 6,2, içki istehsalında 2,9 faiz artım qeydə alınmışdır. Yüksək artım, həmçinin toxuculuq sənayesi, geyim, dəri və dəridən hazırlanan məmulatlarda müşahidə edilmişdir. Belə ki, həmin dövrdə ötən ilin eyni vaxtı ilə müqayisədə dəri və dəridən hazırlanan məmulatlarıda, həmçinin ayaqqabıların istehsalında 56,1, toxuculuq sənayesində 52,5 faiz artım olmuşdur.

Kimya sənayesi ölkəmizdə istehsal imkanlarına görə digər sahələrlə müqayisədə daha önəmli yer tutur. Cari ilin 8 ayında kimya sənayesində 1 milyard 147,9 milyon manatlıq məhsul istehsal olunmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 62,1 faiz çoxdur. Bununla yanaşı, hesabat dövründə metallurgiya sənayesi və hazır metal məmulatlarının, kompüter, elektron və optik məhsullarının, elektrik avadanlıqlarının istehsalında da yüksək artım müşahidə edilmişdir.

Qeyri neft-qaz sektorunun inkişafında ölkənin ayrı-ayrı regionlarında yaradılan texnopark və sənaye məhəllələrinin rolu danılmazdır. Burada fəaliyyətə başlayan müxtəlif təyinatlı müəssisələrdə istehsal olunan məhsullar həm də keyfiyyətinə görə fərqlənir və o üzdən xarici bazarlarda özünə rahat alıcı tapa bilir.

Yeri gəlmişkən qeyd edək ki, ölkəmizdə qeyri-neft məhsullarının ixracının təşviqinə də dövlət səviyyəsində xüsusi dəstək verilir. Məlumdur ki, dünya bazarında neft və qazın satışı qaydaları illərlə formalaşıb və bütün oyun qaydaları buna uyğun aparılır. Lakin qeyri neft-qaz məhsullarının satışına xüsusi yanaşma tələb olunur. Bununla əlaqədar qeyri neft-qaz sektorunda istehsal olunan məhsulların ixracına dövlət dəstəyi vacibdir. Odur ki, bu məqsədlə Prezident İlham Əliyev hələ 2017-ci ilin yanvarında "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin təyin edilməsi haqqında" fərman imzalamışdır. Məqsəd bu nümayəndələr vasitəsilə xarici dövlətlərdə ölkəmizin yerli ixracatçılarının iqtisadi-ticarət maraqlarının qorunması və təmsil edilməsi, yerli məhsulların xarici ölkə bazarlarına çıxışının genişləndirilməsi, həmçinin ixracın stimullaşdırılması, təsərrüfat subyektləri arasında işgüzar əlaqələrin qurulmasının çevikliyini artırmaqdır. Sözsüz ki, son illər ixracatda qeyri-neft sektoruna aid məhsulların artmasında dövlət başçısının imzaladığı bu fərmanın böyük əhəmiyyəti var.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-iyul aylarında qeyri-neft məhsullarının ixracının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 30,8, real qiymətlərlə 17,8 faiz artaraq 1 milyard 354,3 milyon dollara çatmışdır. Hesabat dövründə qeyri neft-qaz sektorunda ixracatın strukturunda meyvə və tərəvəzlər, plastik kütlə və ondan hazırlanan məmulatlar, pambıq lifi və ipliyi, alüminium və ondan hazırlanan məmulatlar, həmçinin kimya sənayesi məhsulları, eləcə də şəkər, bitki yağları, alkoqollu və alkoqolsuz içkilərin payı daha çox olmuşdur.

Qeyri neft-qaz məhsullarının ixracatında da ən çox paya texnoparklar sahibdir. Məlumdur ki, dövlət səviyyəsində texnoparkların və sənaye məhəllələrinin inkişafı üçün sahibkarlara mühüm güzəştlər olunur. Bu hesaba sənaye məhəllələri və texnoparklarda qarşıdakı illərdə yeni istehsal sahələri yaranacağı şübhəsizdir. Deməli, qeyri neft-qaz məhsullarının istehsalı və ixracında da əlavə imkanlar əmələ gələcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Məktublar: problemlər, rəylər, təkliflər...



## Ümid edirik ki...

**Son vaxtlar Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə Bakı şəhərinin rayon və qəsəbələrində müxtəlif abadlıq işləri həyata keçirilir. İstifadəsiz ərazilərdə və binaların həyətlərində müasir tələblərə cavab verən istirahət parkları və uşaq əyləncə meydançaları sakinlərin istifadəsinə verilir.**



Gözoxşayan görünüşə malik, işıqlandırma sistemi və lazımi avadanlıqlarla təchiz olunmuş park və meydançalar kiçikdən-böyüyə hamının zövqünü oxşayır və məmnunluğuna səbəb olur. Ölkə vətəndaşlarının asudə vaxtlarının səmərəli keçirilməsində genişmiqyaslı işlər görən Heydər Əliyev Fondunun və şəxsən fondun vitse-prezidenti Leyla xanım Əliyevanın bu nümunəvi addımı bütün rayonlar üçün örnək olmalıdır.

Hörmətli redaksiya, sakini olduğum Bakı şəhəri Xətai rayonu, Xudu Məmmədov, 39 saylı binanın ərazisində uzun illərdir ki, heç bir abadlıq işləri aparılmır, əksinə, vaxtilə uşaqlar üçün mövcud olmuş əyləncə qurğuları sökülərək yerində tikinti aparılıb. Binaya aid olan ərazidə hazırda səliqəsizlik və natəmizlik hökm sürür. İnanmaq istərdik ki, tezliklə binamızın həyətində də abadlaşdırma işləri aparılacaq, həyətimiz nümunəvi bir həyətə çevriləcək. Ümid edirik ki, səlahiyyətli şəxslər bizim səsimizi eşidəcəklər.

**Bakı şəhəri, Xətai rayonu,**
**Xudu Məmmədov 39 saylı binanın**
**sakinləri adından**
***Şakir CƏFƏROV***

## Laqeydliyə nə vaxt son qoyulacaq

**Dövlətimiz həmişə insanların rahatlığına xüsusi diqqət verir. Yollar çəkilir, yeraltı, yerüstü keçidlər, körpülər salınır, hətta insanların rahatlığı üçün keçidlərdə qocaları, xəstələri nəzərə alaraq eskalatorlar quraşdırılır.**

Lakin son zamanlar müxtəlif qurumların, idarə və təşkilatların baxımsızlığı və laqeydliyi ucbatından bəzi keçidlərdə eskalatorlar işləmir. Məsələn, Azadlıq prospektində yerləşən yerüstü keçidin eskalatorları artıq iki aya yaxındır ki, dayanıb. Bu müddət ərzində istifadəçilər tərəfindən keçidin nəzarətçilərinə,



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin işçilərinə dəfələrlə müraciət olunsa da, tədbir görülmür, nəticədə vətəndaşlar keçiddən piyada, özü də əziyyətlə istifadə etmək məcburiyyətində qalırlar.

Hörmətli redaksiya, xahiş edirik bizim səsimizi əlaqədar təşkilatlara qəzet vasitəsilə çatdırasınız. Bəlkə bu haray problemin həll olunacağı günü yaxınlaşdıra.

***B.MİRZƏYEV,***
***Bakı şəhəri, Binəqədi rayon sakini***

## Digahlıların arzusu həyata keçir

**Qubanın Digah kəndi dağlıq ərazidə yerləşir. Buna baxmayaraq, Digahda hələ sovetlər dönəmindən əvvəl məktəb olub. Hətta ətraf ərazilərdən kəndimizə oxumağa gəliblər.**

Müstəqillik illərində məktəb binası təmir edilsə də, qədim təhsil ocağının binası müasir tələblərə cavab vermirdi. Xüsusən yağış, qar yağanda tavan damdığından sinif otaqlarında dərs keçmək mümkün olmurdu.



Bu ilin ortalarında bizə şad xəbər verdilər ki, kəndimizdə məktəb üçün yeni bina tikiləcək. İnanın ki, uşaqdan böyüyə sevinməyən olmadı, hətta qurban da dedilər. Avqust ayından tikintiyə start verilib. Yeni 3 mərtəbəli və 360 şagirdlik binanın artıq təməli qoyulub. Tikinti işləri başlayandan digahlılar hər gün meydançaya gəlir, ustalara çay və yemək gətirirlər. Bu münasibəti görən inşaatçılar işlərinə daha məsuliyyətlə yanaşırlar. Məsuliyyət isə o deməkdir ki, məktəb nəzərdə tutulan vaxtda istifadəyə veriləcək.

***Mənsur HACIYEV,***
***Quba, Digah kəndi***



## Maska cərimələrdən yaxa qurtarmaq üçün deyil...

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən ötən ilin mart ayında pandemiya elan edilmiş COVID-19 hələ də bütün dünyada tüğyan etməkdə, hər gün müxtəlif ölkələrdə insanların sağlamlığını, həyatını təhdid etməkdədir. Artıq bu təhlükəli virusa yoluxanlar arasında vəfat edənlərin sayı 4,5 milyonu ötüb. Təəssüf ki, ölkəmizdə də hər gün koronavirus onlarla insanın həyatına son qoyur.**

Bu qlobal bəlanın nə qədər təhlükəli olduğu artıq heç kimə sirr deyil. Bütün dünyada mütəxəssislərin koronavirusla mübarizə yollarını axtardığı, araşdırmalar apardığı bir vaxtda hər kəsin üzərinə sadə və olduqca əhəmiyyətli vəzifələr düşür - peyvənd olunmaq, maska taxmaq, məsafə saxlamaq, gigiyenik qaydalara əməl etmək.

Koronavirus səbəbindən yenidən yoluxma və ölüm sayının artdığı bir vaxtda hər gün rastlaşdığımız mənzərələr təəssüf doğurur. Hələ də bir çoxlarının həm özünün, həm da ətrafındakı insanların həyatına, sağlamlığına laqeyd yanaşdığını görürük. Paytaxtda hərəkət edən avtobusların çoxunda nəinki sərnişinlər, hətta sürücülər də maskadan istifadə etmirlər. Bəzi avtobuslarda sürücülərin "Qabaqda yoxlayırlar, maskalarınızı taxın" deyə sərnişinləri "xəbərdar" etdiklərinin də şahidi oluruq. Halbuki hər kəs bilməlidir ki, maska cərimələrdən yaxa qurtarmaq üçün taxılmamalıdır. Maska taxmaq təhlükəli virusa yoluxmadan qorunmaq üçün tövsiyə olunur.

Qaydalara eyni etinasız münasibət metroda da hökm sürür. Burada fərq ondadır ki, sərnişinlər metroya daxil olarkən maska taxmalı olurlar. Lakin sonra sanki onun əhəmiyyətini "unudurlar". Belə ki, sərnişinlərin çoxu metro stansiyalarında və vaqonlarda maskanı tələb olunan qaydada taxmırlar. Məsafə saxlamağı da yaddan çıxarırlar. Maska taxmağın, məsafə saxlamağın vacib olduğu alış-veriş mərkəzlərində də eyni mənzərələrlə rastlaşırıq.

Sadə qaydalara etinasız münasibətin böyük bəlalara yol açdığını bilirik. Hər gün eşitdiyimiz, oxuduğumuz xəbərlər koronavirusun nə qədər təhlükəli olduğunu bizə xatırladır. Nəzərə almalıyıq ki, ətrafımızda risk altında olan, yaşlı, müxtəlif xəstəliklərdən əziyyət çəkən insanlar var. Qaydalara laqeyd yanaşmaqla onların yoluxma riskini yüksəltmiş oluruq. Ancaq COVID-19-un gənc, sağlam insanlara da rəhm etmədiyi hər birimizə məlumdur. Bu da o deməkdir ki, cəmiyyətdə heç kəsin koronavirus infeksiyasına yoluxub-yoluxmayacağı, yaxud da bu xəstəliyi necə keçirəcəyini qabaqcadan söyləmək mümkün deyil.

Digər təəssüf doğuran hal isə bəzilərinin koronavirusa yoluxduğunu bilə-bilə həm özünün, həm da başqalarının səhhətinə laqeyd yanaşaraq bu bəlalı virusun əhatəsini genişləndirməsinə şərait yaratmasıdır. Demək olar ki, hər gün DİN əməkdaşları tərəfindən koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə keçirilən reydlər zamanı ictimai yerlərdə aktiv koronavirus xəstəsi aşkarlanır. COVID-19 testinin nəticəsi pozitiv olduğu üçün ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşadığı ünvanı tərk etdiyi müəyyən olunan həmin şəxslərə qarşı müvafiq tədbirlər görülür.

Bu qlobal bəlanın qurbanı olmamaq üçün həm özümüzü, həm də ətrafımızdakı insanları düşünməliyik. Məsuliyyətli olmasaq, mütəxəssislərin tövsiyələrini dinləməsək, qaydalara əməl etməsək, gözəgörünməz düşmənin meydanını genişləndirməsinə şərait yaradacağıq. Məhz buna görə bütün qaydalara riayət etməliyik. Ən azından ona görə ki, nəinki qarşımızdakı vətəndaşın, hətta özümüzün bu an virus daşıyıcısı olub-olmadığımıza əmin deyilik.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

## Siyov kəndinin su problemi həll olunub



**Lerik rayonunun Siyov kəndində yaşayan əhalinin həyat tərzi günbəgün yaxşılığa doğru dəyişir. Bu dağ kəndində torpağın hər qarışından səmərəli istifadə edilir, insanları bağçılıq, əkinçilik və maldarlıqla məşğul olurlar.**

Son günlər kənddə su qıtlığı yaranmışdı. Artıq bu məsələ də öz müsbət həllini tapmışdır. Belə ki, "Texniki su təminatının yaxşılaşdırılması" layihəsi əsasında USAID və Azərbaycan hökumətinin birgə maliyyə dəstəyi, yerli bələdiyyə, eləcə də icma üzvlərinin töhfəsi ilə Siyova yaxın dağdakı bulaqlardan su xətti çəkilib. İndi 224 ailəlik kəndin bütün sakinləri saf bulaq suyundan birbaşa faydalanırlar.

***Zəfər ORUCOĞLU,***
***Lerik***

## Belə getsə, bu qışı da qazsız keçirəcəyik

**Cəlilabad şəhəri ilbəil genişlənir. Şəhərin kənarında yeni yaşayış massivləri salınır. Onlardan biri də bizim yaşadığımız Cavadxan qəsəbəsidir.**

Biz 2000-ci ildən həmin qəsəbənin N.İmanquliyev küçəsində yaşayırıq. 52 ailəyik. Onlardan dördü Birinci Qarabağ müharibəsi şəhidinin ailəsidir. Şəraitimiz pis deyil. İşıq, su sarıdan, demək olar ki, korluq çəkmirik. Qaz məsələsinə gəldikdə isə giley-güzarımız var.

Dəfələrlə icra hakimiyyətinin, rayon və Lənkəranda yerləşən regional qaz idarəsinin rəhbərlərinə dərdimizi yazılı və şifahi şəkildə çatdırmışıq. Onlar da məsələnin həll ediləcəyinə söz veriblər. Gəl ki, bu söz elə söz olaraq qalıb, heç bir əməli nəticəsi olmayıb. Halbuki bizim evlərdən 30-40 metr aralıda yerləşən yaşayış evlərinə təbii qaz çəkilib. Həmin yerdən bizim küçəyə qaz xətti çəkmək, bizcə, elə də çətin iş deyil.



Artıq payızdır. Bir azdan qış qapını alacaq. Qarlı-şaxtalı günlər başlayacaq. Belə günlərdə neyləyəcəyimizi bilmirik. Yandırmağa odun da yoxdur. Hörmətli redaksiya, bəlkə siz bizə bir kömək edəsiniz, dərdimizi "Azəriqaz"a çatdırasınız.

***Cəlilabad şəhəri***
***N.İmanquliyev küçəsinin sakinləri:***
***Adil KƏRİMOV, Ərəstun ATAYEV, Rafiq ƏZİZOV,***
***Mircavid AĞAYEV, Asim NURUYEV***

## 40 ilin zibilxanasından canımız qurtardı

**Cəlilabad şəhər Mirzəli Hüseynzadə küçəsində yerləşən keçmiş "Məişət Evi"nin arxasında hələ sovetlər dönəmindən bu günümüzədək "yadigar" qalmış və yaxın günlərədək "təyinat"ını dəyişməyən böyük bir zibillik poliqonu var idi. Həmin əraziyə təxminən 40 il ərzində yaxınlıqdakı 2 mərtəbəli yaşayış binasının sakinləri ilə yanaşı, həm də ətraf küçələrin, xüsusilə də "Mərdiməzar" adlanan zonanın bir çox sakinləri öz məişət tullantılarını atırdılar.**

Buna görə şəhərin gözdən uzaq, amma tam mərkəzində üfunətli bir mənzərə yaranmışdı. Bu ərazi sözün əsl mənasında bakteriya və mikrob mərkəzi, gəmirici, bəzən də yırtıcı və zəhərli heyvanların məkanına çevrilmişdi... Bəzən də məsuliyyətsiz şəxslər həmin zibilliyə od vurur və bunun nəticəsində ətrafda yerləşən evlərə və həyətyanı sahələrə, xüsusilə də ərazidən keçən dövlət əhəmiyyətli qaz xətti üçün ciddi təhlükə yaranırdı. Sonuncu dəfə ötən ilin avqust ayında törədilmiş yanğın nəticəsində ətraf sakinlərə ciddi ziyan dəymiş, yanğın hətta mərkəzi stadionun ərazisinə də keçmişdi. Yalnız yanğınsöndürənlərin əraziyə vaxtında gəlməsi və alovu söndürməsi nəticəsində böyük bir təhlükə sovuşmuşdu.







Bu barədə dəfələrlə aidiyyəti qurumlara və məsul şəxslərə müraciət etmişdim. Təəssüflər olsun ki, son 7 il ərzində heç bir müraciət və xahişin təsiri olmamışdı. Əlacsız qalıb ətrafda yaşayan qonşulara müraciət edərək bura zibil atmamağı və zibilləri yandırmamağı xahiş etmişdim.

Son olaraq Cəlilabad rayon Kommunal Müəssisələri Kombinatına gedib problemi danışdım. Doğrusu, gözləmədiyim halda problem tez bir zamanda həll olundu. Qısa vaxtda əraziyə ekskovator və 2 "Kamaz" maşını cəlb edildi, məişət tullantıları yığılaraq daşındı, yeri isə torpaq tökülərək hamarlandı.

Deməli, istənilən problemi həll etmək mümkündür, təki istək və məsuliyyət olsun.

***İlqar İSMAYILZADƏ,***
***İlahiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Cəlilabad rayon sakini***

## "Beşbarmaq" pirinin qarşısındakı ərazidə antisanitariyadır

**Xalqımız uzun illərdən bəri mənsub olduğu islam dininə həmişə hörmətlə yanaşıb. Qəlbində inanc olan insanlar duyğularının gücü ilə dini ocaqlara Allahın adıyla pənah aparır və inamını göylərə bağlayır.**

Hörmətli redaksiya, özüm qubalıyam. Yolum tez-tez Bakıya düşür. İstər gedəndə, istərsə də qayıdanda "Beşbarmaq" dağının yanında maşını saxlayır, orada nəfəsimi dərirəm. Müqəddəs yer olan bu pir bir qədər yoldan aralı olsa da, ona aid olan ərazidə ticarət mərkəzləri fəaliyyət göstərir. Bu ticarət obyektlərinə hər gün yüzlərlə adam, o cümlədən ölkəmizə təşrif buyuran xarici turistlər də müraciət edir.

Amma ətrafdakı səliqəsizlik adamı üzüqara edir. Yolun kənarında kim necə istəyir, necə gəldi alverlə məşğuldur. Pandemiyanın tüğyan etdiyi bir zamanda heç bir mağazada sanitar qaydalara əməl olunmur. Dükanların arxasında isə antisanitariya baş alıb gedir.



Bütün zir-zibil ora atılır. Sahibsiz itlər də "kef" edir.

Məgər üz tutub salavat çevirdiyimiz bir ocağın ərazisi belə olmalıdır? Şübhəsiz ki, yox! Elədirsə, niyə tədbir görülmür?

***Akif BƏŞİROV,***
***Siyəzən***

# Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin yeni korpusunun açılış mərasimi keçirilib

Sentyabrın 28-də Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsində Dövlət Sərhəd Xidmətinin (DSX) Xüsusi Məktəbinin yeni korpusunun açılış mərasimi keçirilib.





DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, mərasimdə Xidmət rəisinin müavini general-leytenant C.Abdullayev çıxış edərək Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbriklərini çatdırıb, bu tədbirin ölkəmizin şanlı qalibiyyətinin, ərazi bütövlüyümüzün bərpa edildiyi 44 günlük Vətən müharibəsinin birinci ildönümünə təsadüf etməsi ilə əlamətdar olmasını vurğulayıb.

Milli tariximizin ən böyük sərkərdəsi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Ermənistan üzərində parlaq qələbə qazandığı, torpaqlarımızın işğaldan azad edildiyi, üçrəngli Zəfər bayrağımızın sərhədlərimiz boyunca dalğalandırıldığı, Vətən müharibəsində Dövlət Sərhəd Xidmətinin qarşısında Müzəffər Ali Baş Komandanımız tərəfindən qoyulmuş döyüş tapşırıqlarının uğurla icra olunduğu, sərhədçilərin qəhrəmanlıq və igidlik nümunələri göstərdikləri, qalibiyyət dastanı yazdıqları qeyd olunub.

Çıxışda Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyinin təmin edilməsi üçün vətənpərvər, bilikli, savadlı, texnoloji yenilikləri mənimsəməyə və tətbiq etməyə qabil müasir dünyagörüşlü kadrların yetişdirilməsində, fərdi xüsusiyyətlərini, maraq və potensial imkanlarını nəzərə almaqla hər bir kursantın Dövlət Sərhəd Xidmətinin Akademiyasında ali hərbi təhsil üçün hazırlanmasında Xüsusi Məktəbin böyük rolu vurğulanıb.

Heydər Əliyev Fondunun dəstəyi ilə 2011-ci ildə qurularaq fəaliyyətə başladığı dövrdən qısa müddətdə məktəbin ölkəmizdə böyük nüfuz qazandığı, tədris müəssisəsinin açılış mərasimində, eləcə də 2018-ci ildə ikinci korpusunun istifadəyə verilməsi tədbirində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirak etməsinin ölkə rəhbərliyinin sərhəd mühafizəsi məsələlərinə növbəti ali qayğısının və diqqətinin təzahürü olduğu vurğulanıb.

Məktəbdə təhsil alan kursantların tədris, istirahət və təminat məsələlərinin daim diqqət mərkəzində saxlanıldığı, yeni korpusun istifadəyə verilməsinin onların istirahəti, asudə vaxtının daha faydalı keçirilməsi, fiziki, intellektual və yaradıcı məşğuliyyətləri üçün geniş imkanlar yaradacağı bildirilib.

Tədbirdə Heydər Əliyev Fondunun nümayəndəsi Cəmil Əliyev çıxış edərək məktəbin yeni korpusunun istifadəyə verilməsi, eləcə də tədris ilinin başlanması münasibətilə kursantları təbrik edib, onlara dərslərində müvəffəqiyyətlər arzulayıb.

Açılış mərasimindən sonra iştirakçılar yeni korpusda yaradılmış şəraitlə tanış olublar.

Beşmərtəbəli binada 600 nəfərlik yataqxana, müasir avadanlıqla təchiz edilmiş idman zalı, inzibati, xidməti və növbətçi otaqlar, şəxsi heyətin asudə vaxtının səmərəli təşkili üçün istirahət otaqları mövcuddur. Kursantların dərsdən sonrakı fəaliyyətlərinin nəzarətdə saxlanılması üçün videomüşahidə sistemi tətbiq edilib.

Korpusun ərazisində əsaslı tikinti-abadlıq işləri aparılıb, geniş yaşıllıq salınıb, ağaclar əkilib, sıra meydanı yaradılıb.

Mərasimin iştirakçıları Xüsusi Məktəbin tədris korpusunda da mövcud imkanlarla, o cümlədən sinif otaqları, yeməkxana, idman zalı, futbol meydançası və su hovuzuna baxış keçiriblər.

Sonda Xüsusi Məktəbin kollektivi ilə xatirə fotoşəkli çəkdirilib.

***"Azərbaycan"***

*Təkrar*

## Azərbaycan Respublikasının Mərkəzi Bankı
## *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq əsas vəsaitlərin, nağd pulun və nəqliyyat vasitələrinin sığortasından ibarət olan birləşdirilmiş sığorta xidmətləri üzrə açıq tender keçirir.

Tender proseduru 29 oktyabr 2021-ci il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

İddiaçı qismində Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada sığorta fəaliyyətinə lisenziyası olan, müvafiq sığorta növlərinin aparılması üzrə rəsmi razılıq almış, müvafiq icbari sığorta növləri üzrə İcbari Sığorta Bürosunun İştirakçısı Sığortaçılarının Reyestrinə daxil edilmiş sığorta şirkəti çıxış edə bilər.

İddiaçının tələb olunan kapitalı Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 04 mart 2020-ci il tarixli 08/2 nömrəli Qərarına uyğun olaraq qeyri-həyat sığortası fəaliyyəti üzrə sığortaçılar üçün tələb olunan 5 000 000 (beş milyon) manatdan az olmamalıdır.

Təkrarsığorta xarici təkrarsığorta şirkəti tərəfindən həyata keçirildikdə xarici təkrarsığorta şirkəti Mərkəzi Bankın müvafiq reyestrinə daxil edilmiş təkrarsığorta şirkəti olmalıdır (təkrarsığorta xarici sığorta brokeri vasitəsilə həyata keçirildikdə də).

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, bank rekvizitləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş xüsusi razılığın (lisenziyanın) və əmlakın, o cümlədən nağd pulun yanğından və digər risklərdən sığortalanmasına, nağd pulun daşınması üzrə risklərdən sığortalanmasına, habelə avtonəqliyyat vasitələrinin könüllü və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasına dair verilmiş razılığın surəti;*
- *tenderin Əsas şərtlər toplusunda müəyyən edilmiş reytinqə malik olan təkrarsığortaçılar tərəfindən riskin qəbul edilməsini təsdiq edən məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 14 dekabr 2021-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəllısi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *tenderin Əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını ən geci 28 oktyabr 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 20 oktyabr 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderdən kənarlaşdırılacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün Mərkəzi Bankın aşağıdakı hesabına 300 (üç yüz) manat məbləğində iştirak haqqı köçürməlidir:
Azərbaycan Respublikasının Mərkəzi Bankı
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK: NABZAZ2C**
İştirak haqqı heç bir halda geri qaytarılmır.

Sığorta xidmətinin göstərilməsinə 01 yanvar 2022-ci il tarixdən başlanılır. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə xidmət göstərilməsinə 25 yanvar 2022-ci il tarixdən başlanılır.

Sığorta xidmətinin göstərilməsi müddəti: 1 (bir) il.

Qiymətləndirmə meyarları: qiymət, təklif olunan xidmətlər toplusu üzrə sığorta şərtləri və şərtsiz azadolma məbləğləri.

Tenderdə iştirak etmək istəyən sığorta şirkətləri iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər. Tender üzrə əlaqələndirici şəxslər:
Elvin Şirdanov (Hüquq departamenti), telefon: 493-11-22 (dax.tel: 428), elektron poçt ünvanı: elvin_shirdanov@cbar.az
Ceyhun Səməndov (İnzibati departament), telefon: 493-11-22 (dax.tel: 599), elektron poçt ünvanı: ceyhun_samandov@cbar.az.

***Tender komissiyası***

# A.ADİBEKYAN: "Azərbaycan istəyinə hər zaman nail olmaq gücündədir"

*Əvvəli 1-ci səh.*

Elə ona görədir ki, Azərbaycan üçün bu savaş qürur, Ermənistan üçün ağır cəzadır. Bunu 27 Sentyabr - Anım Günü ilə bağlı hər iki ölkədə təşkil edilən tədbirlər də göstərdi.

Ermənistanda müharibənin ildönümü depressiya, çaşqınlıq, ümidsizlik şəraitində keçən matəm günü kimi xatırlandı. Ermənistanın "Qraparak" qəzeti yazır: "Son illərin bizim üçün ən çətin gün ehtimal ki, 10 noyabr 2020-ci il tarixi idi. O vaxt göy üzü uçmuş kimi görünürdü və 44 gün ərzində gördüyümüz kiçik ümidlər baş nazirin bədbəxt bir sənədə imza atdığını öyrəndikcə yox oldu. Müharibənin dayandırıldığı, ancaq ümidlərimizin və gələcəyimizin təslim edildiyi gün. O gün hamımız çox qəzəbləndik, amma qarşıdakı ayların daha çətin olacağını təsəvvür edə bilməzdik. Bilməzdik ki, döyüşmədən və itkilər vermədən belə itirməyə davam edəcəyik, yeni əraziləri təhvil verməyə davam edəcəyik, hər addımda yanımızda Azərbaycan bayraqları görəcəyik, vətəndaşlarımız yollardan girov götürüləcək, azərbaycanlılar Ermənistan ərazisini ələ keçirəcək və biz bunun öhdəsindən gələ bilməyəcəyik. Onları yurdumuzdan qovmaq üçün heç nə edə bilməyəcəyik. Üstəlik, bizə qarşı olan psixoloji və təbliğat hücumu davam edəcək. Şuşada keçirilən Azərbaycan bayramları və mötəbər hadisələr buna sübutdur. Onların Zəngəzura qarşı iddiaları olsa da, cəmiyyətin buna qarşı hansısa bir cavabı yoxdur. Erməni rəsmilərin sülh və blokadadan çıxarmaq təkliflərinə gəlincə, bu, yalnız erməni xalqı üçün istehza və təhqirdir".

Erməni politoloq Armine Adibekyan da pessimistdir. O qeyd edir ki, Azərbaycan istəyinə hər zaman nail olmaq gücündədir: "Azərbaycanlılar öz proqramlarını minimum həyata keçirdilər. Yəni Qarabağı azad etdilər. İndi isə onların qarşısında maksimum proqramı həyata keçirmək durur". A.Adibekyan bildirib ki, indi Azərbaycanın qarşısında dayanan maksimum məsələ Zəngəzuru, Basarkeçəri, İrəvanı, Qarakilsəni və digər əraziləri azad etməkdir: "Hazırda Azərbaycanda növbəti nəsli buna hazırlayırlar. Çünki bilirlər ki, xoşluqla heç kim bu əraziləri onlara qaytarmayacaq. Əgər onlar Qarabağı azad ediblərsə, onda niyə sadaladığım torpaqları da geri qaytarmasınlar".

Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti, politoloq Aleksey Naumovun fikrincə də, Ermənistan öz məğlubiyyətinin başlanmasının ildönümünü tamam başqa ovqatda qarşıladı: "Ermənistan İkinci Qarabağ müharibəsinin nəticələrindən sonra hələ özünə gələ bilməyib, əslində onun özünə gəlməsi də mümkün deyil. Görünür, indi bu respublika yeni reallıqla barışmalı olacaq. Lakin və təəssüf ki, Ermənistan beynəlxalq cəhdlərini davam etdirir, ənənəyə görə güclü olduğu sahələrdə, yəni intriqalar və beynəlxalq təzyiq sahələrində qarşıdurmanı davam etdirməyə çalışır. Ermənistan öz yaralarını yalayır və heç kəs ondan hər hansı qətiyyətli hərəkət və igidlik gözləmir. İndi ondan ötrü yeni dövr başlanır - cari məqamda özünün tarixi əhəmiyyəti ilə barışmaq və öz səhvlərinin nəticələrini qiymətləndirmək dövrü".

Məğlub erməni xalqı BBC-nin kamerasına da ağır günlər yaşadıqlarını ifadə edib. BBC-nin "İrəvanda İkinci Qarabağ müharibəsinin bir illiyi ilə bağlı nə düşünürlər?" reportajında erməni vətəndaşları çox ağır məğlubiyyətin yaşandığını, bunun ölkə üçün dəhşətli olduğunu qeyd ediblər. Bir erməni qadın ötən bir ilin onlar üçün çox çətin olduğunu belə ifadə edib: "Birtəhər uyğunlaşırıq. Deyərdim ki, bunu zaman da sağaltmaz. İndi bizim şəhərimiz boşdur. Bu qurbanlar, itkilər, qüssəliyik. Doğrudur, bundan başqa da müharibələr olub. 4 günlük, ondan əvvəl. Amma bu, tamam başqa idi". BBC-nin digər erməni müsahibi isə 27 sentyabrı ümumi faciə adlandırıb: "Qarabağın itirilməsi bizi çox ağır sınaqlara düçar etdi. Azərbaycan necə deyirdi, elə də etdi. Bizimkilər rusları düşünürdü, Rusiya isə bunu etmədi, həmişəki kimi öz müttəfiqinin hayına yetmədi. Çox zaman keçməlidir, ancaq zaman da bu ağrını sağalda bilməz".

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# DTX: "Hüquqazidd çağırışlar edən şəxslər barəsində müvafiq tədbirlər görülüb"

Məlum olduğu kimi, sentyabrın 27-də Vətən müharibəsi zamanı həlak olmuş vətəndaşlarımızın ruhuna ehtiram əlaməti olaraq respublikamızın şəhər və rayonlarında anım tədbirləri keçirilib. Tədbirlərdə xalqımızın haqq savaşında canlarından keçmiş Vətən övladlarının əziz xatirəsi yad olunub, məzarları ziyarət edilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, bir sıra hallarda bəzi şəxslərin Vətən müharibəsi şəhidlərinin anım mərasimlərindən məqsədyönlü şəkildə, radikal dini-ideoloji ayrı-seçkilik təbliğatı niyyətindən istifadə etməklə, müxtəlif dövlətlərə qarşı dini, irqi zəmində düşmənçilik çağırışları edib, tədbirlərin keçirildiyi yerlərdən videoçəkilişlər apararaq yaymaları cəmiyyətin və dövlətin mənafelərinə ziyan vuran hərəkətlərə yol vermələri təsbit olunub. Həmin şəxslər Dövlət Təhlükəsizliyi Xidmətinə dəvət olunaraq qanunazidd davranışlarının qarşısı alınıb, dini, irqi və ya digər mənsubiyyətindən asılı olaraq nifrət və düşmənçiliyin salınmasına yönələn çağırışlarının Azərbaycan Respublikasının qanunları ilə müəyyənləşdirilmiş qaydada məsuliyyətə səbəb olduğu barədə xəbərdar ediliblər.

Dövlət Təhlükəsizliyi Xidməti bildirir ki, Azərbaycan Respublikasının Konstitusiyasına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə və təhlükəsizlik maraqlarına zidd davranışların qarşısı bundan sonra da qətiyyətlə alınacaq.

# Son sutkada Azərbaycanda koronavirus infeksiyasından 2062 nəfər sağalıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 842 yoluxma faktı qeydə alınıb, 2062 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 15 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 483 min 128 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 457 min 144 nəfər müalicə olunaraq sağalıb, 6 min 513 nəfər vəfat edib. Aktiv xəstə sayı 19 min 471 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 min 668, dünənə qədər isə ümumilikdə 4 milyon 849 min 531 test icra olunub.

# Bu il artıq 6800-dək şəxs üçün özünüməşğulluq proqramı əsasında kiçik təsərrüfatlar yaradılıb

## Onlardan 3317-si şəhid ailəsi üzvləri və qazilərdir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən özünüməşğulluq proqramı çərçivəsində bu il artıq 6800-dək şəxsə mal və materiallar formasında aktivlər verilib.




Verilmiş aktivlər hesabına onlar kiçik müəssisə və təsərrüfatlarını yaradıblar. Həmin şəxslərdən 3317-si şəhid ailəsi üzvləri və qazilərdir.

Proqrama cəlb olunan şəxslər üçün əvvəlcə kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlara yiyələnmələri məqsədilə təlimlər təşkil olunur. Təlimləri uğurla başa vuran şəxslər seçdikləri özünüməşğulluq istiqaməti üzrə biznes planlarına uyğun aktivlərlə təmin olunurlar.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
## "Dənizçi" MTK-nın 1-ci mərtəbəsi uşaq bağçası olmaqla yüksəkmərtəbəli yaşayış binalarının santexnika sisteminin qurulmasının satın alınması məqsədilə
## *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 oktyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Ünvan: AZ1003, Bakı şəhəri, Neftçilər prospekti, 2.
Əlaqə telefonu: (012) 404-37-00, daxili:1171

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə illik tələb olunan santexnika mallarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 oktyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.
Əlaqə telefonu: (012) 404-37-00, daxili:1176.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazov və nazirliyin kollegiya üzvləri istefada olan polis general-mayoru

**MEHMAN TƏHMƏZOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi MSN-in Elmi-Tədqiqat İnstitutunun direktoru Mürsəl Əliyevə atası

**İLDIRIM ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*
Tiraj 5015
Sifariş 1786
Qiyməti 40 qəpik